RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 92 (10112) 26 may 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan dünyada orta gücə malik olan dövlət kimi tanınır

### Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib

Bu gün bu layihələr olmadan Azərbaycanın ümumi inkişafını təsəvvür etmək mümkün deyil. O cümlədən kənd təsərrüfatının inkişafı üçün bu proqramda nəzərdə tutulmuş infrastruktur layihələri həlledici rol oynamışdı. Çünki o vaxt bölgələrdə demək olar ki, qaz təchizatı yox idi. Elektrik təchizatı ilə nəinki regionlarda, Bakıda böyük problemlər yaşanırdı, hətta böyük fasilələr olurdu. Avtomobil yolları yararsız vəziyyətdə idi. Su ilə təchizat demək olar ki, tamamilə tükənmişdi. Yəni kəndlərin dirçəldilməsi və kəndlərdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün bu proqramın həlledici rolu olmuşdu. O ildən bu yana bölgələrdə genişmiqyaslı infrastruktur layihələri icra edildi.

Əgər biz azad edilmiş torpaqları istisna etsək, bu gün ölkə üzrə qazlaşmanın səviyyəsi 96 faizdir. Elektrik təchizatı ilə heç bir yerdə heç bir problem yoxdur, nəinki özümüzü təmin edirik, hətta bizim böyük ixrac potensialımız yaradılmışdır. Bir çox magistral, şəhərlərarası və kənd yolları inşa edilmişdir. Böyük su anbarları inşa edilmişdir, ilk növbədə, Taxtakörpü, Şəmkirçay, Göytəpə və digərləri. Kanallar yenidən qurulmuşdur və bu proses davam etdirilir. Bir sözlə, bölgələrin və kənd təsərrüfatının inkişafı çox sürətlə getmişdir. Bunun nəticəsində bir çox istiqamətlər üzrə kənd təsərrüfatı məhsullarının istehsalında böyük artım olmuşdur. Onu da bildirməliyəm ki, bu illər ərzində bir neçə Dövlət Proqramı qəbul edilmişdir, üzümçülük, pambıqçılıq, fındıqçılıq, sitrusçuluq, digər istiqamətlər üzrə və bu sahələrə böyük təkan verilmişdir.

Kənd təsərrüfatının inkişafı üçün subsidiyaların böyük əhəmiyyəti var. Onu da bildirməliyəm ki, Azərbaycan dünyada nadir ölkələrdəndir ki, genişmiqyaslı və çoxçeşidli subsidiya mexanizmlərini tətbiq edir. Düzdür, burada da təkmilləşmə üçün imkanlar var və bu edilməlidir. Bu barədə də danışılacaq. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri. Deyə bilərəm ki, bu da dünyada nadir sayda olan ölkələrdə tətbiq edilir. Fermerlərə metodik tövsiyələr verilir və hər cür dəstək göstərilir, o cümlədən güzəştli kreditlərin verilməsi. Bu gün də dövlət xətti ilə həyata keçirilən bir çox layihələr təbii ki, kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir.

2-3

## Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident!

Sizə və Sizin şəxsinizdə dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı ifadə etməkdən şərəf duyuram.

Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. Bizim birgə planlaşdırmamız və rəhbərliyimiz ilə Çin-Azərbaycan münasibətləri yeni səviyyəyə yüksəlib, müxtəlif sahələrdə əməkdaşlıq böyük nəticələr verib. Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm, iki ölkənin xalqlarının rifahı naminə yüksək səviyyədə ikitərəfli əlaqələrin dinamikasının gücləndirilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Dost Azərbaycana tərəqqi və qüdrət, onun xalqına isə xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## Türkiyə ilə Azərbaycan arasında qardaşlıq və həmrəylik əlaqələri daha da güclənir

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli Prezident, Əziz Qardaşım!

Zati-alinizi və Can Azərbaycan xalqını Azərbaycanın Müstəqillik Günü münasibətilə xalqım adından və öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin bacarıqlı liderliyi və uzaqgörən siyasəti sayəsində Can Azərbaycanın davamlı şəkildə güclənməsindən, regionda və beynəlxalq miqyasda nüfuzunun artmasından böyük qürur və iftixar hissi keçiririk.

Türkiyə ilə Azərbaycan arasında öz gücünü tarixdən alan dərin köklü qardaşlıq və həmrəylik əlaqələri Ümummilli Lider Heydər Əliyevin bizə mirası olan "Bir millət, iki dövlət" prinsipi əsasında hər gün daha da güclənir. Türkiyə olaraq, güclü əlaqələrimiz əsasında qardaş Azərbaycanla bütün sahələrdə özünəməxsus sıx əməkdaşlığımızın və həmrəyliyimizin inkişafına davam edəcəyik.

İnanıram ki, güclü həmrəyliyimiz, əməkdaşlığımız və birgə layihələrimiz qarşıdakı dövrdə də xalqlarımızın rifahına, həmçinin regionumuzda sülhə, sabitliyə və inkişafa əhəmiyyətli töhfələr verməyə davam edəcək. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq və həmrəylik ruhunun bütün türk dünyasında, xüsusən də Türk Dövlətləri Təşkilatının çətiri altında əməkdaşlığımızın və həmrəyliyimizin inkişafına müsbət təsirini və töhfəsini görmək də xoşdur.

Fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı və xoşbəxtlik diləyir, qardaş Azərbaycan xalqının davamlı rifahı və tərəqqisi ilə bağlı ən xoş arzularımı bildirir, Can Azərbaycanın Müstəqillik Gününü bir daha ürəkdən təbrik edirəm.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

## Bakı ilə dostluq və müttəfiqlik münasibətlərimizə böyük əhəmiyyət veririk

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Milli bayram – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan iqtisadi və sosial sahələrdə böyük uğurlar əldə edib, dünya arenasında layiqli hörmət qazanıb.

Biz Bakı ilə dostluq və müttəfiqlik münasibətlərimizə böyük əhəmiyyət veririk. Əminəm ki, müxtəlif sahələrdə ikitərəfli səmərəli əməkdaşlığın, həmçinin regional və beynəlxalq məsələlərdə tərəfdaşlıq qarşılıqlı fəaliyyətinin birgə səylərlə daha da inkişafını təmin edə bilərik. Şübhəsiz ki, bu, Rusiya və Azərbaycan xalqlarının əsas maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər dənizində təhlükəsizliyin, sabitliyin möhkəmləndirilməsi məcrasında davam edir.

Hörmətli İlham Heydər oğlu, Sizə cansağlığı və uğurlar, bütün həmvətənlərinizə isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

## Regional liderlikdən qlobal aktorluğa

### Güclü reputasiyaya və yüksək nüfuza malik Azərbaycanın orta güc statusu dünya tərəfindən birmənalı qəbul edilir



Prezident İlham Əliyevin vurğuladığı orta güc statusu isə politologiyada çox mühüm kateqoriyadır. Bu status o deməkdir ki, Azərbaycan artıq, sadəcə, regional miqyasda deyil, qlobal proseslərə təsir göstərə bilən, müstəqil qərarlar qəbul edən və beynəlxalq koalisiyalarda ciddi çəkisi olan bir aktora çevrilmişdir. Beynəlxalq münasibətlər sistemində orta güc statusuna malik dövlətlər proseslərin gedişatını müəyyən edir, diplomatiyada və qlobal iqtisadiyyatda həlledici və balanslaşdırıcı rol oynayırlar.

4

## WUF13 bir çox ilkə imza atdı

176 ölkədən 58 mindən çox iştirakçısı olan və indiyədək keçirilən ən böyük Ümumdünya Şəhərsalma Forumu kimi tədbirin yüksək səviyyədə təşkilinə, göstərilən qonaqpərvərliyə və yaradılmış səmərəli dialoq mühitinə görə Azərbaycan dövlətinə və xalqına minnətdarlıq edildi.

Yekun sənəddə həmçinin vurğulanıb ki, Ümumdünya Şəhərsalma Forumunun tarixində ilk dəfə olaraq ev sahibi ölkənin təşəbbüsü ilə təşkil edilən Liderlər Sammitində 27 dövlət və hökumət başçısı iştirak edib. Forum çərçivəsində 150-dən çox nazir, 130-dan artıq şəhər başçısı, BMT-nin Baş katibinin müavini və bir sıra yüksəksəviyyəli rəsmilər təmsil olunublar. WUF13-ün əsas yenilikləri sırasında Bakı Urban Mükafatı, Biznes və İnnovasiya Hub-ı, WUF Akademiyası kampusu və Təcrübələr Hub-ı xüsusi yer tutub.

9



## Prezident İlham ƏLİYEV: "WUF13 Azərbaycanın daha yaxşı gələcək naminə multikulturalizmə və kollektiv fəaliyyətə verdiyi daha bir mühüm töhfədir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) başa çatması ilə bağlı paylaşım edilib.**




AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Azərbaycan COP29-dan sonra ölkədə keçirilən ikinci ən böyük beynəlxalq tədbir olan WUF13 kimi daha bir mühüm qlobal tədbirə evsahibliyi etmək şərəfinə nail oldu.

Biz bütün iştirakçıları, tərəfdaşları və BMT ailəsini, xüsusilə də UN-Habitatı uğurlu və nəticəyönümlü WUF13 münasibətilə təbrik edirik.

Təxminən 60 min iştirakçının rekord sayı ilə WUF13 tarixə ən böyük Ümumdünya Şəhərsalma Forumu kimi düşdü. Azərbaycanın təşəbbüsü ilə ilk dəfə təşkil olunan Liderlər Seqmenti qlobal şəhərsalma gündəliyinə daha böyük siyasi impuls vermiş oldu.

WUF13 çərçivəsində aparılan zəngin və hərtərəfli müzakirələr iki mühüm yekun sənədin - Sədrin Xülasəsi və "Bakı Fəaliyyətə Çağırış" sənədinin qəbul olunması ilə nəticələndi. Urbisid, kultursid və ekosidin qurbanı olmuş ölkə kimi Azərbaycan hazırda Qarabağ və Şərqi Zəngəzurda 9 şəhəri və yüzlərlə kəndi sıfırdan yenidən qurur. Buna görə də beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın münaqişədən sonrakı bərpa səylərinin yüksək qiymətləndirilməsindən qürur duyuruq; bu səylər dünyanın digər postmünaqişə bölgələri üçün dəyərli nümunə kimi vurğulanır.

Forumdan irəli gələn və yekun sənədlərdə öz əksini tapan ideyalar - təmiz hava və dayanıqlı şəhər inkişafından tutmuş mədəni irsin qorunması və inkişaf etməkdə olan kiçik ada dövlətlərin ehtiyaclarınadək - qlobal şəhərsalma gündəliyini daha da zənginləşdirəcək və istiqamətləndirəcək.

Qlobal qeyri-müəyyənliyin artdığı bir dövrdə WUF13 Azərbaycanın daha yaxşı gələcək naminə multikulturalizmə və kollektiv fəaliyyətə verdiyi daha bir mühüm töhfədir".

# Azərbaycan dünyada orta gücə malik olan dövlət kimi tanınır

## Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib

**Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə nitq söyləyib.**

## Prezident İlham Əliyevin nitqi



- Bugünkü müşavirədə biz kənd təsərrüfatının inkişafını müzakirə edəcəyik. Bildiyiniz kimi, bu sahəyə daim çox böyük diqqət göstərilir. Hələ ilk dəfə prezident vəzifəsinə seçiləndən sonra 2004-cü ildə ilk təşəbbüslərimdən biri regional inkişaf proqramı idi və onun da tərkib hissəsi kənd təsərrüfatının inkişafı idi.

2004-cü ilin əvvəlində qəbul edilmiş birinci beşillik proqram bir çox məsələlərin həll edilməsinə kömək göstərdi və biz gördük ki, bu proqramın davamı olmalıdır. Ondan sonra bir neçə beşillik regional inkişaf proqramı qəbul edildi. Bunun nəticəsində bütün regionlar canlandı, regionlarda məşğulluq artdı və böyük infrastruktur layihələri icra edildi. Bu gün bu layihələr olmadan Azərbaycanın ümumi inkişafını təsəvvür etmək mümkün deyil. O cümlədən kənd təsərrüfatının inkişafı üçün bu proqramda nəzərdə tutulmuş infrastruktur layihələri həlledici rol oynamışdı. Çünki o vaxt bölgələrdə demək olar ki, qaz təchizatı yox idi. Elektrik təchizatı ilə nəinki regionlarda, Bakıda böyük problemlər yaşanırdı, hətta böyük fasilələr olurdu. Avtomobil yolları yararsız vəziyyətdə idi. Su ilə təchizat demək olar ki, tamamilə tükənmişdi. Yəni kəndlərin dirçəldilməsi və kəndlərdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün bu proqramın həlledici rolu olmuşdu. O ildən bu yana bölgələrdə genişmiqyaslı infrastruktur layihələri icra edildi.

Əgər biz azad edilmiş torpaqları istisna etsək, bu gün ölkə üzrə qazlaşmanın səviyyəsi 96 faizdir. Elektrik təchizatı ilə heç bir yerdə heç bir problem yoxdur, nəinki özümüzü təmin edirik, hətta bizim böyük ixrac potensialımız yaradılmışdır. Bir çox magistral, şəhərlərarası və kənd yolları inşa edilmişdir. Böyük su anbarları inşa edilmişdir, ilk növbədə, Taxtakörpü, Şəmkirçay, Göytəpə və digərləri. Kanallar yenidən qurulmuşdur və bu proses davam etdirilir. Bir sözlə, bölgələrin və kənd təsərrüfatının inkişafı çox sürətlə getmişdir. Bunun nəticəsində bir çox istiqamətlər üzrə kənd təsərrüfatı məhsullarının istehsalında böyük artım olmuşdur. Onu da bildirməliyəm ki, bu illər ərzində bir neçə Dövlət Proqramı qəbul edilmişdir, üzümçülük, pambıqçılıq, fındıqçılıq, sitrusçuluq, digər istiqamətlər üzrə və bu sahələrə böyük təkan verilmişdir.

Kənd təsərrüfatının inkişafı üçün subsidiyaların böyük əhəmiyyəti var. Onu da bildirməliyəm ki, Azərbaycan dünyada nadir ölkələrdəndir ki, genişmiqyaslı və çoxçeşidli subsidiya mexanizmlərini tətbiq edir. Düzdür, burada da təkmilləşmə üçün imkanlar var və bu edilməlidir. Bu barədə də danışılacaq. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri. Deyə bilərəm ki, bu da dünyada nadir sayda olan ölkələrdə tətbiq edilir. Fermerlərə metodik tövsiyələr verilir və hər cür dəstək göstərilir, o cümlədən güzəştli kreditlərin verilməsi. Bu gün də dövlət xətti ilə həyata keçirilən bir çox layihələr təbii ki, kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir. Məsələn, əgər pambıqçılığı götürsək, vaxtilə 70-80-ci illərdə pambıq istehsalı Azərbaycanda ildən-ilə artırdı, amma sonra müəyyən səbəblərə görə faktiki olaraq bu sahə əldən gedirdi. Həm məhsuldarlıq çox aşağı səviyyədə idi, təqribən hektardan maksimum bir ton, köhnə dillə desək 10 sentner. Azərbaycanda pambıq istehsalı 20 min tona düşmüşdü. Görülmüş tədbirlər, ildən-ilə aparılan islahatlar nəticəsində bu gün həm məhsuldarlıq, həm də istehsal artıb. Bu gün son nəticələrə görə 360 min tondan çox pambıq istehsal edilmişdi və pambıqçılıqda ixtisaslaşmış rayonlarda bunun kənddə yaşayan insanlar üçün çox böyük xeyri olmuşdur.

Baramaçılıq faktiki olaraq əldən getmişdi. Görülmüş tədbirlər və dövlət dəstəyi nəticəsində biz baramaçılığı da bərpa etdik. Bununla bağlı olan ipəkçilik də inkişaf etməyə başlamışdı. Belə misallar çoxdur, yəni çox vaxt itirmək istəmirəm. Sadəcə olaraq, bildirməliyəm ki, bizim bir çox istiqamətlər üzrə nəzərdə tutduğumuz vəzifələr icra edildi.

Ancaq buna baxmayaraq, son vaxtlar kənd təsərrüfatı istehsalında dinamika məni qane etmir. Bir müddət bundan əvvəl Prezident Administrasiyasına, hökumətə göstəriş verildi ki, kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramı hazırlansın, qəbul edilsin, hərtərəfli, əhatəli olsun. Həm dövlət investisiyaları, həm özəl sektor tərəfindən cəlb ediləcək investisiyaları özündə ehtiva etməlidir. Proqram çox konkret və qısamüddətli olmalıdır. Bu gün müzakirə edəcəyimiz məsələlər bu proqramın qəbul edilməsi və icrası ilə bağlı olacaq. Mən əminəm ki, bu proqram icra ediləndən sonra bizim əsas hədəflərimiz tam yerinə yetiriləcəkdir.

Bu gün dünyada gedən meyillər kənd təsərrüfatının istehsalına da mənfi təsir göstərir. Müharibələr, münaqişələr, nəqliyyat zəncirlərinin qırılması, enerji sektorundakı böhran, yanacaqla bağlı olan müəyyən çətinliklər bir çox ənənəvi istehsalçıları çətin vəziyyətə qoymuşdur. Bunu nəzərə alaraq, əlbəttə ki, hər bir ölkə öz ərzaq təhlükəsizliyi haqqında düşünməlidir və konkret addımlar atmalıdır.

İkinci vacib amil, - bu yaxınlarda Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun müzakirələrində də bu öz əksini tapmışdır, - genişmiqyaslı urbanizasiya, yeni kəndlərdən şəhərlərə olan axın. Bu, təkcə ölkəmiz üçün deyil, bütün ölkələr üçün xas olan mənfi meyildir. Ancaq bəzi ölkələr, sadəcə olaraq, bu məsələnin həlli üçün imkan tapa bilmir, yaxud da ki, düzgün strategiya işləyə bilmirlər. Biz isə elə etməliyik ki, kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın. Bunun üçün də əlbəttə ki, kəndlə şəhər arasındakı istənilən istiqamətlər üzrə fərqlər azaldılmalıdır. Qeyd etdiyim Regional İnkişaf Proqramının və proqramlarının, - dediyim kimi, bir neçə proqram qəbul edilmişdir, - məqsədi də bu idi ki, bölgələrdə elə şərait yaradılmalıdır ki, insanlar orada yaşasınlar, qalsınlar, öz dədə-baba torpaqlarında çalışsınlar, ənənəvi fəaliyyətlə məşğul olsunlar, əkin, biçin, turizm imkanları. Yəni orada xidmət sektoru da yüksək səviyyədə olmalıdır. Onu da bildirməliyəm ki, biz Regional İnkişaf proqramlarını icra etdikcə sosial infrastruktur layihələrini də uğurla icra etmişik. Bizim bütün rayon mərkəzlərində, şəhərlərdə müasir xəstəxanalar var, məktəb tikintisi geniş vüsət almışdır. Düzdür, hələ yararsız vəziyyətdə məktəblər var, amma onların sayı ildən-ilə azalır. Bizim 4 mindən çox məktəbimiz var, bəlkə də bir az az, bir az çox. Onların təqribən deyə bilərəm ki, 80-85, bəlkə də 90 faizi təmir edilib, nə qədər məktəb tikilib. Ona görə bölgələrdə məşğulluğu artırmaq və insanları torpağa daha bağlı etmək üçün biz kənd təsərrüfatının inkişafına yeni təkan verməliyik.

Yenə də deyirəm, qəbul edilmiş proqramlar və qərarlar böyük dönüşə səbəb olub. Ancaq son bir neçə il ərzində kənd təsərrüfatının inkişafında müşahidə edilən durğunluq, əlbəttə ki, bizi düşündürür və bu məqsədlə Dövlət Proqramı hazırlanıb və qəbul ediləcək. Bununla əlaqədar bəzi rəqəmləri səsləndirmək istərdim. Bu, xüsusilə özəl sektora göndərilən siqnal və mesaj olacaq. Çünki dövlət qurumları bu rəqəmləri bilirlər. Özəl sektor nümayəndələrinin də Dövlət Proqramının icrasında xüsusi rolu olmalıdır. Burada biznes nümayəndələrinin, əlbəttə ki, məsuliyyəti ön planda olmalıdır. Öz ölkələrinə olan bağlılıq və sərmayə qoyuluşu üçün daha münbit şərait olmalıdır. Əlbəttə ki, biz müxtəlif mexanizmlərdən də istifadə edəcəyik. Həm güzəştli kreditlər, həm digər alətlərdən istifadə etməliyik ki, Azərbaycan sahibkarlarının kənd təsərrüfatının inkişafına sərmayə qoymasına daha böyük həcmdə nail olaq. Eyni zamanda biz xarici investorları da həm məlumatlandırmalıyıq, həm də təşviq etməliyik. Çünki bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Bizim dünya miqyasında çox yüksək reputasiyamız var, çox müsbət imicimiz var. Azərbaycan artıq dünyada orta gücə malik olan dövlət kimi tanınır və bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə bizimlə əməkdaşlıq etmək istəyirlər. Biz, əlbəttə ki, bütün şirkətlərə, o cümlədən xarici investorlara qanun çərçivəsində lazımi şərait yaradırıq. Ancaq, eyni zamanda biz xarici şirkətləri bizə lazım olan sahələrə cəlb etməliyik. Ona görə burada səsləndirəcəyim rəqəmlər həm yerli, həm xarici investorlara bir mesajdır.

Beləliklə, bizim istehsalımızla bağlı özümüzü təminetmə əmsalı və bəzi rəqəmlər səsləndiriləcək. Buğda istehsalı. Biz cəmi 55 faiz səviyyəsində özümüzü buğda ilə təmin edirik və əfsuslar olsun ki, bu əmsal artmır. Biz elə yerində sayırıq. Neçə ildir ki, bizdə elə bu səviyyədə buğda istehsal olunur, baxmayaraq çox böyük təkan verilmişdir, bir çox aqroparklar yaradılmışdır. Onu da bildirməliyəm ki, aqroparkların yaradılması kənd təsərrüfatının inkişafında çox böyük rol oynamışdır. Buna baxmayaraq, buğda istehsalı və onun özünü təminetmə əmsalı bizdə artmır. Daxili istehsal 1 milyon 573 min ton, idxal 1 milyon 267 min ton. Bax, bu idxalı biz azaltmalıyıq. Təbii ki, bizim coğrafiyamızı nəzərə alaraq, əkin sahələrini nəzərə alaraq, digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin zəruriliyini nəzərə alaraq, biz hədəf qoymalıyıq ki, 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edək. Ancaq hər halda 55 faiz qəbuledilməz rəqəmdir və bu, mütləq artmalıdır.

Digər dənlilər üzrə vəziyyət prinsip etibarilə müsbətdir, özümüzü 95 faiz təmin edirik və idxal da çox cüzidir. Dənli paxlalar. Daxili istehsal 23 min ton, idxal 15 min ton. Yəni özümüzü təminetmə indeksi 63 faizdir. Kartof. Özümüzü 91 faiz təmin edirik, 160 min ton idxal edirik. Ancaq onu da bildirməliyəm ki, 71 min ton da ixrac edirik. Ona görə burada, yəni kəsir o qədər də böyük deyil. Kartof istehsalının artırılması üçün də imkanlar var və biz idxalı tamamilə aradan götürməliyik və həm özümüzü təmin etməliyik, eyni zamanda daha böyük həcmdə ixrac etməliyik.

Tərəvəz, bostan məhsulları, meyvə, giləmeyvə. Burada vəziyyət müsbətdir. Özümüzü tərəvəz üzrə 107 faiz təmin edirik və 214 min ton ixrac edirik. Daxili istehsal isə 1 milyon 770 min tondur. Bostan məhsulları istehsalı 460 min ton, idxal demək olar ki, yoxdur. İxrac 18 min ton, 104 faiz. Meyvə, giləmeyvə. 140 faiz təminat, istehsal 1 milyon 400 min ton. Təbii ki, idxal da var. Çünki müxtəlif meyvələr var ki, onlar idxal olunur, bizdə yetişmir. Amma ixrac da kifayət qədər böyükdür, təqribən 600 min tona yaxın. Mən qeyd etdim ki, biz fındıqçılıq üzrə Dövlət Proqramı qəbul etdik. Ondan sonra fındıq bağları geniş vüsət almışdır. Bu gün biz qoz-fındıq istiqaməti üzrə 84 min ton məhsul yetişdiririk, 30 min ton da ixrac edirik. Yəni bu istiqamət üzrə biz dünyada 3-4-cü yerdə qərarlaşmışıq. Üzüm istehsalı. Özümüzü təminetmə əmsalı 92 faiz, istehsal 211 min ton, idxal 28 min ton, ixrac da var. İxrac da 10 min ton.

Mal əti. Özümüzü 84 faiz təmin edirik, 30 min ton idxal edilir, 150 min ton daxili istehsaldır. Quş əti. 82 faiz, 147 min ton istehsal, 32 min ton idxaldır. Qoyun-keçi əti. 94 faiz, istehsal 88, idxal 5 min ton. Yumurta. 2 milyard 340 min ədəd istehsal olunur, idxal yoxdur, ehtiyac yoxdur. İxrac isə 90 milyon ədəddir. Balıq və balıq məhsulları. 81 faiz təminatdır, 23 min ton idxaldır, ixrac 7 min ton. Bitki yağları. Özümüzü 52 faiz təmin edirik. Kərə yağı. 62 faiz, istehsal 26 min ton, idxal 20 min ton, ixrac 4 min ton. Çay. 86 faiz, istehsal 11 min ton, idxal 2,5 min ton, ixrac min tona yaxın. Duz. Özümüzü təmin edirik, ixrac edirik 20 min ton, daxili istehsal 80 min ton. Un. 95 faiz, daxili istehsal 1 milyon 364 min ton, idxal 95 min ton, ixrac 28 min ton. Makaron məmulatları. Daxili istehsal 34 min ton, idxal 18 min ton, ixrac 14 min ton, ümumi təminat 89 faiz. Şəkər. Özümüzü 102 faiz təmin edirik və 96 min ton ixracımız var. Bu rəqəmləri mən qeyd etdiyim kimi, investorlar üçün səsləndirirəm və onları dəvət edirəm ki, bizdə bu gün idxal olunan məhsulların istehsalına onlar töhfə versinlər.

Bəzi vəzifələrlə əlaqədar aşağıdakıları deyə bilərəm, ərzaq təhlükəsizliyi ilə əlaqədar artıq bildirildi. Burada təkcə müharibələr və nəqliyyat zəncirlərinin qırılması deyil, iqlim dəyişikliyi də rol oynayır. Bütün bunları biz də müşahidə edirik. May ayında Bakıda hər halda belə yağışın yağmasını mən xatırlamıram. Məndən yaşlı olan insanlar da yəqin ki, xatırlamır. Artıq bu, əfsuslar olsun ki, bəzən fəsadlar törədir. Amma digər tərəfdən, bizim su ehtiyatlarımızı da böyük dərəcədə artırır və bu gün anbarlarda yığılan su bizə imkan verəcək ki, kənd təsərrüfatı üçün bu il su problemi olmasın.

Torpaqlardan səmərəli istifadə məsələsi. Burada məqsəd məhsuldarlığı maksimum artırmaq və torpaqların dəqiq analizini aparmaqdır ki, hansı ərazidə hansı torpaq sahəsində hansı məhsulun yetişdirilməsi daha məqsədəuyğun ola bilər. Burada, əlbəttə ki, rayonlaşma məsələləri çox önəmlidir. Amma bilirəm ki, bəzi hallarda bir rayonda fərqli torpaq sahələrində torpağın keyfiyyəti də fərqlidir. Ona görə demək ki, filan rayonda ancaq bu məhsul yetişdirilsin, başqa məhsul yetişdirilməsin, düzgün olmaz. Təbii ki, hər bir sahə üzrə dəqiq analiz aparılarkən onun elektron versiyası, müxtəlif dəqiqləşdirmə üsulları, yeni texnologiyalardan istifadə edilməlidir, o cümlədən süni intellekt, peyk imkanları, yerlərdə aparılan tədqiqat. Ölkə ərazisi o qədər də böyük deyil. Ona görə bunu etmək çətin olmayacaq. Müəyyən işlər görülüb. Ancaq hər bir əkin üçün yararlı torpaq sahəsinin, necə deyərlər, öz pasportu olmalıdır. Orada hansı məhsul yetişdirilərsə, fermer daha çox qazanc götürəcək bu, birincisi. İkincisi, bizim ümumi kənd təsərrüfatının inkişafı və ixracı strategiyamızın əsasında bu olmalıdır. İxrac təbii ki, bazarlara bağlıdır. Bazarlar var ənənəvi, var yeni. Ona görə ənənəvi bazarlarda bizim məhsul nə vaxta qədər lazım olacaq? Bu təhlil də aparılmalıdır. Prinsipcə müvafiq göstərişlər verildi ki, tərəfdaş ölkələrlə bu məsələlər də müzakirə edilsin ki, biz tutaq ki, meyvə, tərəvəz, bostan məhsullarını böyük həcmdə ixrac edirik. Nə vaxta qədər buna tələbat olacaq bizim üçün ənənəvi sayılan bazarlarda? Çünki indi bir çox ölkələr ərzaq təhlükəsizliyi ilə məşğuldurlar. Düzdür, bəzi ölkələrdə iqlim imkan vermir ki, müxtəlif meyvələr yetişdirilsin. Ancaq hər halda bizim ixracımız bazarlara bağlı olmalıdır. Ona görə subsidiyalar veriləndə, əlbəttə, bu amillər nəzərə alınmalıdır - daxili tələbatın bağlanması və ixrac imkanlarının genişləndirilməsi. Yəni ona görə subsidiyalar da çox çevik olmalıdır. Bəlkə də hər il yenidən baxılmalıdır - həm rayonlar üzrə, həm yetişdirilən məhsul üzrə. Yəni bir dəfə bu məhsula bu qədər subsidiya veririk və 10 il bu davam edir, belə olmaz. Yəni bu, çox çevik mexanizm olmalıdır. Bu da təbii ki, bütün aidiyyəti qurumlar tərəfindən nəzərə alınmalıdır.

Kənd təsərrüfatı texnikası ilə təminat. Bu istiqamətdə də çox böyük işlər görülmüşdür. Son 20 il ərzində biz faktiki olaraq öz texnika parkımızı tamamilə yenidən formalaşdırdıq. Köhnədən qalan texnikalar demək olar ki, artıq yoxdur və burada da dövlət fermerlər üçün kifayət qədər qəbul edilən şərtlər ortaya qoyub. O cümlədən indi biz özümüz də kənd təsərrüfatı texnikasını istehsal edirik və gələcəkdə bu istiqamətdə əlavə addımlar atılacaq.

Gübrə istehsalının artırılması. Biz indi Karbamid zavodunun fəaliyyəti nəticəsində nəinki özümüzü, hətta bir çox ölkələri azot gübrələri ilə təmin edirik. Ancaq bu, cəmi bir növ gübrədir. Bizə bir çox növ gübrələr lazımdır. Ona görə bəzi xarici şirkətlərlə indi bu məsələlər müzakirə edilir, Azərbaycanda qarışıq gübrə istehsalının yaradılması və gübrələrin fasiləsiz ölkəmizə idxal edilməsi. Çünki bu məsələlərdə də dünyada indi vəziyyət qeyri-müəyyəndir. Bəzi gübrə zavodları bağlanıb, çünki qazın qiyməti kəskin artanda gübrə istehsalı iqtisadi cəhətdən səmərəli olmur, müəyyən qıtlıq yaradılır. Ona görə, əlbəttə, praqmatizm nöqteyi-nəzərindən biz başa düşməliyik ki, biz bütün növ gübrələri istehsal edə bilməyəcəyik, ancaq hər halda onların çeşidlərini genişləndirməliyik.

Kənd təsərrüfatı ilə məşğul olanlar üçün metodik tövsiyələr, treninqlər, bu, artıq uzun illərdir davam edir. Maarifləndirmə prosesi və sığorta məsələləri. Yəni bütün bunları biz daha da təkmil şəkildə həyata keçirməliyik.

Biz kənd təsərrüfatının inkişafı ilə əlaqədar birinci proqramı qəbul edəndə soyuducu anbarların yaradılması məsələsi çox kəskin dayanmışdı. Çünki bu olmadan məhsulu saxlamaq mümkün deyil. Deyə bilərəm ki, son illər ərzində Azərbaycanda 400 min ton tutumlu soyuducu anbarlar yaradılıb. İndi təsəvvür edin ki, bu olmasaydı. Burada da onların mütləq əksəriyyəti güzəştli, azfaizli kreditlər hesabına yaradılıb. Ancaq soyuducu anbarların tutumu bizdə 500 min ton olmalıdır. Ona görə 100 min ton tutumlu soyuducu anbar infrastrukturu yaradılmalıdır.

Su təchizatı. Bunsuz kənd təsərrüfatının inkişafı mümkün deyil. Burada da qeyd etdiyim kimi, bir çox önəmli layihələr icra edildi. Su anbarları - Taxtakörpü, Şəmkirçay ən böyük su anbarlarıdır, Göytəpə su anbarı, digər su anbarları. İndi 10 su anbarının yenidən qurulması layihəsi icra edilir. Qarabağ və Şərqi Zəngəzur işğalçılardan azad ediləndən sonra dərhal orada su anbarlarının bərpasına başlamışıq və artıq Köndələnçay su anbarlarının sayı üç oldu. Xaçınçay, ondan sonra Suqovuşan, Sərsəng, Zabuxçay su anbarları yenidən quruldu. Sovet vaxtında yox idi, indi Bərgüşad və Həkəri su anbarlarının tikintisi işləri gedir. Qarabağda və Şərqi Zəngəzurda bizim 25 faiz su ehtiyatlarımız formalaşır. Onlardan səmərəli istifadə etmək, həm o bölgəni, həm digər bölgələri su ilə təmin etmək mümkün olacaq. Çünki vaxtilə Sərsəng və Suqovuşan su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılanda məqsəd Qarabağın hüdudlarından kənarda olan 7-8 rayonu su ilə təmin etmək idi. O vaxt, işğaldan sonra ermənilər suyumuzu kəsmişdilər. İndi bir kanal fəaliyyətdədir. Digər kanalın tikintisi davam edir və beləliklə, 8 rayona, təqribən 100 min hektar torpağa su veriləcək.

Şirvan kanalı. Bunun tikintisinə biz beton kanal olaraq başlamışıq və yəqin ki, gələn il artıq istifadəyə veriləcək. Bu da böyük həcmdə torpaq sahələrini su ilə təmin edəcək. Bu barədə bu gün məruzə ediləcək.

Biz Qarabağ kanalının bərpasına, yenidən qurulmasına başlamışıq. Vaxtilə bunlar Yuxarı Şirvan, Yuxarı Qarabağ kanalları adlandırılırdı. Amma Aşağı Şirvan, Aşağı Qarabağ kanalları olmadığı üçün biz qərara gəldik ki, bunları elə Şirvan və Qarabağ kanalları adlandıraq. Yəni bu kanallar işə düşəndən sonra bəlkə də 200-300 min hektar torpağa su veriləcək. Ancaq bu torpaqlarda müasir şəbəkə qurulmalıdır və bu da Dövlət Proqramında nəzərdə tutulur. Müasir suvarma sistemləri hazırda, - bu da dövlətin dəstəyi ilə mümkün olub, - 130 min hektarda tətbiq olunur. Məqsəd bunu 300 min hektara çatdırmaqdır. Əgər bizim 300 min hektarda müasir suvarma sistemləri qurularsa, baxın, nə qədər məhsuldarlıq arta bilər.

Məhsuldarlığa gəldikdə, son illər ərzində burada artım var və biz bunu yüksək qiymətləndiririk. Misal üçün taxılçılıqda, bizdə bu gün hər hektardan 3,2 ton məhsul yığılır. Əvvəlki illərdə bu, təqribən 2 ton, bəlkə də bir qədər çox idi. Məqsəd bunu 5 tona çatdırmaqdır.

Pambıqçılıq. Qeyd etdiyim kimi, bizdə hektardan məhsuldarlıq cəmi 1 ton idi, görülmüş işlər nəticəsində 3,6 tona çatıb. Bu da bütün dövrləri, hətta sovet dövrünü götürsək, ən yüksək nəticədir. Amma məqsəd hər hektardan ən azı 5 ton götürməkdir. Belə olan halda bizdə 100 min hektarda ki, pambıq əkilir, 500 min ton pambıq istehsal olunacaq. Əlbəttə ki, bunun ondan sonrakı emalı məsələlərinə də biz baxırıq. İplik, ondan sonra hazır məhsul - qarşıya məqsəd qoyulmalıdır ki, biz mahlıc ixrac etməyək, hazır məhsul istehsal edək, ixrac edək. Bu istiqamətdə artıq işlər görülür. Yeni fabriklər qurulmalıdır və mən investorları buna dəvət edirəm.

İntensiv bağçılıq. Biz bunun da müsbət nəticəsini görürük, o cümlədən azad edilmiş torpaqlarda. Ağalı kəndinin yaxınlığında salınmış meyvə bağı. Mən bu yaxınlarda Zəngilanda olarkən məlumat verildi ki, artıq oradan ixrac da olunur. Yəni intensiv bağçılıq, xüsusilə meyvə yetişdirilən bölgələrdə əsas prioritet olmalıdır və burada qarşıya məqsəd qoyulur ki, 20 min yeni hektarda intensiv bağçılıq səviyyəsində bağlar qurulsun.

İstixana kompleksləri. Bu gün bizim 1500 hektarı əhatə edən istixanalarımız var, 500 hektar əlavə olunmalıdır. Əlbəttə ki, biz burada da ilk növbədə, özəl sektorun fəaliyyətinə arxalanırıq.

Ət, süd, quş əti ilə 100 faiz özümüzü təmin etməliyik. Mən rəqəmləri qeyd etdim, təqribən 80-90 faiz səviyyəsindədir. Bunu 100 faizə çatdırmaq üçün mən hesab edirəm ki, imkanlar var və bu proqram qeyd etdiyim kimi, qısamüddətli olmalıdır, 2026-2030-cu illəri əhatə edəcək. Nəzərə alsaq ki, 2026-cı ilin demək olar ki, yarısı artıq arxada qalır, bu proqramın icrası üçün cəmi dörd il yarım qalır. Buna görə dövlət xətti ilə proqramın maliyyələşdirilməsi üçün vəsait bu il ayrılmalıdır.

Hökumətə tapşırıram ki, vəsait tapılsın və özəl sektorla da müxtəlif qurumlar, təbii ki, Kənd Təsərrüfatı Nazirliyi, hökumət, ondan sonra Prezident Administrasiyası, İqtisadiyyat Nazirliyi, digər qurumlar fəal işləməlidirlər. Təxmini hesablamalar aparılıb. Əlbəttə ki, indidən bunu demək çox çətindir. Amma təxmini hesablamalar göstərir ki, dövlət xətti ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün 2 milyard manatdan çox vəsait lazım olacaq, özəl sektorun payı isə təqribən 3 milyard manatdan çox olacaq. Çox böyük rəqəmdir. Xüsusilə nəzərə alsaq ki, cəmi dörd il yarım ərzində bunu biz həyata keçirməliyik, ona görə proqram qəbul ediləndən dərhal sonra biz işlərə başlamalıyıq.

*Ardı 3-cü səh.*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Azərbaycan dünyada orta gücə malik olan dövlət kimi tanınır

## Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib

*Əvvəli 2-ci səh.*

❖❖❖

Azərbaycanın kənd təsərrüfatı naziri **Məcnun MƏMMƏDOV** çıxış edərək dedi:

- Cənab Prezident, ilk növbədə aqrar sahənin inkişafı üçün mütəmadi olaraq verdiyiniz dəstəyə və qayğıya görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Qeyd edim ki, ölkəmizdə aqrar sahədə həyata keçirilən islahatların əsası Ulu Öndər Heydər Əliyevin dönəmindən başlanmış və Sizin rəhbərliyiniz dönəmində yeni bir mərhələyə qədəm qoymuşdur. Çıxışınızda qeyd etdiyiniz kimi, bir çox məsələlər - məhsuldarlığın artırılması, özünütəminat səviyyəsinin yüksəldilməsi, kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılması, fermerlərin rifah səviyyəsinin yüksəldilməsi istiqamətlərində işlər görülmüşdür.



İcazənizlə, bu gün "Aqrar sahənin inkişafı: mövcud vəziyyət və 2030 perspektivləri" mövzusunda təqdimat etmək istəyirəm. Təqdimat üç hissədən ibarətdir. Giriş hissəsində kənd təsərrüfatının strateji əhəmiyyəti haqqında məlumat təqdim edəcəyəm. Daha sonra mövcud vəziyyət, çağırışlar, aqrar sahədə - bitkiçilikdə, heyvandarlıqda olan trendlər, aqrar ticarət dinamikası haqqında məlumat veriləcək, sonra isə bu çağırışlar əsasında Sizin tapşırığınızla hazırlanmış Dövlət Proqramının əsas müddəaları təqdim olunacaq.

İlk növbədə kənd təsərrüfatının ölkə üçün strateji əhəmiyyətini qeyd etmək istəyirəm. Qeyd edim ki, 2025-ci ildə kənd təsərrüfatı istehsalı ümumdaxili məhsulun 5,9 faizini təşkil etmişdir. Qeyri-neft ümumdaxili məhsulunda isə 8,3 faiz paya malik olmuşdur. Kənd təsərrüfatı, sadəcə, iqtisadi fəaliyyət deyil, eyni zamanda ərzaq təhlükəsizliyi, məşğulluq, regionların inkişafı və ixrac potensialının artırılması istiqamətlərində öz töhfəsini verən çoxfunksional bir sahədir. Qeyd edim ki, əsasən də regionlarda məşğulluğun, demək olar, 50 faizi məhz kənd təsərrüfatı sahəsində təmin olunur. Siz çıxışınızda da qeyd etdiyiniz kimi, kənd təsərrüfatı, eyni zamanda iqlimə çox məruz qalan və təbii resurslardan asılı olan bir sahədir. Azərbaycanda torpaq fondunun 55 faizi, istehlak olunan suyun isə 70 faizindən çoxu kənd təsərrüfatında istifadə edilir. Bu da bizə əsas verir ki, kənd təsərrüfatının, sadəcə, məhsul istehsalını düşünməli deyilik. Eyni zamanda resurslardan səmərəli istifadəni və iqlimə uyğunlaşmanı da proqram çərçivəsində nəzərə almalıyıq.

Cənab Prezident, bu səhifədə Azərbaycanda aqrar sahənin sektoral bölgüsü təqdim edilmişdir. Qeyd edim ki, 2025-ci ildə aqrar sahədə toplam məhsul istehsalı 14 milyard manat olmuşdur. Bu istehsal iki sahə - heyvandarlıq və bitkiçilik arasında demək olar ki, əlli-əlliyə paylanmışdır. Bu da bizə əsas verir ki, hər iki istiqamətin ölkənin aqrar sahəsinin inkişafında önəmli rolu olduğunu nəzərə alaq və prioritetlərimizi ona görə müəyyənləşdirək. Ümumilikdə aqrar sahədə meyvə-tərəvəz, əkinçilikdə dənli paxlalılar və kartof, heyvandarlıqda süd, mal əti, quş əti, qoyun əti və yumurta önəmli istehsal payına malikdir. Meyvə-tərəvəz istehsalı ölkə üçün həm məşğulluğun artırılmasında, həm aqrar istehsalda əlavə dəyərin yaradılmasında, həm də ixrac potensialının yüksəldilməsində faydalı olur. Dənli paxlalı bitkilərin istehsalı isə ümumilikdə digər bitkiçilik məhsulları ilə müqayisədə iqtisadi səmərəliliyi aşağı olsa belə, ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən Sizin vurğuladığınız kimi çox əhəmiyyətlidir və ona görə də bu bizim üçün prioritet istiqamətlərdən biri olaraq qalacaq. Süd və ət istehsalının aqrar sahədə payı olduqca yüksəkdir. Bu da bizə əsas verir ki, yeni Dövlət Proqramında heyvandarlığın inkişaf etdirilməsi istiqamətində prioritet sahələrə önəm verək.

Bu qrafikdə də bir neçə məqama diqqətinizi cəlb etmək istəyirəm. Meyvə və tərəvəz toplam istehsalın 27 faizini təşkil etdiyi halda, onların toplam əkin sahəsindəki payı cəmi 14 faizdir. Dənli və paxlalı bitkilər, yem bitkiləri isə əkin sahəsinin toplam 74 faizini tutduğu halda, ümumi istehsalın toplam 11 faizini təşkil edir. Eyni zamanda özünütəminetmə səviyyəsi ilə bağlı biz hazırda Siz də çıxışınızda qeyd etdiyiniz kimi, meyvə-tərəvəz, həmçinin yumurta istehsalında 100 faizin üstündə olduğumuz halda, digər istiqamətlərdə - ət, süd, buğda və kartof istehsalında hələ də qarşımızda çağırışlar durur. Sizin tapşırığınıza əsasən bunların 100 faiz təminatına nail olmaq üçün əlimizdən gələni edəcəyik.

İndi isə cənab Prezident, icazənizlə bitkiçilik sektorunda olan trendləri təqdim etmək istəyirəm. Vurğulamaq istədiyim məqam son illərdə ekstensiv əkinçiliyin inkişafını və resurs bazasının tükəndiyini göstərməkdir. Bizim son illərdə əsas inkişafımız və artımımız məhz intensiv əkinçilik hesabına olmuşdur. Ümumilikdə, bitkiçilikdə intensiv əkinçiliyə keçidin sürətləndirilməsi Sizin vurğuladığınız kimi müasir suvarmanın tətbiqindən çox asılıdır. Müasir suvarma genişləndikcə biz real nümunələr əsasında görürük ki, məhsuldarlığın artırılması mümkündür. Sadəcə taxılı, ərzaqlıq buğdanı Siz qeyd etdiniz. Ərzaqlıq buğdada ölkə ortalaması 3,2 ton olduğu halda, 2025-ci ildə ərzaqlıq buğda proqramına qoşulmuş bütün təsərrüfatlarda, müasir suvarma qurulmuş təsərrüfatlarda ortalama məhsuldarlıq 5,8 ton olmuşdur və bu da bizə onu göstərir ki, müasir suvarmanın genişləndirilməsi, əlbəttə, əsas istiqamətlərdən biri olmalıdır. Eyni mənzərəni biz təkcə buğda istehsalında deyil, digər bütün bitkiçilik məhsullarının istehsalında da görürük. Həmçinin diqqətinizi ona da cəlb etmək istəyirəm ki, açıq sahədə tərəvəz əkinində ortalama məhsuldarlıq 20 ton olduğu halda, müasir suvarma ilə bu, 60 tona çatır. Lakin istixanalarda bu, ölkə üzrə ortalama 300 tona - 3000 sentnerə çatır. Bəzi uğurlu təsərrüfatlarda isə bu rəqəm hətta 4 min 500 sentnerə yüksəlir. Bu da istixanaların çox kiçik bir sahədə böyük istehsal həcmi yarada biləcəyini, eyni zamanda bir hektarda daha çox insan üçün məşğulluq imkanı yaratdığını göstərir.

İndi isə heyvandarlıq sektorunda olan əsas trendləri təqdim etmək istəyirəm. Son beş il ərzində heyvanların sayında azalma müşahidə olunur. Bununla belə, ət istehsalında və adambaşına ət istehlakında artım müşahidə edilir. Artan ət istehsalı, təəssüf ki, artan ət istehlakını qarşılaya bilmir və buna görə də ət idxalı son illərdə artmışdır. Qeyd edim ki, bu sahənin qarşısında duran əsas çağırışlardan biri məhz məhsuldarlıqdır. Heyvandarlıqda məhsuldarlıq bu gün istəniləndən daha aşağıdır. Eyni zamanda sürüdə cins heyvanların sayı cəmi 2,5 faiz təşkil edir. Bu da, təəssüf ki, bizə məhsuldarlığı ciddi şəkildə artırmağa şərait yaratmır. Bu nöqteyi-nəzərdən məhz heyvandarlıq sahəsində intensivləşmənin nəyə görə vacib olduğunu təqdim etmək istəyirəm. Bitkiçilik sektorunda olduğu kimi, heyvandarlıq sektorunda da biz həm süd, həm də ət istehsalında ekstensiv təsərrüfatların artıq öz inkişaf imkanlarını tükətdiyini görürük. Son beş ildə də əsas artımın məhz intensiv təsərrüfatların hesabına olduğunu görürük. Halbuki onların sayı bu gün Azərbaycanda azdır və biz onların artırılmasına nail olmalıyıq. Eyni zamanda intensivləşmə ilə bağlı qeyd edim ki, əgər ailə təsərrüfatında yerli bir cins inək ildə 1800 litr süd verirsə, intensiv təsərrüfatlarda bir inək başına məhsuldarlıq 7500 litrdir, hətta az sayda olsa belə, bəzi təsərrüfatlarda 10 min-12 min litrə çatır. Eyni mənzərəni biz intensiv təsərrüfatlarda mal ətində də görə bilirik.

Cənab Prezident, aqrar ticarətin dinamikasına toxunmaq istəyirəm. Burada bir neçə vacib məqama diqqətinizi cəlb etmək istəyirəm. İlk növbədə, son beş il ərzində aqrar ticarət artım dinamikası ilə inkişaf etmişdir. Burada önəmli və diqqət etməli olduğumuz məqam məhz aqrar emalla kənd təsərrüfatı xammal istehsalı arasındakı idxal və ixracdakı nisbətlərdir. Belə ki, ixracda bu iki sahə arasındakı nisbətdə kənd təsərrüfatı xammalı istehsalının 3-4 dəfə daha yüksək olduğunu, idxalda isə aqrar emal məhsullarının demək olar ki, iki dəfə üstünlük təşkil etdiyini görürük. Bu bizə onu göstərir ki, ölkədə aqrar emalın artırılması qarşımızda duran əsas çağırışlardan biridir. Eyni zamanda bu beş il ərzində kənd təsərrüfatı məhsullarının ixracında həm məhsul portfelinin, həm də ixrac coğrafiyasının artdığını və genişləndiyini görürük. Cənab Prezident, bu müddətdə biz qeyri-neft məhsullarının ixracı istiqamətində Sizin tapşırıqlarınızın öz bəhrəsini verdiyinin də şahidiyik. Belə ki, bir az öncə Siz də qeyd etdiyiniz kimi, fındıqçılıqda Azərbaycan dünyada artıq dördüncü sıradadır. Əlavə edim ki, xurma ixracında Azərbaycan dünyada ikinci sıradadır. 2025-ci ildə isə ilk dəfə olaraq Azərbaycan şaftalı və nektarın ixracında dünyada doqquzuncu yerə yüksəlmişdir. Bundan əlavə, çiyələk, albalı, pomidor, pambıq lifi kimi məhsullarda da Azərbaycan dünya ixrac siyahılarında ilk iyirmilikdə yer almışdır. Bu dönəmdə əsas üç kateqoriya ixrac məhsullarımızı meyvə, pambıq və tərəvəz təşkil edir. Hər üçü əgər 2021-ci ildə toplam ixracın 87 faizini təşkil edirdisə, 2025-ci ildə 75 faizini təşkil edir və bu da onu göstərir ki, bizim məhsul portfelimiz genişlənir və digər məhsulların da ixracda payı artır. Eyni zamanda məhsullarımızın ixrac coğrafiyası da genişlənib.

İndi isə diqqəti idxal strukturuna cəlb etmək istəyirəm. İdxal strukturu üzrə 2025-ci ildə aparılmış təhlil göstərmişdir ki, idxal etdiyimiz məhsulların 25 faizini Azərbaycanda tam əvəzləmək potensialı var. Biz bunların ölkədə 100 faiz istehsalına və idxalın əvəzlənməsinə nail ola bilərik. Məhsulların təxminən əlli faizində isə qismən əvəzetmə imkanlarımız var. Burada yerli istehsal mövcud olacaq, amma müəyyən qədər idxaldan asılılıq da qalacaq. Biz 25 faiz məhsulu isə daim idxal edəcəyik. Bunlar soya, palma yağı, banan, kakao və qəhvə kimi məhsullardır.

Cənab Prezident, son olaraq aqrar sahəyə dövlət dəstəyi haqqında məlumatı diqqətinizə təqdim etmək istəyirəm. Son beş il ərzində nominal ifadədə aqrar sektora dövlət dəstəyi artmışdır. Lakin Siz də çıxışınızda qeyd etdiyiniz kimi, dünyada baş verən hadisələr və logistik zəncirlərdəki qırılmalar istehsal vasitələrinin qiymətinin artmasına gətirib çıxarıb ki, bu da nominal olaraq artan dövlət dəstəyinin real ifadədə azalmasına səbəb olub. Dövlət dəstəyi mexanizmlərində son illərə qədər vəsaitin əsas hissəsi bitkiçiliyə yönəldilib - bunun 74 faizi bitkiçiliyin, 20 faizi texnika dəstəyinin, cəmi 6 faizi isə heyvandarlığın payına düşüb. Eyni zamanda qeyd etmək istəyirəm ki, bu günə qədər dövlət dəstəyi əsasən sosialyönümlü xarakter daşıyıb. Bu dəstək regionların inkişafına, məşğulluğun artırılmasına və ərzaq təhlükəsizliyinin təmininə istiqamətlənib. Bununla yanaşı, dövlət dəstəyi məhsuldarlığın, fermer gəlirlərinin, aqrar emalın və ixracın artırılmasına da xidmət edir və bundan sonra bu istiqamət daha da gücləndirilməlidir.

Möhtərəm cənab Prezident, buraya qədər sadaladığım məsələlər mövcud vəziyyəti və qarşımızda duran çağırışları əks etdirir. Bütün bunları nəzərə alaraq, Sizin tapşırığınıza uyğun hazırlanan Dövlət Proqramı ümumilikdə kənd təsərrüfatında transformasiyanı dörd istiqamətdə ehtiva edir, yəni bu transformasiya dörd sütun üzərində qurulur. İlk növbədə, bu, resurs səmərəliliyinə əsaslanan kənd təsərrüfatının formalaşdırılmasıdır. Yüksək əlavə dəyər yaradan kənd təsərrüfatının inkişaf etdirilməsidir. Dəyər zəncirini və bazar inteqrasiyasını həyata keçirən, ona əsaslanan kənd təsərrüfatının formalaşdırılmasıdır. Bunların hamısına dəstək olan texnologiya və innovasiyaya əsaslanan kənd təsərrüfatı olmalıdır. Hazırlanan Dövlət Proqramında tədbirlər iki istiqamətdə nəzərdə tutulub: fundamental tədbirlər və dəstəkləyici tədbirlər. Fundamental tədbirləri daha ətraflı təqdim edəcəyəm. Bu, eyni zamanda həm bitkiçilik, həm heyvandarlıq, həm də emal və logistika istiqamətli atılacaq tədbirlərdir. Amma, eyni zamanda bu Dövlət Proqramının özünəməxsusluğu ondan ibarətdir ki, sadəcə, fundamental və sahəvi tədbirləri özündə ehtiva etmir. Eyni zamanda qanunvericilik təşəbbüslərini, institusional islahatları və rəqəmsallaşmanı da özündə birləşdirir.

İndi isə, möhtərəm cənab Prezident, tapşırığınıza uyğun olaraq hazırlanmış Dövlət Proqramının bitkiçilik istiqaməti üzrə hədəfləri təqdim etmək istəyirəm. İlk növbədə, buğda istehsalı və pambıq istehsalı istiqamətində əsas hədəf məhsuldarlığın hər iki məhsul üzrə ölkədə ixtisaslaşmış rayonlarda hektardan 5 ton məhsuldarlığa nail olmaqdır. Növbəti 5 il ərzində - 2030-cu ilə qədər əsas məqsəd hər iki sahədə məhsuldarlığı artırmaqla ümumi istehsalın yüksəldilməsi, pambıqçılıqda isə eyni zamanda emal dərinliyinin artırılmasına nail olmaqdır. Buna biz müxtəlif tədbirlərin həyata keçirilməsi ilə nail olacağıq. Burada həm müasir suvarmanın genişləndirilməsi, əlbəttə ki, əsas şərtlərdən biri olacaq. Amma, eyni zamanda müəyyən texniki dəstəklərin verilməsi, torpaq işlərinin həyata keçirilməsi, toxumçuluğun, daha məhsuldar toxumların tətbiqi kimi fəaliyyətlər nəzərdə tutulub.

Bitkiçilik məhsulları sahəsinin inkişafı ilə bağlı hədəflərdən danışarkən müasir suvarmaya və konsolidasiyaya toxunmaq istəyirəm. Möhtərəm cənab Prezident, çıxışınızda da vurğuladığınız kimi, 2025-ci ildə Azərbaycanda müasir suvarma tətbiq olunan sahələr 130 min hektar təşkil edib. Əsas hədəfimiz isə tapşırığınıza uyğun olaraq bu göstəricini 2030-cu ilə qədər 300 min hektara çatdırmaqdır. Bu, əlbəttə ki, ölkədə məhsuldarlığın artımına, regionlarda fermerlərin rifah səviyyəsinin yüksəldilməsinə xidmət edəcək və bəzi məhsullarda da ixrac potensialını formalaşdıracaq. Eyni zamanda Azərbaycanda ilk dəfə olaraq pilot konsolidasiya və təsərrüfatdaxili suvarma şəbəkəsinin, qapalı müasir suvarma şəbəkəsinin qurulması iki rayonda pilot layihə olaraq nəzərdə tutulmuşdur. Biz inanırıq ki, bu layihənin icrası əsasında həm torpaqdan və sudan daha səmərəli istifadəyə nail olunacaq, eyni zamanda həmin bölgədə yaşayan və çalışan fermerlərin rifah səviyyəsinin yüksəldilməsinə gətirib çıxaracaq.

Möhtərəm cənab Prezident, çıxışınızda vurğuladığınız kimi, intensiv bağçılıq və istixana da bizim üçün əsas prioritet istiqamətlərdən biri olaraq qalacaq və növbəti beş il ərzində intensiv bağların sahəsinin 20 min hektar, istixanaların sahəsinin isə 500 hektar artırılması hədəf olaraq qarşımıza qoyulmuşdur. Burada diqqətinizi bir məqama çəkmək istəyirəm ki, istixanaların artıq istixana aqroparkı modelində inkişaf etdirilməsi nəzərdə tutulur və bitkiçilik sahəsində, əlbəttə ki, logistika emal istiqaməti də önəmli əhəmiyyət daşıyır. Taxıl siloların növbəti beş ildə həcminin 150 min kubmetr artırılması və çıxışınızda qeyd etdiyiniz kimi, soyuducu anbar həcminin isə 500 min tona çatdırılması hədəf olaraq qoyulmuşdur. Eyni zamanda, möhtərəm cənab Prezident, kiçik şərabçılığa və ailə təsərrüfatlarının şərabçılığın inkişafı istiqamətində verdiyiniz tapşırıqlara uyğun olaraq, bu proqram çərçivəsində də Azərbaycanda kiçik ailə təsərrüfat şərabçılığının inkişaf etdirilməsi nəzərdə tutulmuşdur və 2030-cu ildə belə təsərrüfatların sayının 20-yə çatdırılması hədəflənir.

İndi isə heyvandarlıq sahəsi ilə bağlı qarşımıza qoyulan hədəfləri qeyd etmək istəyirəm. Ümumi süd istehsalı həcminin 2030-cu ilədək 10 faiz, ət istehsalının 20 faiz artırılması nəzərdə tutulmuşdur. Ət istehsalında özünütəminetmə səviyyəsinin 100 faizə çatdırılması qarşımıza əsas məqsəd kimi qoyulmuşdur. Eyni mənzərə qoyunçuluq üçün də nəzərdə tutulmuşdur. Qoyunçuluq istiqamətində yarımintensiv təsərrüfatların yaradılması nəzərdə tutulur və bunun sayəsində məhz ümumi məhsul istehsalının 9 faiz artırılması və özünütəminatın 101 faizə çatdırılması hədəflənmişdir. Qeyd edim ki, quşçuluq məhsulları ilə bağlı bugünkü özünütəminetmə səviyyəsi 82 faizdir, 100 faizə çatdırılması əsas hədəf olaraq müəyyənləşdirilmişdir. İstehsalın isə 30 faiz artırılması nəzərdə tutulur. Burada əsas görüləcək tədbirlər yeni quşçuluq damlarının, yeni kəsimxanaların yaradılmasıdır və müvafiq olaraq damazlıq işinin təşviq edilməsidir.

Balıqçılıqla bağlı akvakulturanın inkişaf etdirilməsi əsas hədəflərdən biridir. Akvakulturada istehsal olunan balıq həcminin 2030-cu ilə qədər iki dəfədən çox artırılması əsas hədəf olaraq qarşımıza qoyulmuşdur. Eyni zamanda buna biz ilk dəfə olaraq ölkədə balıqçılıq sahəsində subsidiyaların və dövlət güzəştlərinin verilməsi ilə nail olmağa çalışacağıq. Həmçinin balıqartırma zavodlarının inşası da nəzərdə tutulmuşdur. Cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, təxmini hesablamalar göstərir ki, bu beş il ərzində kənd təsərrüfatı sektoruna bu Dövlət Proqramı çərçivəsində 5,9 milyard manat vəsaitin investisiya kimi qoyulması gözlənilir. Bunun 2,2 milyard manatının dövlət dəstəyi olunması nəzərdə tutulur. Qalan 3,7 milyard manatın isə özəl sektor tərəfindən yatırılması gözlənilir. Bu investisiyalar və bu Dövlət Proqramının tətbiq olunması əsasında gözlənilən iqtisadi təsirlərə dair qeyd etmək istəyirəm ki, 2030-cu ilə qədər kənd təsərrüfatı üzrə istehsaldakı artım dinamikasının 2 faizdən yuxarı olacağı hesablanıb. İxrac artımının 6 faizdən yüksək olması gözlənilir. Çox mühüm bir məqama diqqətinizi cəlb etmək istəyirəm ki, bu proqram çərçivəsində infrastruktur və bünövrə işləri kənd təsərrüfatında olduqca geniş vüsət alacaq. Bunlar təşkil olunacaq və görüləcək bir çox işlər - intensiv bağçılıq, istixanaların inkişaf etdirilməsi, müasir suvarma sistemlərinin qurulması, suvarma şəbəkələrinin genişləndirilməsi - bütün bunlar öz təsirini 2030-cu ildən sonra daha uzun müddətə göstərməsi üçün hesablanıbdır.

Yekun olaraq qeyd edim ki, kənd təsərrüfatının transformasiyası dayanıqlı məhsul istehsalını, məhsuldarlığın artırılmasını və resurslardan səmərəli istifadənin genişləndirilməsini ehtiva edir. Özəl sektorun bu Dövlət Proqramı çərçivəsində özünəməxsus bir payı olacaq və onun üzərinə çox böyük bir məsuliyyətli vəzifə düşür. Bu nöqteyi-nəzərdən dövlət qurumları tərəfindən özəl sektor üçün həm çevik mexanizmlərin işlənməsi, həm də operativ xidmətlərin göstərilməsi təşviqedici rol oynayacaq, eyni zamanda onları bu sektora investisiya yatırmağa daha çox cəlb edəcək.

Möhtərəm cənab Prezident, aqrar sahəyə cavabdeh qurumun adından Sizi əmin etmək istəyirəm ki, tapşırığınızla hazırlanmış bu Dövlət Proqramının icrası istiqamətində tələb olunan bütün addımları atmaq, verdiyiniz bütün tapşırıqları yerinə yetirmək üçün tam səfərbər olacağıq və əlimizdən gələn hər şeyi etməyə çalışacağıq. Əlbəttə ki, digər dövlət qurumlarının da resurslarının, imkanlarının səfərbər edilməsi Dövlət Proqramının uğurlu icrası üçün əhəmiyyətli dərəcədə dəstək olacaqdır. Diqqətiniz üçün təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖❖❖

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri **Zaur MİKAYILOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Zati-alinizin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində aqrar sektor respublikamızın ərzaq təhlükəsizliyinin təmin olunması və qeyri-neft iqtisadiyyatının inkişafı baxımından keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, regionların sosial-iqtisadi dirçəlişi istiqamətində qəbul etdiyiniz qərarlar bu sahənin inkişafına güclü təkan vermişdir. Məlum olduğu kimi, müasir dövrdə kənd təsərrüfatı sektoru ölkəmizin ümumi su ehtiyatlarının ən böyük istehlakçılarından biri olaraq qalmaqdadır. Bu baxımdan, su ehtiyatlarının düzgün idarə olunması həm aqrar sektorun inkişafında önəmli rol oynayır, həm də ümumi iqtisadi dayanıqlığın əsas şərtlərindən biridir.

Möhtərəm cənab Prezident, 2025-ci ildə respublika üzrə bütün su mənbələrindən 11,5 milyard kubmetr həcmində su götürülmüş, suayırıcılarından verilmiş 7,5 milyard kubmetr su hesabına, ümumilikdə, 1 milyon 485 min hektar sahədə kənd təsərrüfatı bitkiləri suvarma suyu ilə təmin edilmişdir. Həmin il çərçivəsində istismar planına əsasən suvarma şəbəkələrində 31 milyon kubmetr, kollektor-drenaj şəbəkələrində isə 10 milyon kubmetr həcmində lildən təmizləmə işləri aparılmışdır. 842 ədəd nasos stansiyası, 6378 ədəd subartezian quyusu, 2779 ədəd hidrotexniki qurğu təmir edilmişdir. Əkin və suvarma sahəsində qurumlar arasında koordinasiyalı və səmərəli fəaliyyətin təşkili məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi arasında birgə Fəaliyyət Planı təsdiq edilmiş və suvarma suyunun təminatında meydana çıxan bütün çətinliklərin operativ qaydada həll edilməsi üçün İşçi qrupu yaradılmışdır. Birgə Fəaliyyət Planı çərçivəsində suvarılan torpaqlarda rayonlar, təqvim ayları və ongünlüklər üzrə suvarma qrafikləri tərtib edilmiş, respublika ərazisində mütəşəkkil suvarma əsasən təmin edilmişdir.

Bununla yanaşı, Sizin birbaşa tapşırıq və sərəncamlarınızla təsdiq edilmiş dövlət proqramları çərçivəsində kənd təsərrüfatı torpaqlarının su təminatının yaxşılaşdırılması məqsədilə ölkə üzrə genişmiqyaslı layihələr həyata keçirilir. Əsaslı vəsait qoyuluşu hesabına Suqovuşan, Xaçınçay, Köndələnçay su anbarlarının kaskadının və 7 magistral suvarma kanalının yenidən qurulması, həmçinin Zabuxçay su anbarının tikintisi işləri başa çatdırılmışdır. Sərsəng su anbarı, Aşağı Muğan, eləcə də ölkənin ən böyük magistral kanalı olan Şirvan suvarma kanalının yenidən qurulması, Yengicə və Əlicançay su anbarlarının tikintisi işləri davam etdirilmiş, Bərgüşadçay və Həkəriçay su anbarlarının isə tikintisinə başlanılması nəzərdə tutulmuşdur. Bununla yanaşı, beynəlxalq maliyyə institutları cəlb edilməklə Qarabağ suvarma kanalının yenidən qurulması və Qız qalası magistral suvarma kanalının tikintisi üzrə müvafiq hazırlıq işləri görülmüşdür. Bu işlərlə bərabər, Sizin də qeyd etdiyiniz kimi, 100 min hektardan çox yeni ərazi suvarılacaq və 500 min hektara yaxın ərazidə suvarma sistemləri yaxşılaşdırılacaqdır.

Xüsusi diqqətiniz sayəsində Qarabağ və Şərqi Zəngəzur ümumi su balansımıza tam inteqrasiya olunur, işğaldan azad edilmiş ərazilərdə müasir su təsərrüfatı infrastrukturunun qurulması istiqamətində kompleks tədbirlər davam etdirilir. Söz-ügedən ərazilərin kənd təsərrüfatı potensialının reallaşdırılması üçün etibarlı su təminatının yaradılması əsas prioritetimizdir.

Bütün bu layihələr dövlət tərəfindən su və kənd təsərrüfatına göstərilən böyük diqqətin göstəricisidir. Lakin məlum olduğu kimi, dövlətimizin infrastruktur layihələrinə qoyduğu böyük sərmayələrin geri qayıtması yalnız texniki həllər və yeni su mənbələrinin yaradılması ilə deyil, eyni zamanda mövcud su ehtiyatlarından səmərəli istifadənin artırılması ilə təmin edilməlidir. Bu istiqamətdə əkin sahələri üzrə ənənəvi suvarma üsullarından imtina edilməsi və müasir suvarma sistemlərinin - damcı və pivot texnologiyalarının tətbiqinin genişləndirilməsi müasir dövrün çağırışlarından biridir. Müasir suvarma sistemlərinin tətbiqi həm torpaqların şoranlaşmasının qarşısını alır, həm məhsuldarlığı əhəmiyyətli dərəcədə artırır, həm də su resurslarımıza qənaət edilərək investisiyanın iqtisadi səmərəliliyini maksimuma çatdırır.

Bu gün qarşımızda duran ən böyük çağırışlardan biri də mövcud su ehtiyatlarına uyğun əkin strukturunun yaradılmasıdır. İqlim dəyişikliyi fonunda su ehtiyatlarının və yağıntıların həcminin illər üzrə dinamik surətdə dəyişdiyini nəzərə alaraq, hər bir regionun illik su balansı dəqiqliklə hesablanmaqla hansı bitki növlərinin əkiləcəyi, hansı sahələrin inkişafının təşviq ediləcəyi məhz bu su ehtiyatlarına uyğun olaraq müəyyən edilməlidir. Bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2026-2030-cu illər üçün tədbirlər planı üzrə, misal üçün, buğda və pambığın orta məhsuldarlığının 50 sentnerə yüksəldilməsi hədəfləri mövcud ekstensiv suvarma sistemlərindən deyil, müasir, intensiv suvarma metodlarına keçidi şərtləndirir. Həmçinin tədbirlər planında intensiv bağların sahəsinin 50 min hektardan 70 min hektara, istixanaların sahəsinin isə 1500 hektardan 2000 hektara çatdırılması, eləcə də pambıq əkin sahələrinin 100 min hektardan 85 min hektara endirilməsi fonunda məhsuldarlığın 17 faiz artırılaraq ümumi istehsalın 425 min tona yüksəldilməsi ilə bağlı bütün hədəflər bizim tərəfdən təqdirəlayiq hesab edilir. Eyni zamanda tədbirlər planında qeyd olunduğu kimi, Qəbələ və Salyan rayonlarında 20 min hektar sahənin konsolidasiyası və həmin sahələrdə təsərrüfatdaxili suvarma şəbəkələrinin quraşdırılması, həmçinin respublika ərazisində müasir suvarma texnikasının əhatə dairəsinin 130 min hektardan 300 min hektara qədər artırılması su ehtiyatlarından dayanıqlı istifadəsinin təmin edilməsi baxımından mütərəqqi addım kimi qiymətləndirilə bilər.

Möhtərəm cənab Prezident, qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün dövlət qurumlarının, xüsusilə Kənd Təsərrüfatı Nazirliyi ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sıx əməkdaşlıq şəraitində fəaliyyəti təmin edilməkdədir. Aqrar sahənin inkişafı baxımından qeyd edilmiş tədbirlərin həyata keçirilməsi ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalının dayanıqlı və səmərəli təşkilinə töhfə verməklə yanaşı, su ehtiyatlarından səmərəli istifadə ilə nəticələnəcək, suvarılan sahələrin şoranlaşmasının və deqradasiyanın qarşısını əhəmiyyətli dərəcədə alacaqdır. Qeyd olunanları nəzərə alaraq, təqdim edilmiş Dövlət Proqramının tədbirlər planının həyata keçirilməsini önəmli hesab edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖❖❖

Sonra müşavirə müzakirələrlə davam etdirildi.

## İordaniyanın Kralı əlahəzrət II Abdullah ibn Al Hüseynə

Əlahəzrət!

İordaniya Haşimilər Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost İordaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2026-cı il*

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Şansi əyalətində yerləşən kömür mədənində baş vermiş partlayış nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2026-cı il*

## Birinci vitse-prezident Mehriban xanım Əliyevaya

Hörmətli Mehriban Arif qızı!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikasının milli birliyinin, suverenliyinin və davamlı inkişafının rəmzi olan bu bayram, eyni zamanda dövlətçilik ənənələrinə hörməti, sabitliyin möhkəmləndirilməsi və rifahın təmin olunması istiqamətində səyləri əks etdirir.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, rifah və doğma ölkənin firavanlığı naminə görülən işlərdə yeni müvəffəqiyyətlər arzu edirəm.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

## Pakistan İslam Respublikasının Baş naziri zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

Hörmətli cənab Baş nazir!

Əziz Qardaşım!

Ölkənizin cənub-qərbində sərnişin qatarını hədəf alan xain terror aktı nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı ən kəskin şəkildə mübarizə aparılmasını labüd hesab edirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2026-cı il*

## "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi və bundan irəli gələrək bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin rəqabətqabiliyyətliliyinin artırılması və yüksək əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin sürətləndirilməsi tədbirləri hesabına Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1.1. üç ay müddətində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi barədə;

2.1.2. altı ay müddətində Dövlət Proqramının icrası çərçivəsində buğda, pambıq və heyvandarlıq məhsullarının istehsalı təsərrüfatlarının yaradılması nəzərdə tutulan ərazi vahidlərində torpaqların kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi barədə;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. buğda, pambıq və heyvandarlıq məhsullarının istehsalı təsərrüfatlarının yaradılması nəzərdə tutulan ərazi vahidlərinin siyahısını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. bu Sərəncamın 2.1.2-ci yarımbəndində nəzərdə tutulan təsərrüfatların kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti vasitəsilə faiz subsidiyalarının verilməsi və investisiya layihələrinin dəyərinin subsidiyalaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. müasir texnologiyaların tətbiq edildiyi, yem bazasına malik olan və cins heyvanların və ya balıqların saxlanıldığı təsərrüfatların və tədarükçülərin rezident banklar və bank olmayan kredit təşkilatlarından 2027-ci ildən başlayaraq 5 (beş) il müddətində manatla aldıqları kreditlərə hesablanmış faizlərin, həmçinin icra edilmiş investisiya layihələrinin dəyərinin "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına subsidiyalaşdırılması üçün tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ölkə üzrə bütün heyvandarlıq təsərrüfatlarında mövcud olan iribuynuzlu və xırdabuynuzlu heyvanların birdəfəlik identifikasiyasının dövlət büdcəsinin vəsaiti hesabına aparılmasını, müvafiq məlumatların "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" informasiya sisteminə daxil edilməsini və "Elektron kənd təsərrüfatı" informasiya sisteminə ötürülməsini təmin etsin.

6. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bu Sərəncamın 2.1.2-ci yarımbəndində nəzərdə tutulan təsərrüfatların su təminatının təkmilləşdirilməsi məqsədilə zəruri tədbirlər görsün.

7. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin, dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2026-cı il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qazturbin elektrik stansiyasının işlənməsi, layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il fevralın 15-də Belqrad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qazturbin elektrik stansiyasının işlənməsi, layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Serbiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2026-cı il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il fevralın15-də Belqrad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Serbiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2026-cı il*

## "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il aprelin 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2026-cı il*

## "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi, habelə "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 noyabr tarixli 528 nömrəli Fərmanının icrasıilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1375 (Cild I); 2026, № 2, maddə 122) dəyişikliklər təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2026-cı il*

# Regional liderlikdən qlobal aktorluğa

### Güclü reputasiyaya və yüksək nüfuza malik Azərbaycanın orta güc statusu dünya tərəfindən birmənalı qəbul edilir

**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin nüfuzu təkcə onların coğrafi miqyası və ya hərbi gücü ilə deyil, qlobal proseslərə təsir göstərmək və sivilizasiyalararası dialoqda oynadığı vasitəçilik rolu ilə ölçülür. Bu gün Azərbaycan öz iqtisadi, diplomatik, hərbi və mədəni resurslarını maksimum dərəcədə səfərbər edərək Cənubi Qafqazın həlledici gücünə, Avrasiya coğrafiyasının yeni və nüfuzlu orta gücünə çevrilib.**

Ölkəmiz müstəqil xarici siyasət yürüdən, milli maraqlarını qətiyyətlə qoruyan, tərəfdaşları ilə birlikdə qitənin enerji və logistika xəritəsini yenidən formalaşdıran bir dövlətdir. Eyni zamanda Azərbaycanın COP29 və WUF13 (Ümumdünya Şəhərsalma Forumu) kimi irimiqyaslı mötəbər qlobal sammitlərə uğurla evsahibliyi etməsi rəsmi Bakının beynəlxalq problemlərin həllində çəkisini və dünya birliyindəki ali yüksək nüfuzunu bariz şəkildə nümayiş etdirir.

Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında bu məqama xüsusi toxunub. Dövlətimizin başçısı bildirib ki, bu gün ölkəmizin beynəlxalq əlaqələri çox genişdir: "Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Bizim dünya miqyasında çox yüksək reputasiyamız var, çox müsbət imicimiz var. Azərbaycan artıq dünyada orta gücə malik olan dövlət kimi tanınır və bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə bizimlə əməkdaşlıq etmək istəyirlər".

Dövlətimizin başçısının sözləri ölkəmizin geoiqtisadi strategiyasının dərin anatomiyasını ortaya qoyur. Prezident İlham Əliyev xarici siyasətdə qazanılmış siyasi mövqenin və beynəlxalq nüfuzun daxili iqtisadiyyata necə transfer edildiyini bəyan edir. Çünki müasir dünyada siyasi nüfuz və güvən amili birbaşa iqtisadi dividendlərə çevrilir.

Prezident İlham Əliyevin vurğuladığı orta güc statusu isə politologiyada çox mühüm kateqoriyadır. Bu status o deməkdir ki, Azərbaycan artıq, sadəcə, regional miqyasda deyil, qlobal proseslərə təsir göstərə bilən, müstəqil qərarlar qəbul edən və beynəlxalq koalisiyalarda ciddi çəkisi olan bir aktora çevrilmişdir. Beynəlxalq münasibətlər sistemində orta güc statusuna malik dövlətlər proseslərin gedişatını müəyyən edir, diplomatiyada və qlobal iqtisadiyyatda həlledici və balanslaşdırıcı rol oynayırlar.



Müasir dünya siyasətində inkişaf etməkdə olan orta güclərin ən klassik və bariz nümunələri olaraq Braziliya və İndoneziya kimi dövlətlər göstərilir. Bu dövlətlərin orta güc statusu qazanmaları və qlobal idarəçilikdə söz sahibinə çevrilmələri onların ərazi, əhali, təbii resurslar və strateji nəqliyyat potensialı kimi fundamental parametrlərinə əsaslanır. Məsələn, Braziliya nəhəng coğrafiyası və BRICS daxilindəki çəkisi, İndoneziya isə mühüm dəniz boğazlarına nəzarəti ilə iqtisadi platformalarda fərqlənirlər. Lakin orta güc olmağın tək şərti fiziki kütlə deyil, burada üçüncü və ən həlledici parametr dövlətlərin çoxtərəflilik və vasitəçilik diplomatiyasına, yəni yumşaq gücə əsaslanmasıdır. Fövqəldövlətlərdən fərqli olaraq, orta güclər qlobal problemlərin həllində hərbi təzyiqə və diktəyə deyil, beynəlxalq hüquqa, dialoqa və konsensusa arxalanırlar.

Politologiyada və beynəlxalq münasibətlərdə orta güc statusu alan dövlətlər, sadəcə, öz daxili coğrafiyaları ilə məhdudlaşmır, həm də qlobal və regional proseslərin gedişatına birbaşa təsir göstərmək rıçaqlarına sahib olurlar. Bu fonda Azərbaycanın da müasir dünya siyasətində məhz orta güc statusu ilə xarakterizə edilməsi tamamilə qanunauyğundur. Azərbaycan yuxarıda qeyd olunan parametrlərin bir çoxunu, xüsusilə "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzərindəki əvəzedilməz geostrateji logistik mövqeyini, Avropanın enerji təhlükəsizliyində oynadığı rolu, Qoşulmama Hərəkatına uğurlu sədrlik təcrübəsini və qlobal platformalarda nümayiş etdirdiyi vasitəçilik diplomatiyasını birləşdirərək, öz coğrafi miqyasından qat-qat böyük siyasi və iqtisadi çəkiyə malik bir dövlətə çevrilib.

Azərbaycan uzun illərdir ki, qlobal enerji təhlükəsizliyinin təmin olunmasında, Avropanın qaz təchizatının şaxələndirilməsində və beynəlxalq nəqliyyat layihələrinin formalaşmasında əvəzedilməz tərəfdaş olduğunu beynəlxalq birliyə sübut edib. Bu strateji mövqe və nümayiş etdirilən etibarlılıq ölkəmizin qlobal miqyasda güclü və toxunulmaz bir reputasiya qazanmasını şərtləndirib. Rəsmi Bakı artıq, sadəcə, enerji resursları nəql edən tərəf deyil, qlobal "yaşıl enerji"yə keçid prosesində Avropa ilə Asiya arasında körpü quran strateji beyin mərkəzidir.

Dünya miqyasında fəaliyyət göstərən iri xarici şirkətlər və investisiya fondları əməkdaşlıq edəcəkləri ölkələri seçərkən ilk növbədə daxili siyasi sabitliyə, hüquqi mühitin şəffaflığına və dövlətin bəyan etdiyi öhdəliklərə sadiqliyinə diqqət yetirirlər. Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrlik təcrübəsi, irimiqyaslı qlobal tədbirlərə evsahibliyi etməsi və regionda öz gücü ilə yaratdığı yeni geosiyasi reallıqlar ölkəmizin beynəlxalq nüfuzunu ən yüksək pilləyə qaldırıb.

Ölkəmizdə siyasi sabitlik, şəffaf və proqnozlaşdırıla bilən biznes mühit mövcud olduğuna görə, xarici kapitalın və investisiyaların təhlükəsizliyinə tam təminat verilir. Bu isə o deməkdir ki, Azərbaycanın qazandığı beynəlxalq siyasi çəki birbaşa olaraq onun daxili iqtisadi potensialının güclənməsinə xidmət edir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yenidən qurulması, işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən irimiqyaslı aqrar və ekoloji layihələr məhz bu xarici investisiya cəlbediciliyinin canlı nümunəsidir.

Nəticə etibarilə, Azərbaycanın regional liderlikdən qlobal səviyyəli orta güc statusuna yüksəlməsi təsadüfi tendensiya deyil, düşünülmüş xarici siyasi kursun və daxili sabitliyin məntiqi yekunudur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu uğurlu siyasət ölkəni beynəlxalq münasibətlər sistemində, sadəcə, prosesləri izləyən deyil, qlobal oyun qaydalarını formalaşdıran və gələcəyin enerji, nəqliyyat, ekologiya xəritələrini cızan həlledici mərkəzə çevirib.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, əziz həmkarım!

Sizi və dost Azərbaycan xalqını ölkənizin Müstəqilliyi Günü münasibətilə gürcü xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Ölkələrimiz arasında hazırkı strateji tərəfdaşlıq bizim tarixi əlaqələrimizin məntiqi davamıdır. Sizin Gürcüstana olduqca səmərəli dövlət səfəriniz iki ölkə arasında münasibətlərin inkişafına təkan verərək əlaqələri yeni səviyyəyə yüksəltdi. İnanıram ki, Gürcüstan ilə Azərbaycan arasında mehriban qonşuluq münasibətləri və möhkəm strateji tərəfdaşlığa əsaslanan əməkdaşlıq, birgə icra etdiyimiz strateji layihələr xalqlarımızın rifahını yüksəltməklə yanaşı, həm ölkələrimizdə, həm də regionda sülhü, əmin-amanlığı və sabitliyi daha da möhkəmləndirəcək.

Bu əlamətdar gündə fürsətdən istifadə edərək Sizə xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Mixeil KAVELAŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi və bütün həmvətənlərinizi Müstəqillik Günü münasibətilə Qazaxıstan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan suveren inkişafı illərində dövlətçiliyinin möhkəmləndirilməsində, sosial-iqtisadi inkişafda və dünya arenasında nüfuzunun artırılmasında böyük uğurlar qazanıb.

Şübhəsiz ki, Sizin güclü və müdrik rəhbərliyinizlə qardaş Azərbaycan xalqı davamlı iqtisadi artımın təmin edilməsində və regional güc kimi potensialının möhkəmləndirilməsində yüksək məqsədlərə uğurla nail olacaq.

Qazax xalqı əbədi dostluq və qarşılıqlı hörmət strategiyasına daim sadiq qalır və onu dəstəkləyir, Azərbaycanın nailiyyətlərinə səmimi-qəlbdən sevinir. Biz strateji tərəfdaşlığımızın və müttəfiqliyimizin gələcəkdə də inkişafına müstəsna əhəmiyyət veririk.

Əminəm ki, yüksək səviyyədə fəal və etimada əsaslanan siyasi dialoq Qazaxıstan-Azərbaycan çoxtərəfli əməkdaşlığının xalqlarımızın əsas maraqları naminə yeni zirvələrə yüksəlməsinə bundan sonra da kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, xalqınıza firavanlıq və sülh arzularımı çatdırıram.

Dövlətlərimiz arasındakı sıx və möhkəm münasibətlər strateji maraqlara əsaslanır. Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda yaxşı dost və etibarlı tərəfdaşdır.

Zati-alinizin Cənubi Qafqazda regionun böyük potensialından istifadə etməyə imkan yaradan davamlı sülhün bərqərar olması istiqamətində yorulmaz səylərini alqışlayıram.

Rumıniya Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında dialoqun davamlı şəkildə inkişafını dəstəkləmək üçün bundan sonra da fəaliyyət göstərəcək.

Fürsətdən istifadə edərək ölkələrimiz arasında ortaq maraq doğuran sahələrdə strateji tərəfdaşlığı daha da dərinləşdirmək məqsədilə Sizi Rumıniyaya səfərə dəvət edirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Nikuşor DAN,***
***Rumıniyanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bugünkü mürəkkəb qlobal şəraitdə çoxtərəfli çərçivələr vasitəsilə, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı çərçivəsində sıx əməkdaşlıq hər zamankından daha böyük əhəmiyyət daşıyır. Birgə fəaliyyət göstərməklə biz BMT Nizamnaməsinin prinsiplərini daha yaxşı qoruya və daha təhlükəsiz, daha ədalətli və daha dayanıqlı dünyanın qurulmasına töhfə verə bilərik.

Bu baxımdan ikitərəfli münasibətlərimizdə müşahidə olunan davamlı irəliləyişi məmnunluqla qarşılayır və qarşıdakı illərdə ölkələrimiz arasında tərəfdaşlığın daha da möhkəmlənəcəyinə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimi hörmətlə,*

***Alar KARİS,***
***Estoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İqtisadiyyatda öz uğurları və artan beynəlxalq nüfuzu ilə qürur duyan suveren, inkişaf etmiş və gələcəyə inamlı dövlətin qurulması üzrə Sizin həyata keçirdiyiniz kursun nəticələrini Belarusda yüksək qiymətləndirirlər.

Strateji Belarus-Azərbaycan tərəfdaşlığının inkişafında Minskin güclü marağını təsdiq edirəm. Əminəm ki, bizim müntəzəm görüşlərimiz, etimada əsaslanan fəal dialoq, həmçinin müxtəlif səviyyələrdə həyata keçirilən sistemli fəaliyyət cari layihələrin uğurla icrasına və yeni ikitərəfli təşəbbüslərin formalaşmasına daim kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə və ailənizə cansağlığı və xoşbəxtlik, Azərbaycan vətəndaşlarına isə sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan hazırda sürətlə inkişaf edir, iqtisadiyyat, infrastruktur və mədəniyyət sahələrində ciddi nailiyyətlər nümayiş etdirir, həmçinin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynayır.

Böyük məmnunluqla qeyd edirəm ki, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanan Türkmənistan-Azərbaycan münasibətləri getdikcə dinamik və ardıcıl xarakter alır. Xalqlarımızın rifahı naminə sıx əməkdaşlığımızı davam etdirməyə hazır olduğumuzu bildiririk.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizə və dost Azərbaycan xalqına ölkənizin milli bayramı münasibətilə tacik xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi göndərirəm.

Etibarlı tərəfdaşımızın sosial-iqtisadi inkişafda və beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsində qazandığı uğurlara ürəkdən sevinirik.

Ölkələrimiz arasında möhkəm tarixi dostluq və qarşılıqlı anlaşma ənənələrinə əsaslanan strateji tərəfdaşlığın davamlı inkişaf tendensiyasına malik olmasını qeyd etmək sevindiricidir.

Əmin olduğumu bildirirəm ki, birgə səylərimizlə konstruktiv əməkdaşlığımızı bundan sonra da gücləndirəcəyik və ölkələrimizin xalqlarının əsas maraqlarına cavab verən çoxplanlı qarşılıqlı fəaliyyətimizin daha da dinamik inkişafını təmin edəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və yeni-yeni uğurlar, dost Azərbaycanın qardaş xalqına isə hər zaman aydın səma, firavanlıq, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan xalqını Moldova xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram münasibətilə Sizə, ailənizə və Azərbaycan xalqına sülh və rifah arzulayıram. Moldova Cənubi Qafqazda davamlı sülhə ümid edir və biz inanırıq ki, dialoq və əməkdaşlıq sabitliyə və tərəqqiyə aparan ən etibarlı yoldur.

Azərbaycan həmişə Moldovanın etibarlı dostu olub və dialoqumuzu davam etdirməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Keniya Respublikasının Hökuməti və xalqı adından, eləcə də öz adımdan Sizə və Azərbaycan xalqına ölkənizin müstəqilliyinin 108-ci ildönümü münasibətilə ən səmimi təbriklərimi çatdırıram. Bu tarixi gün Azərbaycan xalqının azadlıq, müstəqillik və milli birlik əzmini təcəssüm etdirir.

Bu əlamətdar bayramı qeyd edərkən, xalqlarımızın qarşılıqlı faydası naminə tərəfdaşlığımızı daha yüksək strateji səviyyələrə qaldırmaq üçün zati-alinizlə sıx əməkdaşlığı davam etdirməyə hazır olduğumu bir daha təsdiqləyirəm.

Həmçinin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının uğurla keçirilməsinə görə Sizi təbrik edirəm. Əminəm ki, forumun nəticələrinin həyata keçirilməsi Dayanıqlı İnkişaf Məqsədlərində nəzərdə tutulan şəhər və yaşayış məntəqələrinin açıqlığının, təhlükəsizliyinin, davamlılığının və ekoloji dayanıqlılığının təmin edilməsinə əhəmiyyətli dərəcədə töhfə verəcəkdir.

Azərbaycana səfərim zamanı keçirdiyimiz görüşlər ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə yeni təkan verəcəkdir.

Zati-alinizi bir daha bu tarixi gün münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Uillyam Samoei RUTO,***
***Keniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə və dost Azərbaycan xalqına davamlı rifah və tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi üçün Sizinlə birlikdə işləməyə hazır olduğumu bir daha vurğulayıram.

*Dərin hörmətlə,*

***Bassiru Diomaye FAYE,***
***Seneqal Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

İki ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə fəaliyyətimizi davam etdirmək əzmimizi bir daha təsdiqləyirəm.

Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi və qardaş Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edən Türkmənistan-Azərbaycan qarşılıqlı faydalı əməkdaşlığının yüksək səviyyəsini böyük məmnunluqla qeyd edirəm. Qəti əminəm ki, münasibətlərimiz iki qardaş xalqın rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, səadət, ali dövləti vəzifənizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və davamlı rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü və müqəddəs Qurban bayramı münasibətilə səmimi təbriklərimi qəbul edin.

Qurban bayramının dövlət bayramı ilə üst-üstə düşməsi rəmzi məna daşıyır. Qoy, bütün müsəlmanların xeyirxahlıqla dolu olan bu böyük bayramı bəşəriyyəti yüksək mənəvi dəyərlərə çatdırsın, ona Uca Yaradanın mərhəmətini və şəfqətini nəsib etsin.

Qardaş Azərbaycan xalqına davamlı sürətli inkişaf və firavanlıq diləyir, həmçinin Sizin rəhbərliyinizlə qarşıda duran bütün məqsədlərə nail olunması ilə bağlı ən xoş arzularımı ifadə edirəm.

Ümidvaram ki, Sizinlə qurduğumuz qarşılıqlı hörmət uzun illər davam edəcək.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar bayramlar münasibətilə Sizə möhkəm cansağlığı, böyük uğurlar, Azərbaycan xalqına isə həmişə sülh və tərəqqi arzulayıram.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının Birinci Prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırır və ən dərin ehtiramımı ifadə edirəm.

Azərbaycanın suverenliyinin, milli birliyinin və ardıcıl inkişafının təcəssümü olan bu bayram dövlətçilik ənənələrinə hörməti və sabitliyin möhkəmləndirilməsi, firavanlığın təmin edilməsinə yönəlmiş səyləri əks etdirir.

Azərbaycan Respublikası bütün qarşılıqlı fəaliyyət istiqamətləri üzrə Rusiya Federasiyasının strateji tərəfdaşı olub və olaraq qalır.

Həştərxan vilayəti ilə Azərbaycan arasında formalaşmış dostluq əlaqələrini yüksək qiymətləndirir və regionumuzla çoxşaxəli qarşılıqlı faydalı əlaqələrin möhkəmləndirilməsinə göstərdiyiniz dəstəyə görə Sizə təşəkkür edirəm.

Bu əlamətdar gündə Sizə və Azərbaycanın bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və doğma ölkənin daha da inkişafı naminə həyata keçirilən işlərdə yeni nailiyyətlər arzulayıram.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi 28 May - Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan dövləti ötən 35 il ərzində çətin və şərəfli yol keçmişdir. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə ölkəmizin həyatında böyük dəyişikliklər baş verdi, sabitlik yarandı, iqtisadiyyat inkişaf etməyə başladı, müasir ordu quruldu, dünyanın aparıcı şirkətləri ilə enerji sahəsində çox mühüm layihələr həyata keçirildi və Azərbaycan bölgədə lider dövlətə çevrildi.

Siz Ulu Öndər Heydər Əliyevin ideyalarına yeni nəfəs gətirdiniz, 30 ilə yaxın işğal altında qalan torpaqlarımız uzaqgörən siyasətiniz sayəsində azad edildi. Bu gün Azərbaycan xalqı Müstəqillik Gününü qalib xalq kimi qeyd edir. Sizin ardıcıl siyasətiniz nəticəsində minlərlə soydaşımız doğma yurdlarına qayıdır.

Möhtərəm cənab Prezident, Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan zati-alinizə və bütün xalqımıza 28 May - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan böyük şərəf və məmnunluq duyuruq.

Müstəqillik Günü Azərbaycan xalqının milli yaddaşının ən şanlı səhifələrindən biridir və onun azadlıq, istiqlaliyyət arzularının həyata keçdiyi tarixi dönüş nöqtəsidir. Bu il Müstəqillik Günü müqəddəs Qurban bayramı ilə eyni vaxta təsadüf edir və bu, milli azadlıq ideallarının şəfqət, xeyirxahlıq, həmrəylik kimi ali mənəvi dəyərlərlə vəhdətini əyani şəkildə təcəssüm etdirir, eyni zamanda xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə və zəngin milli-mənəvi dəyərlərinə möhkəm bağlılığını göstərir.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan beynəlxalq miqyasda böyük nüfuz qazanmış və söz sahibinə çevrilmişdir. Bu gün ölkəmiz dünyada etibarlı və ciddi tərəfdaş kimi tanınır, müstəqil siyasət həyata keçirir, sülhə, sabitliyə, əməkdaşlığa mühüm töhfələr verir.

Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qazanılan möhtəşəm zəfərlər xalqımızla yanaşı, xaricdə yaşayan bütün azərbaycanlılar tərəfindən də böyük qürurla, sevinclə və minnətdarlıqla qarşılanır.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına davamlı sülh, rifah və tərəqqi arzulayırıq.

*Yüksək hörmət və ehtiramla,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə biz, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri Sizə ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Sizin rəhbərliyinizlə Azərbaycan beynəlxalq dialoqa, çoxtərəfli əməkdaşlığa və qlobal əlaqələrə mühüm töhfə verərək öz rolunu gücləndirməkdə davam edir. Ölkənin sürətli inkişafı və artan beynəlxalq mövqeyi xalqınız üçün qürur mənbəyidir və eyni zamanda dünyanın hər yerində Azərbaycanın dostlarını sevindirir.

Həmçinin Sizi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda uğurlu təşkili münasibətilə təbrik edirik. Bu forum bir daha Azərbaycanın dövrümüzün ən aktual problemlərinin həllinə həsr olunmuş qlobal toplantılara evsahibliyi etmək qabiliyyətini nümayiş etdirdi.

Bu ilin mart ayında keçirilən XIII Qlobal Bakı Forumunda Siz Nizami Gəncəvi Beynəlxalq Mərkəzini qlobal problemlərin həllində fəal iştirak etməyə çağırmışdınız. Buna uyğun olaraq mərkəz Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası zamanı müzakirələrdə 15-dən çox üzvünün fəal iştirakı ilə foruma töhfə verməkdən şərəf duyur.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə davamlı dəstəyinizə və artan qlobal qeyri-müəyyənlik dövründə dialoqun və beynəlxalq əməkdaşlığın təşviqinə göstərdiyiniz diqqətə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Zati-aliləri, ən yüksək ehtiramımızı və Azərbaycan Respublikasına, onun xalqına davamlı sülh, firavanlıq və uğurlar arzularımızı qəbul etməyinizi xahiş edirik.

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

***Mariya Fernanda ESPİNOZA,***
***BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, 2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri***

***Romano PRODİ,***
***1996-1998, 2006-2008-ci illərdə İtaliya Respublikasının Baş naziri, 1999-2004-cü illərdə Avropa Komissiyasının sədri***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiya Respublikasının Prezidenti***

***Şarl MİŞEL,***
***Avropa Şurasının fəxri prezidenti, 2014-2019-cu illərdə Belçika Krallığının Baş naziri***

***İv LETERME,***
***2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının baş katibi***

***Benita Ferrero-VALDNER,***
***2000-2004-cü illərdə Avstriya Respublikasının xarici işlər naziri***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti***

***Volkan BOZKIR,***
***BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri***

***Jan BADERŞNEYDER,***
***"Fortescue Ltd" şirkətinin Direktorlar Şurasının üzvü, "ExxonMobil" şirkətinin sabiq vitse-prezidenti***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***Borut PAHOR,***
***2012-2022-ci illərdə Sloveniya Respublikasının Prezidenti***

***Kolinda Qrabar-KİTAROVİÇ,***
***2015-2020-ci illərdə Xorvatiya Respublikasının Prezidenti***

***Valdis ZATLERS,***
***2007-2011-ci illərdə Latviya Respublikasının Prezidenti***

***Mladen İVANİÇ,***
***2014-2015, 2016-2017-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

***Ekmələddin İHSANOĞLU,***
***2004-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının baş katibi***

***Çaba KOROŞİ,***
***BMT Baş Assambleyasının 77-ci sessiyasının sədri***

***Milisa Pjanoviç-DURİSİÇ,***
***2012-2016-cı illərdə Monteneqronun müdafiə naziri***

***Dimitris AVRAMOPULOS,***
***2014-2019-cu illərdə miqrasiya, daxili işlər və vətəndaşlıq üzrə Avropa komissarı***

***Laimdota STRAUYUMA,***
***2014-2016-cı illərdə Latviya Respublikasının Baş naziri***

***Kyel Maqne BONDEVİK,***
***1997-2000-ci, 2001-2005-ci illərdə Norveç Krallığının Baş naziri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Türk Dünyası Mediatorlar Birliyi adından 28 May - Müstəqillik Günü və müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu bayramlar Azərbaycan xalqının müstəqillik iradəsini, həmrəyliyini və milli-mənəvi dəyərlərə sadiqliyini bir daha aydın şəkildə nümayiş etdirir.

Siz hər zaman dünyada sülhün, əməkdaşlığın və inkişafın tərəfdarı olmusunuz, bəşəriyyətin rifahına töhfələr vermisiniz. Sizin rəhbərliyinizlə Azərbaycan yalnız türk dünyasının deyil, həm də beynəlxalq ictimaiyyətin inkişafına yönələn nümunəvi təşəbbüslərin mərkəzinə çevrilmişdir.

Türk dünyasının bir ailə kimi birləşməsində Sizin rolunuz danılmazdır. Azərbaycan bu gün Sizin rəhbərliyinizlə türk dünyasının "şah damarı" və körpüsü kimi qəbul olunur.

Türk dövlətlərinə səfərlərimiz zamanı Sizə göstərilən sevgi və hörmət bizə böyük qürur verir. Hər kəs Sizi türk dünyasının zəfər lideri və qüruru kimi qəbul edir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla, eyni zamanda digər türk dövlətlərinin başçıları ilə səmimi dostluğunuz və əməkdaşlığınız təkcə türk dünyasında deyil, beynəlxalq miqyasda da nümunəvi qardaşlıq və dostluq modeli kimi dəyərləndirilir.

Azərbaycan Respublikasının Mediasiya Şurasının da qurucu üzvlərindən olduğu Türk Dünyası Mediatorlar Birliyi ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə xüsusi önəm verir. Sizin türk dövlətləri ilə bağlı siyasətiniz bizim üçün strateji xəttin əsasını təşkil edir və biz gördüyümüz işlərdə bu siyasətə layiq olmağa çalışırıq.

Eyni zamanda qürur hissi ilə qeyd edirəm ki, türkdilli dövlətlərin də qoşulduğu BMT-nin "Mediasiya nəticəsində əldə olunan beynəlxalq barışıq sazişləri haqqında" Konvensiyasının Sizin 2026-cı il 23 fevral tarixli Sərəncamınızla Azərbaycan Respublikası adından imzalanması dünya mediasiya institutunun inkişafına göstərdiyiniz diqqətin bariz nümunəsidir. Türk dünyasının mediatorlar ailəsi bir-biri ilə daha səmərəli əməkdaşlıq edərək bizə göstərdiyiniz etimadı doğruldacaqlar.

Azərbaycan artıq qlobal miqyasda əsas söz sahiblərindən birinə çevrilmişdir. Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyası Sizin rəhbərliyinizlə Azərbaycanın beynəlxalq arenada nüfuzunun daha da artmasına, sülh və əməkdaşlıq ideyalarının təşviqinə böyük töhfə vermişdir. Bu tədbir həm də türk dünyası brendini dünyada tanıtmaq üçün möhtəşəm bir vəsilə olmuşdur.

Sizin Ali Baş Komandanlığınızla işğaldan azad olunmuş Qarabağda aparılan abadlıq və quruculuq işləri bütün dünyaya Azərbaycanın inkişaf modelini nümayiş etdirir. Bu modelin mərkəzində Azərbaycan vətəndaşının rifahı və hüquqlarının qorunması dayanır.

Cənab Prezident, Sizinlə qürur duyuruq. Səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, zati-alinizin rəhbərliyi ilə Azərbaycan xalqına davamlı firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi Mərkəzi Asiya Mediatorlar Konsorsiumu adından 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu əlamətdar bayram xalqınızın müstəqillik əzmini, milli birliyini və mənəvi dəyərlərə bağlılığını aydın şəkildə təcəssüm etdirir.

Türk dövlətlərinin liderləri ilə səmimi dostluğunuz bizim fəaliyyətimizə birbaşa müsbət təsir göstərir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qırğızıstan Prezidenti Sadır Japarov ilə dostluq və qardaşlıq əlaqələriniz ölkələrimizin peşəkar birlikləri arasında əməkdaşlığın möhkəmləndirilməsində və inkişaf etdirilməsində mühüm rol oynayır.

Sizin rəhbərliyinizlə Azərbaycan regionda sülhün, sabitliyin və əməkdaşlığın təbliğatçısına çevrilib. Türk dünyasının birliyinin və beynəlxalq səviyyədə etimadın gücləndirilməsi üzrə səyləriniz bütün dövlətlər üçün nümunədir.

Sizin tərəfinizdən imzalanmış "Mediasiya haqqında" qanun əsasında yaradılan Azərbaycan Respublikasının Mediasiya Şurası ilə həm Türk Dünyası Mediatorlar Birliyi, həm də Mərkəzi Asiya Mediatorlar Konsorsiumu çərçivəsində səmərəli əməkdaşlıq edirik. Ölkələrimiz arasında qarşılıqlı səfərlər və təcrübə mübadiləsi əldə edilən nailiyyətlərin miqyasını bir daha təsdiqləyir.

Azərbaycana bütün səfərlərimiz zamanı türk dünyasının görkəmli xadimi, Ümummilli Lider Heydər Əliyevin Fəxri xiyabandakı məzarını xüsusi ehtiramla ziyarət edir və onun böyük işlərini həmişə minnətdarlıqla xatırlayırıq. Sizə və Azərbaycana olan hörmətimiz sonsuzdur. 2026-cı ilin aprelində Azərbaycanın BMT-nin "Mediasiya nəticəsində əldə olunan beynəlxalq barışıq sazişləri haqqında" Konvensiyasına qoşulmasını məmnunluq hissi ilə qeyd edirik. Bu, Sizin qlobal mediasiya institutunun inkişafına göstərdiyiniz diqqətin bariz nümunəsidir. İnanırıq ki, türk dünyasının mediatorlar ailələri onlara göstərilən etimadı doğruldaraq daha səmərəli əməkdaşlıq edəcəklər.

Qürur hissi ilə bildiririk ki, Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyası Sizin rəhbərliyinizlə Azərbaycanın ən əhəmiyyətli qlobal təşəbbüslərindən biri kimi tarixə düşdü. Bu sessiya həm Azərbaycanın beynəlxalq mövqeyinin bundan sonra da möhkəmləndirilməsi, həm də türk dünyası brendinin qlobal miqyasda təşviqi baxımından mühüm hadisəyə çevrildi.

Bu gün azad edilmiş Qarabağda aparılan bərpa və yenidənqurma işləri Azərbaycanın inkişaf modelini bütün dünyaya nümayiş etdirir. Bu modelin mərkəzində vətəndaşların rifahı, onların hüquqlarının qorunması və davamlı inkişaf dayanır.

Cənab Prezident, zati-alinizi bir daha təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə davamlı firavanlıq və tərəqqi arzulayırıq.

*Hörmətlə,*

***Mərkəzi Asiya Mediatorları Konsorsiumunun həmsədrləri***

***Jandilda JAKUPOV,***
***Qazaxıstan Respublikası Mediatorlar Assosiasiyasının İdarə Heyətinin sədri***

***Gülsina KOJOYAROVA,***
***Qırğız Respublikası Mediatorlar Palatasının İdarə Heyətinin sədri***

## Dövlət orqanlarının işğaldan azad edilmiş ərazilərdə işləyən və ya xidmətdə olan əməkdaşları üçün mənzil kirayəsi xərclərinin ödənilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 157** **Bakı şəhəri, 21 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Müəyyən edilsin ki:

1.1. dövlət orqanlarının işğaldan azad edilmiş ərazilərdə işləyən və ya xidmətdə olan, qeydiyyat ünvanı iş (xidmət) yerindən 50 km-dən artıq uzaqda yerləşən (hərbi qulluqçulara münasibətdə bu şərt nəzərə alınmadan) əməkdaşları üçün mənzil kirayəsinə görə hər ay 100 manat məbləğində vəsait ödənilir;

1.2. bu Qərarın 1.1-ci bəndində nəzərdə tutulan vəsait işğaldan azad edilmiş ərazilərdə işləyən və ya xidmətdə olan ailə üzvlərindən yalnız biri üçün ödənilir;

1.3. bu Qərarın 1.1-ci bəndində nəzərdə tutulan şəxslərlə birlikdə yaşayan və 3 nəfərdən artıq olmamaqla hər bir ailə üzvü üçün 50 manat məbləğində əlavə vəsait ödənilir.

2. Dövlət orqanlarının rəhbərlərinə tapşırılsın ki, bu Qərarın 1-ci hissəsində göstərilən şəxslərin sayı haqqında hər il iyulun 1-nə olan məlumatın işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri və ya müvafiq ərazidə çoxmənzilli binaların idarə edilməsi sahəsində fəaliyyət göstərən qurumlarla (bundan sonra - səlahiyyətli qurumlar) razılaşdırmaqla, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki:

3.1. hər il dövlət büdcəsinin layihəsində mərkəzləşdirilmiş xərclər üzrə bu Qərarın 1-ci hissəsində göstərilən şəxslər üçün mənzil kirayəsi ilə bağlı xərclərin ödənilməsi məqsədilə vəsait nəzərdə tutsun;

3.2. hər ay üzrə müvafiq səlahiyyətli qurumlarla aidiyyəti dövlət orqanları arasında bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan şəxslərin sayı ilə bağlı razılaşdırılmış üzləşmə aktına əsasən müvafiq vəsaitin aidiyyəti səlahiyyətli qurumlara ödənilməsini təmin etsin;

3.3. dövlət büdcəsinin layihəsinin tərtibi zamanı müvafiq ərazidə bərpa, tikinti və idarəetmə xidmətləri həyata keçirən publik hüquqi şəxslərə dövlət sifarişi ilə dövlət büdcəsi hesabına təyinatlı tədbirlərin həyata keçirilməsi üçün proqnozlaşdırılacaq məqsədli vəsaitin həcminin bu Qərara əsasən mənzil kirayəsinə görə ödəniləcək vəsaitin həcmi qədər azaldılmasını təmin etsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 aprel tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 319 (Cild I); 2024, № 3, maddə 326, № 5 (II kitab), maddə 612; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 dekabr tarixli 519 nömrəli Qərarı) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Daxili işlər orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan daxili işlər orqanları əməkdaşlarına və onların ailə üzvlərinə xidmət keçdiyi dövr ərzində kirayəyə götürülmüş yaşayış sahəsindən istifadə haqqı (kirayə haqqı) üçün yaşayış məntəqəsindən asılı olaraq, pul kompensasiyasının məbləği və verilməsi Qaydası"na aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qaydanın 1-ci hissəsi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xidmətdə olan daxili işlər orqanları əməkdaşlarına və onların ailə üzvlərinə şamil edilmir.".

5. "Hərbi qulluqçulara (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin ailəli kursantlarına) müvəqqəti mənzilin kirayəsi üçün pul kompensasiyası məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 iyul tarixli 171 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 638 (Cild I); 2025, № 12 (II kitab), maddə 1257) aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarın 1-ci hissəsi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xidmətdə olan hərbi qulluqçulara və onların ailə üzvlərinə şamil edilmir.".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 iyul tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 741 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Prokurorluq orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan prokurorluq işçilərinə və onların ailə üzvlərinə pul kompensasiyasının məbləği və verilməsi Qaydası"na aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qaydanın 2-ci və 2-1-ci hissələri Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xidmətdə olan prokorurluq işçilərinə və onların ailə üzvlərinə şamil edilmir.".

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 12 may tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 567 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Miqrasiya orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan miqrasiya orqanlarının işçilərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının məbləği və ödənilməsi Qaydası"na aşağıdakı məzmunda 1.3-cü bənd əlavə edilsin:

"1.3. Bu Qaydanın 2-ci hissəsi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xidmətdə olan miqrasiya orqanlarının işçilərinə və onların ailə üzvlərinə şamil edilmir.".

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyul tarixli 358 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 919) ilə təsdiq edilmiş "Ədliyyə orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan ədliyyə orqanları işçilərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının məbləği və ödənilməsi Qaydası"na aşağıdakı məzmunda 1.3-cü bənd əlavə edilsin:

"1.3. Bu Qaydanın 2-ci hissəsi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xidmətdə olan ədliyyə orqanlarının işçilərinə və onların ailə üzvlərinə şamil edilmir.".

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 4 sentyabr tarixli 391 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1054) ilə təsdiq edilmiş "Yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan vergi orqanının vəzifəli şəxsinə və onun ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi Qaydası və məbləği"nin 1-ci hissəsinin mətni 1.1-ci bənd hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci bənd əlavə edilsin:

"1.2. Bu Qaydanın 2-ci hissəsi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xidmətdə olan vergi orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə şamil edilmir.".

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 407 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1070) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Gömrük orqanlarında qulluq yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan gömrük orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının ödənilməsi Qaydası və məbləği"nın 1-ci hissəsinin mətni 1.1-ci bənd hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci bənd əlavə edilsin:

"1.2. Bu Qaydanın 2-ci hissəsi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xidmətdə olan gömrük orqanlarının işçilərinə və onların ailə üzvlərinə şamil edilmir.".

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 20 fevral tarixli 36 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 197) ilə təsdiq edilmiş "Rotasiya qaydasında yaşadığı inzibati ərazi vahidindən kənarda vəzifəyə təyin olunan dövlət qulluqçularına kompensasiya və birdəfəlik ödəniş verilməsi Qaydası"nın 2.5-ci bəndi ləğv edilsin.

12. Bu Qərarın 1-ci, 4-11-ci hissələri 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 158** **Bakı şəhəri, 21 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 275-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 524 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə [www.azerbaijan-news.az və nk.gov.az](www.azerbaijan-news.az) saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 160** **Bakı şəhəri, 22 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 275-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 524 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 68 (Cild I); 2024, № 7, maddə 925; 2025, № 10, maddə 967) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.13-cü bənd ləğv edilsin.

2. 2-ci hissə üzrə:

2.1. 2.6-cı bənddən "və əmək zəmanəti" sözləri çıxarılsın;

2.2. 2.10-cu bənd ləğv edilsin;

2.3. 2.11-1-ci bəndin birinci cümləsində "2.10-cu və 2.11-ci bəndlərində" sözləri "2.11-ci bəndində" sözləri ilə əvəz edilsin.

3. Həmin Qaydaya əlavə - "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-sosial ekspert komissiyasının Qərarı"nın 4.6-cı bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin nümayəndə heyəti Azərbaycanın Sankt-Peterburq şəhərindəki Baş Konsulluğunda olub

**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Sankt-Peterburq şəhərindəki Baş Konsulluğunda olub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlament nümayəndə heyəti müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Baş Konsulluğun inzibati binasında ucaldılmış büstünü ziyarət edib, büstün önünə gül dəstələri düzüb.

Baş Konsulluğun əməkdaşları ilə söhbət edən spiker Sahibə Qafarova Baş Konsulluğa Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş kitablar hədiyyə edib.

Sonra Baş Konsulluq tərəfindən 28 May - Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul keçirilib.

Tədbirdə Azərbaycanın dövlətçilik tarixində Müstəqillik Gününün əhəmiyyəti, ölkəmizin keçdiyi inkişaf yolu, müasir müstəqillik illərində əldə olunmuş uğurlar barədə çıxışlar edilib. Həmçinin müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlərdən bəhs edən videoçarxlar nümayiş olunub.

Bayram tədbiri Azərbaycanın tanınmış incəsənət xadimlərinin ifasında konsert proqramı ilə davam edib.

***"Azərbaycan"***

# Dövlət Gömrük Komitəsi ilə Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi arasında açıq dialoq platforması keçirilib

**Mayın 22-də Dövlət Gömrük Komitəsi ilə Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyi (TÜİB) arasında açıq dialoq platforması keçirilib.**






Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov tədbirin açılısında çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dayanıqlı və davamlı inkişaf siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması, investisiya qoyuluşlarının təşviqi və biznesin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə olunub.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, gömrük orqanlarının mütəmadi olaraq dövlət-özəl sektor tərəfdaşlığının gücləndirilməsinə xidmət edən, sahibkarlarla qarşılıqlı müzakirələrə əsaslanan görüşlər keçirdiyini vurğulayan DGK sədri bildirib ki, bu tədbir də gömrük-biznes münasibətlərinin daha da inkişaf etdirilməsi və qarşılıqlı faydalı tərəfdaşlığın genişləndirilməsi baxımından mühüm addım olacaq.

TÜİB sədri Hüseyin Böyükfırat tədbirin əhəmiyyətindən danışaraq bu platformanın gömrük-biznes əməkdaşlığının gücləndirilməsi, münasibətlərinin qarşılıqlı etimad, açıq və şəffaf dialoq prinsipləri əsasında qurulmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

Tədbir çərçivəsində TÜİB-in fəaliyyəti ilə bağlı videoçarx, həmçinin gömrük əməkdaşları tərəfindən "Etibarlı tərəfdaş konsepsiyası"na dair təqdimat nümayiş etdirilib.

Daha sonra görüş panel müzakirələrlə davam edib və sahibkarları maraqlandıran suallar ətraflı cavablandırılıb, eyni zamanda TÜİB-in yeni üzv şirkətlərlərinə plaketlər təqdim olunub.

Sonda Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin üzvləri DGK-nın yeni inzibati binası ilə tanış olublar.

# Tiranada Albaniya Həmkarlar İttifaqları Konfederasiyasının 35 illiyi qeyd olunub

**Tiranada Albaniya Həmkarlar İttifaqları Konfederasiyasının yaradılmasının 35 illiyi münasibətilə tədbir keçirilib.**






Müxtəlif ölkələrin həmkarlar ittifaqları təmsilçilərinin qatıldığı tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndə heyəti də iştirak edib.

Albaniya Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Kol Nikolay tədbirdə çıxışında rəhbərlik etdiyi təşkilatın yaranma tarixindən, keçdiyi inkişaf yolundan və son 35 il ərzində əldə olunan nailiyyətlərdən danışıb. Bildirilib ki, konfederasiya fəaliyyət göstərdiyi dövr ərzində işçilərin əmək, sosial və iqtisadi hüquqlarının müdafiəsi, sosial dialoqun təşviqi və əmək münasibətlərinin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görüb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov çıxışında Albaniya Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyini və kollektivini yubiley münasibətilə təbrik edib, təşkilatın ötən dövrdə həmkarlar ittifaqları hərəkatının inkişafına verdiyi töhfələri yüksək dəyərləndirib.

Çıxışda Azərbaycan və Albaniya dövlətləri arasında münasibətlərin siyasi, iqtisadi və humanitar sahələr üzrə dinamik inkişaf etdiyi vurğulanıb, həmkarlar ittifaqları sahəsində də əməkdaşlığın genişləndiyi qeyd olunub. Bildirilib ki, qarşılıqlı səfərlər, təcrübə və fikir mübadilələri həmkarlar ittifaqları arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir.

Tədbir çərçivəsində müasir dövrdə əmək bazarında baş verən dəyişikliklər, işçilərin hüquqlarının müdafiəsinin gücləndirilməsi, layiqli əməyin təşviqi, sosial dialoqun inkişafı, gender bərabərliyi, sosial inklüzivlik və rəqəmsallaşmanın əmək münasibətlərinə təsiri mövzuları ətrafında müzakirələr aparılıb.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# SƏNƏT Uşaq Musiqi və İncəsənət Mərkəzində Müstəqillik Günü münasibətilə konsert təşkil edilib

## Leyla Əliyeva və Alona Əliyeva konserti izləyiblər





**SƏNƏT Uşaq Musiqi və İncəsənət Mərkəzində 28 May - Müstəqillik Gününə həsr olunmuş konsert proqramı təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, konserti Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alona Əliyeva izləyiblər.

Mərkəzin tələbələri müxtəlif vokal ifalar, "Cəngi", "Yallı" və digər rəqs nümunələri ilə çıxış ediblər.

Gənc istedadların təqdim etdiyi bu zəngin proqram uşaqların musiqi və rəqs sənətinə gətirdiyi yeni nəfəsin, bədii yaradıcılığa verdikləri real töhfənin göstəricisidir.





# Leyla Əliyeva və Alona Əliyeva Sosial Reabilitasiya Mərkəzini ziyarət ediblər









**Leyla Əliyeva və Alona Əliyeva "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, qonaqlar mərkəzdə təşkil olunan sosial və yaradıcı fəaliyyətlərlə yaxından tanış olub, uşaqlarla birgə müxtəlif tədbirlərdə iştirak ediblər.

Mərkəzə gələn Leyla Əliyeva və Alona Əliyeva əvvəlcə uşaqlarla birlikdə həyətyanı sahədə dekorativ və meyvə ağacları əkiblər.

Daha sonra azyaşlılar öz əl işlərini, çəkdikləri rəsmləri və rəngarəng yunlardan hazırladıqları oyuncaqları təqdim ediblər. Uşaqların yaradıcılıq nümunələri qonaqlar tərəfindən maraqla qarşılanıb.

Birgə fəaliyyət zamanı müxtəlif dekorativ əşyalar hazırlanıb, uşaqların bacarıq və yaradıcılıq imkanlarını əks etdirən işlərə baxış keçirilib.

Tədbirin bədii hissəsində azyaşlılar şeirlər səsləndirib, musiqi və rəqs nömrələri ilə çıxış ediblər. Uşaqların nümayiş etdirdikləri çıxışlar iştirakçılar tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

# Leyla Əliyeva Masallıda Cümə məscidini ziyarət edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Masallı rayonuna səfər edib.**









AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Leyla Əliyeva rayonun tarixi və dini-mədəni abidələrindən biri olan Masallı Cümə məscidini ziyarət edib, məscidin tarixi və memarlıq xüsusiyyətləri ilə yaxından tanış olub.

Bildirilib ki, Masallı şəhərinin mərkəzində yerləşən Cümə məscidi 1846-cı ildə şəhər sakinləri və yerli xeyriyyəçilərin maliyyə dəstəyi ilə inşa olunub. Müstəqillik illərində məscid bərpa edilərək yenidən ibadətgah kimi fəaliyyətə başlayıb. Sonrakı illərdə dövlət tərəfindən əsaslı təmir olunan məscid 2001-ci ildə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilib.

Sonda Leyla Əliyevaya "Qurani-Kərim" hədiyyə olunub.

# Leyla Əliyeva Masallıda həsirçiliklə məşğul olan qadınlarla görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Masallı rayonuna səfəri çərçivəsində Musaküçə kəndində həsirçiliklə məşğul olan qadınlarla görüşüb.**







AZƏRTAC xəbər verir ki, görüş zamanı Leyla Əliyeva ölkəmizdə ənənəvi həsir toxuculuğu sənətini qoruyub yaşadan son icmalardan biri olan "Rooted Hands" layihəsinin iştirakçıları ilə söhbət edib, onların əl işləri və yaradıcılıq fəaliyyəti ilə tanış olub.

Qeyd edək ki, Masallı rayonunun Musaküçə kəndindən olan qadınlar təbii qamış bitkilərini toplayır, qurudur və nəsildən-nəslə ötürülən ənənəvi üsullarla əl ilə həsir nümunələri toxuyurlar. Bu sənət həm bölgənin mədəni irsinin qorunması, həm də qadınların məşğulluğunun və iqtisadi dayanıqlığının dəstəklənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Səmimi görüş zamanı qadınlar həsir toxuma prosesini nümayiş etdiriblər. Leyla Əliyeva da onlarla birlikdə həsir toxuyub, bu qədim sənətin incəlikləri ilə yaxından maraqlanıb. Daha sonra həsirçilik sənətinə və "Rooted Hands" layihəsinə həsr olunmuş qısa film nümayiş olunub.

Leyla Əliyevanın dəstəyi ilə qadınlar üçün yenilənmiş məkan yaradılıb. Bu məkan onların işləməsi, təlim və ustad dərsləri təşkil etməsi, eləcə də əl işlərini nümayiş etdirərək satışını həyata keçirməsi üçün nəzərdə tutulub. Təşəbbüs Masallıda yeni mədəni və turistik məkanın formalaşmasına, eyni zamanda yerli qadınların maliyyə imkanlarının genişləndirilməsinə və ənənəvi həsirçilik sənətinin yaşadılmasına töhfə verəcək.

"Rooted Hands" layihəsi artıq beynəlxalq səviyyədə də təbliğ edilməyə başlanılıb. Layihə 2025-ci ildə Milan Moda Həftəsində dayanıqlı moda işləri çərçivəsində təqdim olunaraq Azərbaycanın bataqlıq ərazilərindən toplanan təbii materialların, qadın sənətkarların əl əməyinin, müasir dizaynın və ənənəvi sənətkarlığın uğurlu vəhdətini nümayiş etdirib.





Layihə haqqında ətraflı məlumat veb-səhifəsində və sosial media hesabında təqdim olunur.




# Prezident İlham Əliyevin liderliyinin daha bir nümunəsi

## Dünyanın gələcək şəhərsalma konsepsiyası Bakıda formalaşdı

**2026-cı ildə paytaxtımız Bakı daha bir tarixi beynəlxalq hadisəyə - BMT-nin Məskunlaşma Proqramı - UN-Habitatın təşkilatçılığı ilə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına evsahibliyi etdi. Daha çox WUF13 kimi tanınan bu qlobal tədbir şəhərsalma sahəsində ən böyük platforma olmaqla yanaşı, həm də müasir dünyanın gələcək inkişaf istiqamətlərinin müzakirə olunduğu mühüm beynəlxalq dialoq məkanı kimi tarixə düşdü. Forum Azərbaycanın beynəlxalq nüfuzunun, çoxtərəfli əməkdaşlıq imkanlarının və qlobal təşəbbüslər irəli sürmək potensialının növbəti parlaq nümayişi oldu.**

### WUF tarixində ilk: Liderlərin Bəyanatları Sessiyası

WUF13 176 ölkədən 58 mindən çox iştirakçını bir araya gətirməklə Ümumdünya Şəhərsalma Forumunun bu günədək keçirilmiş ən genişmiqyaslı sessiyasıdır. Fakt özlüyündə forumun miqyasını və Bakının artıq qlobal tədbirlər xəritəsində nə qədər mühüm yer tutduğunu bir daha göstərir. COP29-dan sonra ölkəmizdə keçirilmiş ikinci ən böyük beynəlxalq toplantı olan WUF13 Azərbaycanın beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkili sahəsində formalaşdırdığı yeni standartların davamı kimi qiymətləndirilir.

Forum günlərində Bakı qlobal dialoq mərkəzi rolunda çıxış etdi. Paytaxtımız müxtəlif qitələri, fərqli siyasi sistemləri və inkişaf modellərini təmsil edən ölkələri, beynəlxalq təşkilatları, ekspertləri, urbanistləri, memarları, vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirdi. Bu mənada Bakı bir daha qlobal həmrəyliyi, beynəlxalq tərəfdaşlığı və çoxtərəfliyi təşviq edən mühüm platforma kimi çıxış etdi.

WUF13-ün məhz Bakıda keçirilməsi təsadüfi seçim olmayıb, Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin, şəhərsalma sahəsində təqdim etdiyi innovativ yanaşmaların və ölkəmizin etibarlı tərəfdaş kimi qazandığı yüksək nüfuzun nəticəsi idi. Son illər Azərbaycan beynəlxalq diplomatiya, enerji təhlükəsizliyi, humanitar əməkdaşlıq, iqlim gündəliyi və regional inkişaf məsələlərində fəal rol oynamaqla qlobal səviyyədə etibarlı tərəfdaş statusunu daha da gücləndirib. WUF13 isə bu nüfuzun urbanizasiya və şəhərsalma müstəvisində də təsdiqi oldu.

Forumun yüksək səviyyədə təşkili Azərbaycanın böyükmiqyaslı beynəlxalq tədbirlərin idarəçiliyi, təhlükəsizlik, logistika, beynəlxalq koordinasiya və çoxtərəfli əməkdaşlıq sahəsində malik olduğu yüksək potensialı bir daha nümayiş etdirdi. Dünyanın müxtəlif regionlarından gəlmiş minlərlə iştirakçının vahid platformada bir araya gəlməsi ölkəmizin təşkilati imkanlarının miqyasını açıq şəkildə göstərdi.

WUF13-ün ən mühüm siyasi yeniliklərindən biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Ümumdünya Şəhərsalma Forumu tarixində ilk dəfə Liderlərin Bəyanatları Sessiyasının keçirilməsi oldu. Mayın 18-də təşkil edilmiş bu xüsusi seqmentdə 27 dövlət və hökumət başçısı, yüksəksəviyyəli qonaqlar, beynəlxalq təşkilat rəhbərləri iştirak etdilər. Liderlər öz çıxışlarında Azərbaycana göstərilən yüksək qonaqpərvərliyə, beynəlxalq dialoq üçün yaradılmış əlverişli şəraitə və forumun uğurlu təşkilinə görə minnətdarlıqlarını bildirdilər. Sessiya WUF13-ün siyasi çəkisini əhəmiyyətli dərəcədə artırdı. Əgər əvvəlki forumlar əsasən urbanist ekspert müzakirələri platforması kimi çıxış edirdisə, Bakı sessiyası şəhərsalma gündəliyini birbaşa qlobal siyasi liderlərin diqqət mərkəzinə gətirdi. Liderlərin Bəyanatları Sessiyası Azərbaycanın artıq yalnız regional təşəbbüslərin deyil, qlobal strateji dialoqun da mühüm təşkilatçılarından birinə çevrildiyini nümayiş etdirdi. Bu addım həm də ölkəmizin yeni beynəlxalq platformalar formalaşdırmaq və strateji əhəmiyyətli məsələlər ətrafında dövlətləri bir araya gətirmək qabiliyyətinin göstəricisi idi.

### Sıfırdan qurulan urban model

Liderlərin Bəyanatları Sessiyasında postmünaqişə bərpası məsələləri xüsusi yer tutdu. Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi yenidənqurma layihələri "sıfırdan qurulan dayanıqlı urban model" kimi beynəlxalq iştirakçılar tərəfindən geniş maraqla qarşılandı. Çıxışlarda qeyd olundu ki, burada məqsəd yalnız dağıdılmış yaşayış məntəqələrinin bərpası deyil, müasir texnologiyalar və "yaşıl inkişaf" prinsipləri əsasında tamamilə yeni yaşayış sisteminin qurulmasıdır.

Sessiyada "smart city" və "smart village" konsepsiyalarına da xüsusi diqqət ayrıldı. Bildirildi ki, Ağalı kəndi kimi layihələr postmünaqişə kənd inkişafı üçün yeni beynəlxalq nümunə hesab oluna bilər. Rəqəmsal idarəetmə, alternativ enerji, ekoloji planlaşdırma və "ağıllı kənd təsərrüfatı" həlləri Azərbaycanın təqdim etdiyi əsas innovativ yanaşmalar sırasında göstərildi.

Forum iştirakçıları həmçinin Azərbaycanın "Böyük qayıdış" proqramını da diqqətə çatdırdılar. Məcburi köçkünlərin təhlükəsiz və dayanıqlı şəkildə geri dönüşünü hədəfləyən bu proqram çərçivəsində yaşayış məntəqələri ilə yanaşı, məktəblər, xəstəxanalar, yollar, hava limanları və iqtisadi infrastruktur layihələri də paralel şəkildə həyata keçirilir. Beynəlxalq ekspertlər qeyd etdilər ki, bir çox postmünaqişə ölkəsində bərpa prosesi mərhələli şəkildə aparıldığı halda Azərbaycan paralel və kompleks inkişaf modelini tətbiq edir.

Liderlərin Bəyanatları Sessiyasında iqlim dəyişiklikləri də əsas mövzulardan biri oldu. Çıxış edən nümayəndələr şəhərlərin gələcəkdə iqlim risklərinə qarşı daha dayanıqlı qurulmasının vacibliyini vurğuladılar. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan olunması beynəlxalq auditoriyada xüsusi maraq doğurdu. Günəş və külək enerjisi layihələri, ekoloji nəqliyyat sistemləri və karbon emissiyalarının azaldılması istiqamətində həyata keçirilən proqramlar dayanıqlı urbanizasiya nümunəsi kimi təqdim edildi.

Sessiyanın nəticələri sonradan "Baku Call to Action" sənədində də əks olundu. Sənəddə şəhərlərin gələcəyinin yalnız iqtisadi deyil, həm də sosial və humanitar məsələ olduğu vurğulandı. Forum iştirakçıları urbanizasiya siyasətində insan amilinin, sosial ədalətin və inklüziv inkişafın əsas prioritetlərə çevrilməsinin vacibliyini qeyd etdilər.

Ekspertlərin fikrincə, Liderlərin Bəyanatları Sessiyası WUF platformasının gələcək inkişafında yeni mərhələnin başlanğıcı hesab oluna bilər. Çünki bu təşəbbüs urbanizasiya məsələlərini yalnız texniki müstəvidən çıxararaq qlobal siyasi gündəliyin əsas elementlərindən birinə çevirdi. Azərbaycanın evsahibliyi ilə keçirilən bu sessiya həm də ölkənin beynəlxalq urban diplomatiya sahəsində rolunu gücləndirən mühüm addım kimi qiymətləndirilir.

Beləliklə, WUF13 çərçivəsində ilk dəfə keçirilən belə bir sessiya təkcə forumun yeniliyi deyil, həm də şəhərlərin gələcəyi ilə bağlı qlobal siyasi dialoqun yeni platforması oldu.

### Forumun əsas nəticəsi - "Baku Call to Action"

World Urban Forum 13 çərçivəsində qəbul edilən "Baku Call to Action" sənədi dünya şəhərlərinin gələcəyi ilə bağlı mühüm mesajlar verdi. BMT-nin UN-Habitat proqramının təşkil etdiyi forumun yekun sənədi kimi təqdim olunan bu çağırış qlobal mənzil böhranı, iqlim dəyişiklikləri və şəhərlərin davamlı inkişafı istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsini hədəfləyir.

Sənəddə vurğulanır ki, dünya üzrə milyardlarla insan əlverişli və təhlükəsiz mənzil çatışmazlığı ilə üzləşir. Artan kirayə qiymətləri, torpaq spekulyasiyası, məcburi köçkünlük və iqlim riskləri şəhərlərdə sosial bərabərsizliyi daha da dərinləşdirir. Buna görə də sənəd hökumətləri və yerli idarəetmə qurumlarını daha inklüziv və insan mərkəzli urbanizasiya siyasəti yürütməyə çağırır.

"Baku Call to Action" yalnız yeni binaların tikintisini deyil, bütöv yaşayış ekosisteminin qurulmasını vacib sayır. Buraya nəqliyyat, infrastruktur, kommunal xidmətlər, yaşıl məkanlar və iqtisadi imkanların inteqrasiyası daxildir. Ekspertlər hesab edirlər ki, gələcəyin şəhərləri yalnız memarlıq layihələri ilə deyil, sosial və ekoloji davamlılıq prinsipləri ilə formalaşmalıdır. Sənəddə iqlim dəyişikliklərinə xüsusi diqqət ayrılıb. Bildirilir ki, mənzil təhlükəsizliyi ilə iqlim dəyişikliyi artıq bir-birindən ayrılmaz məsələlərdir. Daşqınlar, ekstremal istilər və ekoloji problemlərdən ən çox aztəminatlı əhali əziyyət çəkir. Buna görə də iqlimə davamlı yaşayış sistemlərinin qurulması, mövcud binaların yenilənməsi və təbiət əsaslı həllərin tətbiqi əsas prioritetlər sırasında göstərilib.

Ekspertlər bildirirlər ki, uzun illər bir çox ölkədə şəhərsalma daha çox kommersiya maraqları üzərində qurulub. Nəticədə insanlar yaşadıqları şəhərlərdə nəqliyyat sıxlığı, havanın çirklənməsi və sosial təcrid kimi problemlərlə üzləşirlər. "Baku Call to Action" bu yanaşmanı dəyişməyi hədəfləyir və şəhərlərin "insan üçün şəhər" prinsipinə uyğun inkişafını təşviq edir. Sənəddə inklüziv şəhər modeli xüsusi qeyd olunur. Burada qadınların, gənclərin, yaşlıların, əlilliyi olan şəxslərin və sosial həssas qrupların şəhər idarəçiliyində iştirakının vacibliyi vurğulanır. Məqsəd urbanizasiya prosesində heç kimin kənarda qalmamasıdır.

Forumun yekun sənədində Azərbaycanın münaqişədən sonrakı bərpa təşəbbüslərinə də toxunulub. "Smart, Sustainable Settlements for Safe Return" layihəsinə dəstək ifadə edilərək məcburi köçkünlərin təhlükəsiz və davamlı qayıdışı üçün koordinasiyalı fəaliyyətin vacibliyi vurğulanıb. "Baku Call to Action" sənədi dünya şəhərlərinə aydın mesaj verir: urbanizasiya artıq yalnız tikinti deyil, insan həyatı, sosial ədalət və iqlim təhlükəsizliyi məsələsidir.

### "Baku City Award" - Bakı Şəhər Mükafatı

WUF13 çərçivəsində təqdim edilən əsas yeniliklərdən biri də "Baku City Award" - Bakı Şəhər Mükafatı oldu. Bu təşəbbüs forumun ən diqqətçəkən institusional yeniliklərindən biri kimi qiymətləndirildi və urbanizasiya sahəsində qlobal əməkdaşlığın təşviqinə yönəlmiş yeni beynəlxalq platforma kimi təqdim edildi.

"Baku City Award" Azərbaycan hökuməti və UN-Habitat tərəfindən birgə təsis olunub. Mükafatın əsas məqsədi dayanıqlı şəhərsalma, innovativ urban həllər, əlçatan mənzil siyasəti və insan mərkəzli şəhər idarəçiliyi sahəsində uğurlu beynəlxalq təcrübələri təşviq etməkdir. Forum təşkilatçılarının açıqlamasına görə, bu mükafat gələcəkdə World Urban Forum platformasının daimi təşəbbüslərindən birinə çevriləcək.

Ekspertlərin fikrincə, "Baku City Award" ənənəvi memarlıq və dizayn mükafatlarından fərqli olaraq yalnız estetik layihələri deyil, sosial və ekoloji təsir yaradan urban həlləri qiymətləndirəcək. Burada əsas diqqət şəhərlərin daha yaşıl, daha inklüziv və daha dayanıqlı inkişafına yönəlmiş təşəbbüslərə veriləcək. Mükafat çərçivəsində "smart city", "smart village", "yaşıl enerji", rəqəmsal idarəetmə, iqlim dayanıqlılığı və sosial inklüzivlik kimi istiqamətlər xüsusi prioritet hesab olunur.

WUF13 iştirakçıları qeyd etdilər ki, urbanizasiya sahəsində beynəlxalq təcrübələrin paylaşılması üçün belə platformaların yaradılması olduqca vacibdir. Çünki müasir şəhərlər yalnız infrastruktur layihələri ilə deyil, həm də sosial rifah, iqlim təhlükəsizliyi və insan həyatının keyfiyyəti ilə ölçülür. "Baku City Award" məhz bu yeni urban baxışı təşviq edən qlobal təşəbbüs kimi təqdim olunub.

WUF13 çərçivəsində qəbul edilən "Baku Call to Action" sənədində də "Baku City Award" forumun əsas innovativ təşəbbüslərindən biri kimi xüsusi qeyd olundu. Bu mükafat Azərbaycanın urban diplomatiyası sahəsində mövqeyini gücləndirən uzunmüddətli layihəyə çevrilə bilər. Son illər COP29 və WUF13 kimi beynəlxalq tədbirlərə evsahibliyi edən Bakı artıq qlobal urbanizasiya və dayanıqlı inkişaf müzakirələrinin aparıldığı əsas platformalardan biri kimi çıxış edir. Yeni mükafat isə bu prosesin davamı olaraq Bakının adını beynəlxalq şəhərsalma gündəmində daimi şəkildə möhkəmləndirməyi hədəfləyir.

### Bakıdan yüksələn yeni çağırış: "Nəfəs alan şəhərlər"

WUF13 çərçivəsində keçirilən ən diqqətçəkən təşəbbüslərdən biri də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil edilmiş yüksəksəviyyəli forum oldu. "Yeni şəhər gündəliyində həyat nəfəsi: Davamlı şəhərlər üçün hava keyfiyyəti və "yaşıl infrastrukturun inteqrasiyası" mövzusuna həsr olunmuş tədbirdə müasir şəhərlərin ən aktual problemlərindən biri olan hava keyfiyyəti məsələsi müzakirə edildi.

Tədbirin yekununda qəbul olunan "Nəfəs alan şəhərlər naminə Bakı Çağırışı" kommünikesi təmiz hava məsələsinin gələcək Ümumdünya Şəhərsalma forumlarının daimi gündəlik mövzularından birinə çevrilməsinə çağırış etdi. Bu təşəbbüs Azərbaycanın qlobal urbanizasiya gündəliyinə yeni və strateji məzmun qazandırmaq cəhdinin göstəricisi kimi xüsusi əhəmiyyət daşıyır.

WUF13-ün ən mühüm nəticələrindən biri forumun təşkilində tətbiq olunmuş innovativ yanaşmaların beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsidir. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə UN-Habitat arasında imzalanmış Niyyət Məktubu əsasında gələcək forum sessiyalarının təşkili üçün "WUF13 Bakı standartları"na əsaslanan əməliyyat təlimatlarının hazırlanması nəzərdə tutulur. Bu isə Azərbaycanın artıq beynəlxalq tədbirlərin təşkili sahəsində qabaqcıl təcrübə yaradan ölkələr sırasına daxil olduğunu göstərir.

Növbəti forumun Bakıda keçirilməsi müasir Azərbaycanın beynəlxalq statusunu bir daha nümayiş etdirdi. WUF13 göstərdi ki, Azərbaycan artıq qlobal gündəliyin formalaşmasına töhfə verən ölkələrdəndir. Bakı isə Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən coğrafi körpü olmaqla yanaşı, həm də qlobal ideyaların, strateji dialoqun, beynəlxalq əməkdaşlığın mühüm mərkəzlərindəndir.

WUF13 Azərbaycanın gələcəyə baxışını da ortaya qoydu: dayanıqlı inkişaf, insan mərkəzli urbanizasiya, "yaşıl texnologiyalar", mədəni irsin qorunması və qlobal əməkdaşlıq üzərində qurulan yeni inkişaf fəlsəfəsi. Məhz buna görə WUF13 Azərbaycanın XXI əsrdə yüksələn qlobal rolunun növbəti siyasi və strateji təsdiqi kimi tarixə düşdü.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Daha dayanıqlı şəhərlərin qurulmasına töhfə verəcək istiqamətlər müəyyənləşdirildi

**"Hər kəs üçün yaşayış yerləri: Təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) uğurla başa çatdı. Forum çərçivəsində müxtəlif ölkələrin dövlət nümayəndələri, beynəlxalq təşkilatlar, ekspertlər və vətəndaş cəmiyyəti təmsilçiləri bir araya gələrək şəhərlərin gələcəyi, təhlükəsiz yaşayış mühiti və dayanıqlı inkişaf məsələlərini müzakirə etdilər.**

Forumun sonunda qəbul edilən "Bakı Fəaliyyətə Çağırış" (Baku Call to Action) sənədi isə tədbirin əsas nəticələrini və gələcək fəaliyyət istiqamətlərini özündə əks etdirdi.

Sənəddə ilk növbədə Azərbaycana forumun yüksək səviyyədə təşkilinə görə xüsusi təşəkkür edilməsinin qeyd olunması diqqət çəkir. Bildirildi ki, 176 ölkədən 58 mindən artıq iştirakçının qatıldığı WUF13 bu günədək keçirilmiş ən böyük Ümumdünya Şəhərsalma Forumu kimi tarixə düşdü. Forum iştirakçıları Azərbaycan dövlətinin və xalqının göstərdiyi qonaqpərvərliyi yüksək qiymətləndirdilər. Tədbirin təşkili Azərbaycanın beynəlxalq tədbirlərin keçirilməsi sahəsində böyük təcrübəyə malik olduğunu bir daha nümayiş etdirdi. Bakı qlobal humanitar və intellektual müzakirələrin mərkəzi qovşağına çevrildiyini bir daha təsdiqlədi.

"Bakı Fəaliyyətə Çağırış" sənədində xüsusi vurğulanan məqamlardan biri Liderlərin Bəyanatları Sessiyası oldu. Tarixdə ilk dəfə olaraq ev sahibi ölkənin təşəbbüsü ilə təşkil edilən bu sessiyada 27 dövlət və hökumət başçısı iştirak etdi. Bu hal forumun beynəlxalq siyasi əhəmiyyətini daha da artırdı və urbanizasiya məsələlərinin artıq qlobal siyasətin əsas mövzularından birinə çevrildiyini göstərdi. Liderlərin iştirakı şəhərlərin gələcəyi ilə bağlı qərarların həm yerli, həm də beynəlxalq əməkdaşlıq çərçivəsində həll edilməsinin vacibliyini ortaya qoydu. Azərbaycanın bu yeniliyi Ümumdünya Şəhərsalma forumlarının tarixinə böyük əhəmiyyətli addım kimi daxil oldu.




Forum zamanı münaqişədən sonrakı bərpa və yenidənqurma məsələləri də geniş müzakirə edildi. Sənəddə Azərbaycanın bu sahədəki təcrübəsi mühüm beynəlxalq nümunələrdən biri kimi qeyd edildi. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işləri, infrastruktur layihələri və "ağıllı şəhər" yanaşmaları diqqət mərkəzində oldu. Azərbaycanın həyata keçirdiyi bərpa proqramlarının müasir texnologiyalara və davamlı inkişaf prinsiplərinə əsaslanması iştirakçılar tərəfindən müsbət qiymətləndirildi. Qarabağ və Şərqi Zəngəzurda sıfırdan qurulan "yaşıl texnologiya"lı şəhər və kəndlər, qlobal iqlim böhranı ilə mübarizədə dünyaya təqdim olunan ən real və uğurlu "yaşıl model" kimi qəbul edildi.

"Bakı Fəaliyyətə Çağırış" sənədində yenidənqurma və bərpa səylərinin koordinasiyalı şəkildə həyata keçirilməsinin vacibliyi də qeyd edildi. Bildirildi ki, münaqişədən zərər görmüş ərazilərdə dayanıqlı inkişafın təmin olunması üçün dövlətlər, beynəlxalq təşkilatlar və humanitar qurumlar arasında sıx əməkdaşlıq lazımdır. Eyni zamanda keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışının təmin edilməsinin əsas prioritetlərdən biri olduğu vurğulandı. Bütün bunlar insanların sosial rifahının bərpasına və uzunmüddətli sabitliyə xidmət etməsinin göstəricisidir.

Forum çərçivəsində təqdim edilən yeniliklər sırasında Bakı Şəhər Mükafatı da xüsusi qeyd edildi. Bu təşəbbüs şəhərlərin inkişafı, innovativ idarəetmə və davamlı urbanizasiya sahəsində uğurlu təcrübələrin təbliğinə xidmət edir. Bakı Şəhər Mükafatı gələcəkdə müxtəlif şəhərlərin müsbət təcrübələrinin paylaşılması üçün mühüm platformaya çevrilə bilər. Bu mükafat eyni zamanda şəhərlərin daha yaşıl, təhlükəsiz və inklüziv inkişafına stimul verir. Təsis edilən bu mükafat Azərbaycanın qlobal intellektual mülkiyyətə və şəhərsalma elminə verdiyi institusional töhfədir və Bakının adını beynəlxalq motivasiya simvoluna çevirir.

Sənəddə müharibə və münaqişələrin şəhərlərə vurduğu ağır zərərlərə də diqqət çəkildi. Vurğulandı ki, münaqişələr və urbisid nəticəsində məktəblər, xəstəxanalar, yaşayış binaları və digər mülki infrastrukturlar dağıdılır. Bununla yanaşı, ətraf mühitə və biomüxtəlifliyə ciddi ziyan dəyir. Bu proseslər milyonlarla insanın evsiz qalmasına, qaçqın və ya məcburi köçkün vəziyyətinə düşməsinə səbəb olur. Forum iştirakçıları belə halların qarşısının alınmasının beynəlxalq ictimaiyyətin əsas vəzifələrindən biri olduğunu bildirdilər. Azərbaycanın təşəbbüsü ilə "urbisid" (şəhərlərin qəsdən məhv edilməsi) termininin və onun fəsadlarının sənəddə bu dərəcədə kəsərli yer alması gələcəkdə beynəlxalq hüquqi məsuliyyət məsələlərinin formalaşdırılması üçün güclü bir baza yaradır.

WUF13 və yekun sənədi olan "Bakı Fəaliyyətə Çağırış" beynəlxalq əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Forum Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı və ölkənin qlobal şəhərsalma gündəliyində fəal rol oynadığını nümayiş etdirdi. Müzakirə edilən məsələlər gələcəkdə daha dayanıqlı, təhlükəsiz və insanyönümlü şəhərlərin qurulmasına töhfə verəcək mühüm istiqamətlər müəyyənləşdirdi. Beləliklə, COP29-dan sonra WUF13-ə də uğurla evsahibliyi edən Bakı, planetin ekoloji və urbanistik xilası naminə qəbul edilən tarixi qərarların vahid və rəsmi coğrafiyası kimi, dünya tarixinə damğasını vurdu.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*



# Müstəqilliyimiz güclü və əbədidir

**"Xalqımız tarix boyunca dəfələrlə yadelli qəsbkarların hücumlarına məruz qalsa da, heç vaxt azadlıq ideallarından geri çəkilməyib və zaman-zaman bu ideallar uğrunda mücadilə aparıb. Bu mücadilələrin məntiqi nəticəsi olaraq Azərbaycan xalqı 28 may 1918-ci ildə öz müstəqilliyini elan edib və milli dövlətini - Azərbaycan Xalq Cümhuriyyətini yaradıb".**

Bu fikirləri Milli Məclisin deputatı Samir Vəliyev deyib. Deputat bildirib ki, AXC-nin yaradılması dövlətçilik tariximizdə çox mühüm mərhələni təşkil edir: "Həmin dövrdə yeni dünya nizamı formalaşırdı. Belə bir şəraitdə 1918-ci il mayın 28-də Milli Şuranın Azərbaycanın İstiqlaliyyəti haqqında Bəyannaməni qəbul etməsi xalqımızın azadlıq ideyalarına, dövlətçilik ənənələrinə nə qədər sadiq qaldığının əyani təcəssümü idi. Biz qürur duyuruq ki, müsəlman Şərqində ilk parlamentli respublika qurmuşuq. Azərbaycan Xalq Cümhuriyyəti böyük coğrafiyada demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərib, qısa dövr ərzində parlament, milli hökumət yaradılıb, dövlət atributları təsis olunub, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilib. Cümhuriyyət parlamentinin qəbul etdiyi qanunlar ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynayıb. Bura Azərbaycan vətəndaşlığı institutunun təsis edilməsi, Milli Ordunun yaradılması kimi faktları da əlavə edə bilərik. Xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Cümhuriyyət bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Himn qəbul olundu, bayraq, gerb təsis edildi. Milli Ordu qurularaq Qafqaz İslam Ordusu ilə birlikdə Bakı bolşevik-daşnak işğalçılarından azad edildi. 1918-ci ilin avqustunda "Xalq maarifinin, məktəblərin milliləşdirilməsi haqqında" qərarla tədris müəssisələrində təhsilin ana dilində aparılmasına başlanması, 1919-cu ilin sentyabrında parlament tərəfindən Bakı şəhərində universitet açmaq haqqında qanun qəbul edilməsi böyük nailiyyət idi. Təəssüf ki, AXC-nin ömrü az oldu - cəmi 23 ay mövcudluqdan sonra 1920-ci il aprelin 28-də bolşevik istilası nəticəsində süqut etdi".

Millət vəkilinin sözlərinə görə, sonrakı mərhələdə respublikamız təxminən 70 il keçmiş SSRİ-nin tərkibində yaşasa da, xalqımız müstəqillik ideyalarını həmişə qəlbində yaşatdı və müstəqil dövlətini qurmağa can atdı. Belə tarixi fürsət isə ötən əsrin doxsanıncı illərinin əvvəlində yarandı. Ali Sovet 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etdi. Müstəqilliyimizin bərpasında və sonrakı mərhələdə onun qorunmasında Ulu Öndər Heydər Əliyevin müstəsna rolunu xüsusi qeyd etmək lazımdır. "Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir. Ulu Öndər hələ keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə milli mədəniyyətimizə, ədəbiyyatımıza, dilimizə sonsuz qayğı göstərməklə, soydaşlarımız arasında əlaqələri gücləndirməklə, sənayeni və kənd təsərrüfatını inkişaf etdirməklə, azərbaycanlı gənclərin keçmiş ittifaqın qabaqcıl ali məktəblərində mükəmməl təhsil almalarına şərait yaratmaqla gələcək müstəqilliyimizin iqtisadi və ideoloji təməllərini yaratmışdı. Tam qətiyyətlə deyə bilərik ki, ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanın müstəqilliyə gedən yolunun, qurtuluş tarixinin əsası da Heydər Əliyevin səyləri və cəsarəti sayəsində qədim diyarda - Naxçıvanda qoyulub. Muxtar respublikanın Ali Sovetinin 17 noyabr 1990-cı ildə Heydər Əliyevin sədrliyi ilə çağırılan sessiyasında Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar verildi. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı", - deyə deputat bildirib.

Samir Vəliyev deyib ki, tale elə gətirdi ki, həmişə Azərbaycanın müstəqilliyini arzulayan, bütün fəaliyyətini bu istiqamətdə quran Heydər Əliyev respublikamızın ötən əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə əldə etdiyi müstəqilliyini qorumaq missiyasını da özü yerinə yetirdi. Xaos, iqtisadi və siyasi böhran, vətəndaş qarşıdurması, torpaqlarımızın işğal altına düşməsi, cəmiyyətdəki sabahkı günə ümidsizlik müstəqilliyin ilk illərində ölkəmizi səciyyələndirən əsas cəhətlər idi. Bir tərəfdən, zorakılıq yolu ilə hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarının səriştəsizliyi nəticəsində ölkədə yaranan vətəndaş qarşıdurması, digər tərəfdən isə Ermənistanın respublikamıza qarşı elan olunmamış müharibə aparması, havadarlarının köməyi ilə torpaqlarımızı işğal etməsi Azərbaycanı, sözün əsl mənasında, ölüm, ya qalım dilemması ilə üz-üzə qoymuşdu. Vəziyyət o qədər ciddi hal almışdı ki, hətta müstəqilliyin itirilməsi təhlükəsi də real idi.

Müstəqilliyimizin, respublikanın gələcəyi üçün həmin böhranlı günlərdə xalq son ümidini sınanmış oğlu Heydər Əliyevə bağlayaraq təkidlə onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb edirdi. Azərbaycanın inkişaf salnaməsini yazan Ulu Öndər bu dəfə də xalqının yanında olmağa qərar verərək 1993-cü ilin iyununda Bakıya gəldi və çətin vəziyyətə düşmüş ölkəyə rəhbərlik etməyə başladı. Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində hadisələr tezliklə müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu və respublikamız sabitliyə, inkişafa istiqamətləndi. Xalq Cümhuriyyətinə hər zaman ehtiramla yanaşan Ulu Öndərimizin "28 May günü Azərbaycan xalqı üçün əziz gündür. Çünki 1918-ci ildə məhz 28 Mayda Azərbaycanın qabaqcıl insanları Azərbaycanın müstəqilliyi haqqında İstiqlal Bəyannaməsini qəbul ediblər və ondan sonra da Azərbaycan Xalq Cümhuriyyəti qurulubdur" fikirləri bu reallığı bir daha təsdiqləyir.

Samir Vəliyev qeyd edib ki, Ulu Öndərimizin əsasını qoyduğu siyasətin sonrakı mərhələdə Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilməsi Azərbaycanın müstəqilliyinin qorunmasına və getdikcə daha da möhkəmlənməsinə güclü təminatdır. Müqayisələr apardıqda aydın şəkildə görünür ki, bəzi ölkələr müstəqilliklərini de-yure bəyan etsələr də, de-fakto forpostdurlar, başqa dövlətlərin dəstəyi olmadan yaşamaq iqtidarında deyillər. Azərbaycanın müstəqilliyi isə real səciyyə daşıyır. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız zirvələrə yüksəlib. Ölkənin iqtisadi müstəqilliyi tam təmin edilib. Bu gün dünyada elə bir güc mərkəzi yoxdur ki, ölkəmizlə hansısa təzyiq dili ilə danışsın. Azərbaycan tam müstəqil siyasət aparır, dostlarını özü seçir, qərarlarını da Bakıda özü verir.

"Müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı ən böyük uğur isə öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsidir. Bu, müzəffər ordumuzun 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı şanlı qələbələr sayəsində mümkün oldu. Bu zəfərlər son 200 illik tariximizin ən böyük qələbələridir. Bütün bunlar, həmçinin "Böyük qayıdış" proqramının uğurla reallaşdırılması müstəqil Azərbaycanın gücünün və əzminin təntənəsidir!", - deyə deputat vurğulayıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# WUF13 bir çox ilkə imza atdı

**Son onilliklər, xüsusilə son illər Azərbaycan dünyanın diqqət mərkəzindədir. Möhtəşəm qələbələrimiz, düşmənin dağıtdığı yurd yerlərimizi yenidən quraraq cənnətə çevirmək gücümüz, ən mötəbər beynəlxalq tədbirlərə misli görünməyən yüksək səviyyədə evsahibliyi etməyimiz hamını heyrətə gətirir.**




COP29-dan sonra Azərbaycan WUF13-lə dünyaya səs saldı.Yeri gəlmişkən, elə bu iki böyük tədbirin arasındakı qısa zaman kəsiyinin özündə də ölkəmiz müxtəlif mövzulu bir çox beynəlxalq sessiya, konfrans, foruma evsahibliyi edib. Hamısı da uğurla keçib. Bir sözlə, Azərbaycan bu qəbildən olan tədbirlərin keçirilməsində elə zəngin təcrübə toplayıb ki, növbəti, yeni birinin də uğur qazanacağına əvvəlcədən heç bir şübhə yaranmır. WUF13-ün də yüksək səviyyədə keçəcəyinə əminlik var idi və belə də oldu!

Bu da bir həqiqətdir ki, Azərbaycanda keçirilən belə tədbirlərin əksəriyyəti hansısa yeniliklərlə yadda qalır. WUF13 də imza atdığı ilklərlə tarixə qovuşdu. O cümlədən forumun yekun sənədi və nəticəsi kimi qəbul edilən "Baku Call to Action"da ( "Bakı Fəaliyyətə Çağırış") dünyanın gündəmində olan bir sıra vacib məsələlər öz əksini tapdı.

176 ölkədən 58 mindən çox iştirakçısı olan və indiyədək keçirilən ən böyük Ümumdünya Şəhərsalma Forumu kimi tədbirin yüksək səviyyədə təşkilinə, göstərilən qonaqpərvərliyə və yaradılmış səmərəli dialoq mühitinə görə Azərbaycan dövlətinə və xalqına minnətdarlıq edildi.

Yekun sənəddə həmçinin vurğulanıb ki, Ümumdünya Şəhərsalma Forumunun tarixində ilk dəfə olaraq ev sahibi ölkənin təşəbbüsü ilə təşkil edilən Liderlər Sammitində 27 dövlət və hökumət başçısı iştirak edib. Forum çərçivəsində 150-dən çox nazir, 130-dan artıq şəhər başçısı, BMT-nin Baş katibinin müavini və bir sıra yüksəksəviyyəli rəsmilər təmsil olunublar. WUF13-ün əsas yenilikləri sırasında Bakı Urban Mükafatı, Biznes və İnnovasiya Hub-ı, WUF Akademiyası kampusu və Təcrübələr Hub-ı xüsusi yer tutub.

WUF13-ün bir özəlliyi də onda idi ki, qələbədən sonra yurd yerlərini yenidən tikib-quran bir ölkədə keçirilirdi. Təsadüfi deyil ki, bu forum çərçivəsində "Münaqişədənsonrakı şəhər yenidənqurması: Humanitar minatəmizləmənin kritik rolu" mövzusunda sessiya da təşkil edildi. Sessiyada postmünaqişə dövründə mina təhlükəsinin bərpa və yenidənqurma prosesinə təsiri, dayanıqlı şəhər inkişafı və əhalinin təhlükəsizliyinin təmin olunması məsələləri müzakirə olundu. Mina təhlükəsinin yalnız Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində bərpa prosesini ləngitdiyi, inkişaf imkanlarını məhdudlaşdırdığı və insanların təhlükəsizliyi üçün ciddi risk yaratdığı bildirildi. Qeyd edildi ki, Azərbaycan 2020-ci ildən etibarən humanitar minatəmizləmə istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirib. İndiyədək 270 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib, 250 mindən artıq mina və partlayıcı qurğu zərərsizləşdirilib. "Böyük qayıdış" proqramı çərçivəsində minatəmizləmə fəaliyyəti şəhərsalma, yenidənqurma və inkişaf proseslərinə tam şəkildə inteqrasiya edilib.

WUF13 tədbiri çərçivəsində "Urbisiddən dirçəlişə: Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında dayanıqlı bərpa, məskunlaşma və inkişaf" mövzusunda panel müzakirəsinin keçirilməsi də yerinə düşdü. Bu sessiyada işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma prosesi, dayanıqlı məskunlaşma, müasir şəhərsalma yanaşmaları və postmünaqişə dövründə şəhər inkişafı məsələləri müzakirə olundu. Qeyd edildi ki, regionda həyata keçirilən layihələr "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına uyğun şəkildə icra olunur. Yeni yaşayış məntəqələrində dayanıqlı infrastrukturun qurulması, "yaşıl enerji" həllərinin tətbiqi, rəqəmsal idarəetmə sistemləri, sosial obyektlərin inşası və əhalinin rahat yaşayışının təmin edilməsi istiqamətində geniş tədbirlər görülür.

WUF13-ün daha bir yeniliyi oldu. Belə ki, Azərbaycan hökuməti və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) dayanıqlı şəhər inkişafı sahəsində yeni qlobal mükafatın - Bakı Şəhərsalma Mükafatının (Baku Urban Award) rəsmi təqdimetmə mərasimi keçirildi. Qeyd edək ki, bu mükafat uzunmüddətli sosial, iqtisadi və ekoloji təsir potensialına malik praktik şəhər həllərinin beynəlxalq səviyyədə təşviqinə yönəlmiş qlobal platforma kimi formalaşdırılır.

Bakı Şəhər Mükafatı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının əsas qalıcı irsindən biri olacaq. Mükafat forum çərçivəsi ilə məhdudlaşmayaraq, qlobal şəhər gündəliyinin uzunmüddətli təşviqinə xidmət edən beynəlxalq mexanizm kimi nəzərdə tutulur.

Təşəbbüsün birləşdirilməsini nəzərdə tutduğu üç əsas istiqamət bunlardır: Birincisi - şəhərsalma mütəxəssisləri tərəfindən artıq tətbiq olunan praktik həllər. İkincisi - ekspert bilikləri və elmi əsaslandırılmış yanaşmalar. Üçüncüsü - uğurlu təcrübələrin milli və beynəlxalq siyasətə inteqrasiyası.

Bakı Şəhərsalma Mükafatının təsis olunması Azərbaycanın qlobal şəhərsalma və iqlim gündəliyinə uzunmüddətli sadiqliyinin növbəti təzahürüdür. Bu istiqamətdə həyata keçirilən təşəbbüslərə COP29-a evsahibliyi, "Dayanıqlı və Sağlam Şəhərlər üçün Multisektoral Fəaliyyət Yolları (MAP)" və "Bakı Davamlılıq Koalisiyası" təşəbbüslərinin irəli sürülməsi, UN-Habitat-ın "Hər kəs üçün münasib mənzil" üzrə Açıq Hökumətlərarası İşçi Qrupuna həmsədrlik , eləcə də WUF13-ə Bakının evsahibliyi etməsi daxildir.

Beləcə, bu dəfə də Bakı evsahibliyi etdiyi daha bir mötəbər tədbirin iştirakçılarını qəlblərindəki xoş təəssuratlarla yola saldı. Bu, axırıncı deyil, axarıncı bir tədbir idi. Azərbaycan, Bakı ev sahibi olaraq hələ çox belə tədbirə gələn qonaqların üzünə öz geniş qapılarını açacaq. Elə bir həftədən sonra burada beynəlxalq "Bakı Enerji Həftəsi" başlanacaq. Onun da uğurla keçəcəyinə heç bir şübhə yoxdur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# WUF13-ün tarixi zəfəri

## Azərbaycan gələcək forumlar üçün keçərli olacaq "Bakı standartları"nı formalaşdırdı

**Azərbaycan növbəti dəfə qlobal diplomatiyanın və innovativ ideyaların mərkəzinə çevrilərək, bəşəriyyətin gələcək inkişaf yollarının müzakirə edildiyi mühüm məkana çevrildi. 17-22 may tarixlərində paytaxt Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) miqyasına və gətirdiyi yeniliklərə görə bu platformanın 24 illik tarixinə ən parlaq səhifə kimi həkk olundu. COP29-un uğurlarından dərhal sonra belə nəhəng bir forumun ölkəmizə həvalə edilməsi Azərbaycanın dünyada etibarlı tərəfdaş və qlobal lider imicinin növbəti təsdiqi oldu.**

### Möhtəşəm təşkilatçılıq

WUF13 rəqəmlərin dili ilə desək, əsl rekordlar forumu idi. 176 ölkədən 58 mindən çox iştirakçını bir araya gətirən bu sessiya Ümumdünya Şəhərsalma Forumunun bu günədək keçirilmiş ən genişmiqyaslı tədbiri kimi tarixə düşdü. Forumun beynəlxalq siyasi çəkisini artıran əsas məqam isə ilk dəfə məhz Bakıda Azərbaycanın təşəbbüsü ilə keçirilən Liderlər Sammiti oldu. Burada 27 dövlət və hökumət başçısının, eləcə də 150-dən çox nazirin iştirakı Bakı platformasını qlobal qərarların qəbul edildiyi ən nüfuzlu məkana çevirdi.

BMT rəsmilərinin də qeyd etdiyi kimi, Azərbaycan və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) vahid bir komanda kimi hərəkət edərək, gələcək forumlar üçün keçərli olacaq "Bakı standartları"nı formalaşdırdı.

WUF13-ün rəsmi bağlanış mərasimi zamanı UN-Habitatın icraçı direktoru Anaklaudia Rossbax forumun rekord sayda iştirakçını bir araya gətirdiyini və güclü, vahid bir mesaj verdiyini qeyd etdi.

"Biz mənzil təminatının gələcəyi üçün həlledici bir məqamdayıq. Artıq hərəkət vaxtıdır. Dünya cüzi tərəqqidən sistemli transformasiyaya doğru addımlamalıdır. Bakıda verilən mesaj aydındır. Növbəti onillik sürətləndirilmiş icra, genişmiqyaslı fəaliyyət və insanların həyatında ölçüləbilən müsbət təsirlərlə xarakterizə olunmalıdır", - deyə A.Rossbax vurğuladı.

Mexiko şəhərinin beynəlxalq əlaqələr üzrə baş koordinatoru Maria del Rosario Lombera Gonzalez Bakının qonaqları böyük səxavət, istilik, əzəmət və heyranedici qətiyyətlə qarşıladığını bildirdi.

Göstərilən səylərin xüsusi təşəkkürə layiq olduğunu vurğulayan baş koordinator bu işin asan olmadığını, lakin Azərbaycan hökumətinin buna baxmayaraq onu nümunəvi şəkildə həyata keçirdiyini qeyd etdi.

Forumun ən mühüm missiyalarından biri də Azərbaycanın münaqişədən sonrakı bərpa və quruculuq təcrübəsinin beynəlxalq ictimaiyyətə təqdim edilməsi oldu.

İştirakçılar Azərbaycanın öz daxili resursları hesabına Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi genişmiqyaslı layihələrlə - urbisid və ekosidə məruz qalmış şəhər və yüzlərlə kəndin yenidən inşa edilməsi prosesi ilə yaxından tanış oldular. "Böyük qayıdış" proqramı çərçivəsində tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, dayanıqlı infrastruktur və ətraf mühitin qorunmasına verilən üstünlük Azərbaycanın bu sahədə qlobal nümunə yaratdığını göstərdi. Bu təcrübə forumun yekun sənədi olan "Bakı Fəaliyyətə Çağırış" (Baku Call to Action) sənədində də öz əksini taparaq, münaqişələrin şəhərsalmaya və insan həyatına təsirlərinin aradan qaldırılması üçün mühüm beynəlxalq istinad nöqtəsinə çevrildi.

### Qalıcı irs

Azərbaycan WUF13-ə təkcə yüksəksəviyyəli evsahibliyi etmədi, həm də dünyada şəhərsalma sahəsinə qalıcı irs miras qoydu. Ölkəmizin təşəbbüsü ilə təsis edilən Bakı Şəhər Mükafatı qlobal şəhərsalma gündəliyinin təşviqinə sadiqliyimizin ən parlaq təzahürü oldu. Bununla yanaşı, forum çərçivəsində fəaliyyət göstərən Biznes və İnnovasiya Hub-ı, WUF Akademiyası kimi platformalar şəhərlərin gələcəyini elmi və texnoloji əsaslarla müzakirə etmək üçün yeni imkanlar açdı.

WUF13-ün rəsmi bağlanış mərasimindəki çıxışında, Bakıda sözügedən forumun sessiyasına evsahibliyində göstərdiyi qonaqpərvərliyə və liderliyə görə Azərbaycan hökumətinə, xalqına ən dərin minnətdarlığını bildirən Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini Amina Mohammedin dedi: "Azərbaycan 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan edərək, yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaları inkişaf etdirərək, həmçinin çoxəsrlik ənənələrə hörmətlə yanaşaraq, urbanizmi qlobal müstəviyə qaldırıb".

Qeyd edək ki, WUF13-ün yekun nəticələrinin və "Bakı Fəaliyyətə Çağırış" sənədinin 2026-cı ilin iyul ayında Nyu-Yorkda keçiriləcək BMT Baş Assambleyasının Yeni Şəhər Gündəliyinə dair yüksəksəviyyəli aralıq qiymətləndirmə iclasına da mühüm töhfə verəcəyi gözlənilir.

Bir sözlə, WUF13-ün yekunları göstərir ki, Bakı bu gün təkcə regional mərkəz deyil, həm də bəşəriyyəti narahat edən problemlərə innovativ həllər təklif edən strateji tərəfdaşdır. Azərbaycanın göstərdiyi bu nümunəvi liderlik ölkəmizin beynəlxalq nüfuzunu ən yüksək zirvəyə daşıyaraq, sülh, quruculuq və dayanıqlı inkişafın simvoluna çevrildi. Eyni zamanda bu mütərəqqi yanaşma və qonaqpərvərlik Bakını həm də humanitar və şəhərsalma mərkəzi kimi dünyaya tanıtdı.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Könüllü Liderlərin İnkişaf Konsepsiyası" Proqramının açılış mərasimi olub

**Mayın 25-də könüllülük fəaliyyətinin inkişafına və gənc liderlərin formalaşdırılmasına töhfə vermək məqsədilə Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı (AKTİ) tərəfindən hazırlanmış "Könüllü Liderlərin İnkişaf Konsepsiyası" (KLİK) Proqramının açılış mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, Bakı Konqres Mərkəzində təşkil olunan açılış mərasimi Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra proqramın təqdimat videoçarxı nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən AKTİ-nin sədri Vüqar Əliyev proqramın əsas məqsədləri, könüllülük fəaliyyətinin cəmiyyət üçün əhəmiyyəti və könüllü gənclərin liderlik bacarıqlarının inkişafındakı rolu barədə danışıb.

Rəsmi çıxışlar zamanı Gənclər Fondunun Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri Nail Şükürov və Milli Məclisin deputatı Vüqar İskəndərov proqramın könüllü gənclərin şəxsi və peşəkar inkişafında oynadığı mühüm roldan bəhs edərək, bu kimi təşəbbüslərin könüllülərin liderlik bacarıqlarının formalaşdırılması, ictimai fəallığının artırılması və gələcək fəaliyyətlərində uğurlu karyera istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıblar. Çıxışlarda eyni zamanda könüllülük fəaliyyətinin cəmiyyətin inkişafına verdiyi töhfə və könüllülərin gənclər siyasətindəki aktiv iştirakının önəmi qeyd olunub.

Daha sonra "KLİK iştirakçılarının proqramla bağlı təəssüratları" adlı videoçarx təqdim olunub.

Tədbir çərçivəsində proqram iştirakçıları Təranə Şahbazova və Elşən Soltanzadə çıxış edərək layihənin müsahibə və seçim mərhələsində qazandıqları təcrübə, eləcə də proqramın onlar üçün yaratdığı inkişaf imkanları barədə fikirlərini bölüşüblər.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı

**1. Qısa xülasə**

"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə əlaqədar hazırlanmışdır.

Dövlət Proqramı 2026-2030-cu illərdə aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsini, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini, aqrar sahədə dəyər zəncirlərinin inkişaf etdirilməsini, fermerlərin aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur.

Bu çərçivədə Dövlət Proqramında aqrar sahənin resurs təminatının gücləndirilməsi, su və torpaq ehtiyatlarından səmərəli istifadənin təşviqi, aqrar təhsil, elm və innovasiya sahələrinin inkişafı, aqrar-emal və logistika infrastrukturunun genişləndirilməsi, subsidiya və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, rəqəmsallaşma proseslərinin dəstəklənməsi, habelə balıqçılıq və akvakultura sahəsində institusional və istehsal potensialının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi müəyyən edilmişdir.

Dövlət Proqramının icrası nəticəsində aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixrac potensialının yüksəldilməsi, müasir və intensiv istehsal texnologiyalarının tətbiqinin genişləndirilməsi, kənd yerlərində dayanıqlı məşğulluq və gəlir imkanlarının artırılması, ərzaq təhlükəsizliyinin və ekoloji dayanıqlılığın möhkəmləndirilməsi, eləcə də kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin innovativ, yüksək məhsuldarlığa əsaslanan rəqabətqabiliyyətli inkişaf modelinə keçidinin təmin edilməsi nəzərdə tutulur.

**2. Qlobal trendlər**

Dünyada əhalinin sayının artması, iqlim dəyişiklikləri, urbanizasiya proseslərinin sürətlənməsi, təbii resurslara təzyiqin və qlobal ticarətdə qeyri-müəyyənliklərin artması aqrar və ərzaq sistemləri üzrə mövcud çağırışların daha da dərinləşməsinə səbəb olmuşdur.

Qabaqcıl beynəlxalq təcrübə göstərir ki, aqrar sahədə dayanıqlı inkişafın təmin olunması, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və rəqabətqabiliyyətliliyin artırılması məqsədilə məhsuldarlığın artırılması, rəqəmsal transformasiya, dəyər zənciri yanaşmasının və iqlimə uyğun və resursqoruyucu texnologiyaların tətbiqi əsas istiqamətlərə çevrilmişdir.

Aşağıdakı beynəlxalq meyillər aqrar və ərzaq sistemlərinin transformasiyası üzrə müasir yanaşmaların əhəmiyyətini göstərir:

dəyər zənciri yanaşmasının genişlənməsi Niderland, Danimarka və Almaniya kimi ölkələrdə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışının vahid dəyər zənciri əsasında təşkili əlavə dəyərin və ixrac potensialının artırılmasının əsas amillərindən biri hesab olunur;

intensiv və yüksək məhsuldarlığa əsaslanan istehsal modelinə keçid İsrail və ABŞ kimi ölkələrdə innovativ texnologiyaların və resursqoruyucu yanaşmaların tətbiqi məhsuldarlığın yüksəldilməsini təmin edir;

rəqəmsal və "ağıllı kənd təsərrüfatı" həllərinin tətbiqi ABŞ, Yaponiya və Cənubi Koreyada sensor sistemləri, aqrodronlar, peyk müşahidə texnologiyaları və süni intellekt əsaslı idarəetmə həlləri aqrar sektorda geniş tətbiq olunur;

su və torpaq resurslarının dayanıqlı idarə olunması və aşağıkarbonlu istehsal modelinə keçid İsrail, Avstraliya və Avropa İttifaqı ölkələrində suvarma səmərəliliyinin artırılması, torpaq münbitliyinin qorunması, karbon emissiyalarının azaldılması və ekoloji təmiz istehsal metodlarının prioritet istiqamətlərdən birinə çevrilmişdir;

balıqçılıq və akvakultura sektorunun inkişafı Norveç, Çin və Vyetnamda intensiv akvakultura texnologiyalarının tətbiqi və emal-logistika infrastrukturunun inkişafı hesabına balıq məhsulları istehsalı artırılır.

BMT-nin proqnozlarına görə dünyada əhalinin sayının 2030-cu ildə 8,5 milyard nəfərə, 2050-ci ildə isə 9,7 milyard nəfərə çatacağı gözlənilir. Bu səbəbdən qlobal ərzaq tələbatının qarşılanması məqsədilə 2050-ci ilədək ərzaq istehsalının hazırki səviyyə ilə müqayisədə təxminən 50 faiz artırılması tələb olunur.

Bu baxımdan, FAO-nun yanaşmaları və qlobal dayanıqlı inkişaf prinsipləri məhsuldarlığın artırılmasını, təbii resursların qorunmasını, ərzaq təhlükəsizliyinin gücləndirilməsini, iqlim dəyişikliklərinə uyğunlaşma və kənd yerlərində dayanıqlı gəlir və məşğulluq imkanlarının genişləndirilməsini aqrar siyasətin əsas prioritetləri kimi müəyyən edir.

**3. Mövcud vəziyyətin təhlili**

2015-2025-ci illərdə kənd təsərrüfatı, balıqçılıq və aqrar-emal sahələrində davamlı inkişaf müşahidə olunmuşdur. Bu dövrdə kənd təsərrüfatı məhsulları istehsalı real olaraq 37,8 faiz artmış, o cümlədən bitkiçilik məhsulları istehsalı 48,2 faiz, heyvandarlıq məhsulları istehsalı isə 29,6 faiz yüksəlmişdir. Balıqçılıq məhsullarının istehsalı 2,7 dəfə artmışdır. Qeyd olunan dövr ərzində aqrar-emal sənayesində yüksək artım qeydə alınmışdır. Xüsusilə qida, içki, tütün və toxuculuq sənayesində istehsal həcmləri əhəmiyyətli dərəcədə artmışdır.

Aqrar sahədə həyata keçirilmiş dövlət dəstəyi tədbirləri nəticəsində pambıqçılıq, tütünçülük, üzümçülük və şərabçılıq kimi ənənəvi sahələrdə istehsal və ixrac potensialı artmışdır. 2015-2025-ci illərdə ərzaq məhsullarının və içkilərin ixracı təxminən 62,8 faiz yüksəlmişdir. Eyni zamanda bir sıra əsas məhsullar üzrə özünütəminetmə səviyyəsi yaxşılaşmış, meyvə-tərəvəz və yumurta üzrə tam özünütəminetmə səviyyəsinə nail olunmuşdur. Ət, süd, balıq və kartof məhsulları üzrə də özünütəminetmə səviyyəsində müsbət dinamika müşahidə olunmuşdur.

Son illərdə aqroparkların yaradılması, iri təsərrüfatçılıq modelinin inkişafı və kənd təsərrüfatında kooperasiya mexanizmlərinin təşviqi nəticəsində müasir texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması və ixracyönümlü istehsal imkanları genişlənmişdir. Aqrar sahədə istehsal, emal və logistika zəncirləri arasında inteqrasiyanın gücləndirilməsi əlavə dəyər yaradan fəaliyyətin inkişafı üçün şərait yaratmışdır.

Ərzaq təhlükəsizliyinin və aqrar infrastrukturun gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Regionlarda ümumi tutumu 400 min ton olan soyuducu anbarlar, 1,9 milyon ton tutuma malik taxıl elevatorları və logistika infrastrukturu yaradılmış, meliorasiya tədbirləri nəticəsində 483 min hektar sahədə su təminatı yaxşılaşdırılmış, 204 min hektar suvarılan torpaq sahəsi istifadəyə verilmişdir. Bununla yanaşı, müasir suvarma sistemlərinin tətbiqi genişləndirilmişdir.

Fermerlərin istehsal vasitələrinə çıxış imkanlarının artırılması məqsədilə kənd təsərrüfatı texnikalarının lizinq mexanizmləri genişləndirilmiş və 2005-2025-ci illərdə ümumilikdə 96 mindən çox kənd təsərrüfatı texnikası lizinqə verilmişdir. Gübrə və pestisidlərlə təminat səviyyəsinin yüksəldilməsi, eləcə də yerli gübrə istehsalının inkişaf etdirilməsi aqrar istehsalın dayanıqlılığının gücləndirilməsinə töhfə vermişdir.

Son illərdə aqrar sahədə institusional və texnoloji transformasiya prosesləri sürətləndirilmişdir. "Elektron kənd təsərrüfatı" informasiya sisteminin (EKTİS) tətbiqi sahəsi genişləndirilmiş, subsidiyaların verilməsi tam rəqəmsallaşdırılmışdır. Aqrar sığorta sahəsində dövlət-özəl tərəfdaşlığı modelinə əsaslanan yeni idarəetmə mexanizmi formalaşdırılmış, aqrar ixtisaslar üzrə ali təhsil alanların sayı artmışdır. Eyni zamanda, ağıllı istixanalar, sensor sistemləri və aqrodronlar kimi innovativ texnologiyaların tətbiqi genişlənməyə başlamışdır.

Bununla belə, aqrar və ərzaq sistemlərinin uzunmüddətli dayanıqlı inkişafı baxımından bir sıra çağırışlar aktuallığını qoruyur. İqlim dəyişikliklərinin təsirinin güclənməsi və su resursları üzrə təzyiqlərin artması resurslardan daha səmərəli istifadəni, iqlimə davamlı aqrar istehsal modelinə keçidi və məhsuldarlığın yüksəldilməsini zəruri edir. Eyni zamanda torpaq sahələrinin parçalanmış strukturu və kiçik təsərrüfatların üstünlük təşkil etməsi müasir texnologiyaların tətbiqini, istehsalın səmərəliliyinin yüksəldilməsini və dəyər zənciri üzrə inteqrasiyanı məhdudlaşdıran əsas amillərdən biri olaraq qalır.

Qlobal ərzaq bazarlarında qeyri-sabitlik və təchizat zəncirlərində risklərin artması daxili ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini strateji zərurətə çevirmişdir. Bununla yanaşı, aqrar istehsalda yüksək əlavə dəyər yaradan emal və ixracyönümlü fəaliyyətin stimullaşdırılması, fermerlərin maliyyə resurslarına və müasir texnologiyalara çıxışı imkanlarının artırılması, aqrar-elmi tədqiqat və innovasiya potensialının gücləndirilməsi, eləcə də kənd yerlərində dayanıqlı məşğulluq imkanlarının genişləndirilməsi qarşıdakı dövrün əsas prioritetləri sırasında yer alır.

Bu baxımdan, yüksək məhsuldarlığa malik, əlavə dəyər və ixracyönümlü inkişaf modelinə keçidin təmin edilməsi zəruridir. Aqrar sahədə inkişafın əsas mənbəyi məhsuldarlıq, texnologiya və innovasiya əsaslı intensiv inkişaf olacaqdır. Bu məqsədlə kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrində resurslardan səmərəli istifadəyə əsaslanan müasir və iqlimə davamlı istehsal modelinin formalaşdırılması, aqrar-emal və logistika infrastrukturunun inkişaf etdirilməsi, eləcə də ərzaq təhlükəsizliyinin və ixrac potensialının gücləndirilməsi istiqamətində kompleks və əlaqələndirilmiş dövlət siyasətinin davam etdirilməsi zəruridir.

**4. Hədəf göstəriciləri**

| Əsas hədəf indikatorları | Ölçü vahidi | Baza (2025-ci il) | Hədəf (2026-2030-cu illər üzrə ortaillik artım) |
|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılan ümumi daxili məhsulun artımı | % | 0,9 | azı 2,0 |
| Kənd təsərrüfatı, balıqçılıq və emal məhsullarının ixracının həcmi | mlrd. ABŞ dolları | 1,5 | 6 |

| Alt-hədəf indikatorları | Ölçü vahidi | Baza (2025-ci il) | Hədəf (2030-cu il) |
|---|---|---|---|
| **Bitkiçilik** | | | |
| Müasir suvarma sistemləri tətbiq olunan sahələr | min ha | 130 | ~300 |
| İntensiv meyvə bağlarının sahəsi | min ha | 50 | ~70 |
| İstixana komplekslərinin sahəsi | ha | 1 500 | ~2 000 |
| İxtisaslaşmış rayonlar üzrə buğdanın məhsuldarlığı | sent/ha | 40,3 | ~50 |
| İxtisaslaşmış rayonlar üzrə pambığın məhsuldarlığı | sent/ha | 36,1 | ~50 |
| Konsolidasiya tətbiq edilən sahə (pilot olaraq) | min ha | - | ~20 |
| Kənd təsərrüfatı təyinatlı soyuducu anbarların həcmi | min ton | 400 | ~500 |
| Taxıl silolarının həcmi | min ton | 1 900 | ~2 050 |
| Kiçik şərabçılıq təsərrüfatlarının sayı | ədəd | 5 | ~20 |
| **Heyvandarlıq** | | | |
| Cins heyvanların (iribuynuzlu) ümumi sürüdə payı | % | 2,5 | ~10 |
| İxtisaslaşmış aqropark və yarımintensiv təsərrüfatlarda xırdabuynuzlu heyvanların sayının artırılması | min baş | - | ~670 |
| Kəsilmiş çəkidə mal əti istehsalında artım | % | - | azı 20 |
| Süd istehsalında artım | % | - | azı 10 |
| Kəsilmiş çəkidə qoyun əti istehsalında artım | % | - | azı 9 |
| Quş əti istehsalında artım | % | - | azı 30 |
| Yumurta istehsalında artım | % | - | ~27 |
| Akvakultura sahəsi üzrə istehsal həcmi | ton | 3 400 | ~7 700 |
| **Digər** | | | |
| Aqrar sahədə ixtisaslar üzrə ikili diplom proqramları ilə məzun olanların ümumi sayı | nəfər | 46 | azı 500 |
| Aqrar sığorta xidmətləri ilə təmin edilən sahələr | min ha | 386 | azı 1 000 |
| Aqrar sığorta xidmətləri ilə təmin edilən heyvanların sayı | min baş | 6,9 | ~100 |
| Rəqəmsal xidmətlər vasitəsilə göstərilən aqrar dövlət dəstəyi xidmətlərinin payı | % | 55 | 100 |

**5. Dövlət Proqramının məqsədləri**

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. aqrar sahənin dayanıqlı və rəqabətqabiliyyətli inkişafının təmin edilməsi;

5.1.2. ərzaq təhlükəsizliyinin gücləndirilməsi və daxili istehsal potensialının artırılması;

5.1.3. aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılması;

5.1.4. aqrar sahədə innovasiya, rəqəmsallaşma və insan kapitalının inkişaf etdirilməsi;

5.1.5. balıqçılıq və akvakultura sahələrinin inkişaf etdirilməsi.

**6. Dövlət Proqramının prioritet istiqamətləri**

6.1. Dövlət Proqramında aşağıdakı prioritet istiqamətlər müəyyən edilmişdir:

6.1.1. aqrar sahədə resurs səmərəliliyinə, iqlim dayanıqlılığına və ekoloji tarazlığa əsaslanan inkişaf modelinin formalaşdırılması;

6.1.2. aqrar xidmətlərə, maliyyə resurslarına və innovativ texnologiyalara çıxış imkanlarının genişləndirilməsi;

6.1.3. dəyər zənciri inteqrasiyasına əsaslanan ixracyönümlü aqrobiznesin inkişaf etdirilməsi;

6.1.4. aqrar sahədə müasir idarəetmə, standartlaşdırma və insan kapitalının inkişaf etdirilməsi;

6.1.5. balıqçılıq və akvakultura sahəsində dayanıqlı istehsal və bazar potensialının gücləndirilməsi.

6.2. Bu prioritet istiqamətlər üzrə məqsədlərə aşağıdakı tədbirlər vasitəsilə nail olunması nəzərdə tutulur:

**6.2.1. torpaq resurslarının qorunması və ondan səmərəli istifadə olunması:**

**6.2.1.1. əsaslandırma:**

Azərbaycan Respublikası məhdud torpaq ehtiyatlarına malik ölkələrdən biri olduğundan kənd təsərrüfatı təyinatlı torpaqların qorunması və ondan səmərəli istifadənin təmin edilməsi aqrar istehsalın dayanıqlı inkişafı baxımından strateji əhəmiyyət daşıyır.

Eyni zamanda torpaq ehtiyatlarının bir hissəsi müxtəlif dərəcədə deqradasiyaya məruz qalmış, torpaq sahələrinin parçalanmış strukturu və münbitliyin azalması torpaqdan istifadənin səmərəliliyinə mənfi təsir göstərmişdir;

**6.2.1.2. görüləcək tədbirlər:**

6.2.1.2.1. kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin qorunması məqsədilə interaktiv nəzarət mexanizminin tətbiqi;

6.2.1.2.2. kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin pozulması hallarında bərpayönümlü (rekultivasiya) tədbirlərin görülməsi mexanizminin yaradılması və tətbiqi;

6.2.1.2.3. torpaqların konsolidasiyası mexanizminin yaradılması və pilot layihə olaraq tətbiqi;

6.2.1.2.4. əkin sahələrinin aqrokimyəvi göstəricilər əsasında xəritələşdirilməsi;

6.2.1.2.5. torpaq analiz sisteminin müasirləşdirilməsi;

6.2.1.2.6. örüş və otlaq sahələrinin effektiv idarə edilməsi sisteminin yaradılması və münbitliyinin bərpası;

**6.2.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.1.3.1. kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin qorunmasına nəzarət mexanizminin tətbiqinə başlanılması;

6.2.1.3.2. bərpayönümlü (rekultivasiya) tədbirlərin görülməsi nəticəsində torpaqların münbitliyinin artırılması;

6.2.1.3.3. seçilmiş pilot rayonlarda torpaqların konsolidasiyası və suvarma şəbəkələrinin qurulması üzrə yeni modelin tətbiqi;

6.2.1.3.4. ölkə üzrə əkin sahələrinin aqrokimyəvi xəritələrinin hazırlanması;

6.2.1.3.5. ümumilikdə 11 dövlət laboratoriyasının texniki müasirləşdirilməsininbaşa çatdırılması;

6.2.1.3.6. ümumilikdə 480 min ha örüş və otlaq sahəsinin münbitliyinin yaxşılaşdırılması;

**6.2.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Torpaq resurslarının idarə olunması sahəsində aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın təşkili, normativ-hüquqi bazanın təkmilləşdirilməsi və inzibati prosedurların formalaşdırılması prosesində gecikmələrlə bağlı risklər mövcuddur.

Bu risklərin azaldılması məqsədilə aidiyyəti qurumların nümayəndələrindən ibarət işçi qrupların yaradılması, məlumat mübadiləsinin təkmilləşdirilməsi və rəqəmsal monitorinq alətlərinin tətbiqi nəzərdə tutulur.

**6.2.2. Suvarma suyundan səmərəli istifadə mexanizmlərinin inkişaf etdirilməsi:**

**6.2.2.1. əsaslandırma:**

Azərbaycan Respublikası məhdud su ehtiyatlarına malik ölkələrdən biri olduğundan suvarma suyundan səmərəli istifadə aqrar istehsalın dayanıqlı inkişafı və məhsuldarlığın artırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Əkin sahələrinin böyük hissəsinin suvarılan olması, su ehtiyatları üzrə təzyiqlərin artması və iqlim dəyişikliklərinin təsirləri su təminatının yaxşılaşdırılmasını və suvarma sistemlərinin təkmilləşdirilməsini zəruri edir.

Eyni zamanda suvarma sistemlərində yüksək su itkiləri, təsərrüfatdaxili şəbəkələrin köhnəlməsi və müasir suvarma texnologiyalarının tətbiq səviyyəsinin məhdud olması su ehtiyatlarından istifadənin səmərəliliyinə mənfi təsir göstərir;

**6.2.2.2. görüləcək tədbirlər:**

6.2.2.2.1. müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi;

6.2.2.2.2. suvarma suyunun keyfiyyət monitorinqi və idarəetmə sisteminin yaradılması;

6.2.2.2.3. suvarma suyunun və təsərrüfatdaxili suvarma şəbəkəsinin idarə edilməsi üzrə institusional potensialının gücləndirilməsi;

**6.2.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.2.3.1. ölkə üzrə əkin sahələrinin 300 min hektarında müasir suvarma sistemlərinin tətbiqi;

6.2.2.3.2. əsas irriqasiya və meliorasiya şəbəkələri üzrə su keyfiyyəti və monitorinqi sisteminin tətbiqi;

6.2.2.3.3. su resurslarını səmərəli idarəetmə sisteminin yaradılması;

**6.2.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Meliorasiya və irriqasiya infrastrukturunun yenilənməsi üçün maliyyə resurslarının məhdudluğu, təsərrüfatlara qədər olan su və elektrik infrastrukturunun çəkilməsində gecikmələr və müasir suvarma texnologiyalarının tətbiqi üzrə çətinliklər risk olaraq qalır.

Bu risklərin azaldılması məqsədilə maliyyə resurslarının prioritet istiqamətlər üzrə səmərəli bölgüsü, təsərrüfatdaxili suvarma şəbəkələrinin inkişafı, müasir suvarma texnologiyalarının tətbiqi ilə bağlı maarifləndirmə tədbirlərinin genişləndirilməsi və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulur.

**6.2.3. Ətraf mühitin qorunması və iqlim dəyişikliklərinə dayanıqlı aqrar istehsal modelinin gücləndirilməsi:**

**6.2.3.1. əsaslandırma:**

Kənd təsərrüfatı fəaliyyəti ətraf mühitə və təbii resurslara birbaşa təsir göstərdiyindən aqrar sahədə dayanıqlı inkişaf prinsiplərinin tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Eyni zamanda iqlim dəyişiklikləri, temperatur artımı, quraqlıq və təbii resurslar üzrə təzyiqlərin artması da öz növbəsində aqrar istehsalın dayanıqlılığına mənfi təsir göstərir;

**6.2.3.2. görüləcək tədbirlər:**

6.2.3.2.1. kənd təsərrüfatında bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi;

6.2.3.2.2. aqrar sektorda istilik effekti yaradan emissiyaların monitorinqi və hesabatlıq sisteminin yaradılması;

6.2.3.2.3. ölkədə ənənəvi ərzaq və kənd təsərrüfatı sistemlərinin dayanıqlılığının təmin edilməsi üzrə pilot layihənin həyata keçirilməsi;

6.2.3.2.4. iqlim dəyişikliklərinə həssas regionlar üzrə erkən xəbərdarlıq sisteminin qurulması;

**6.2.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.3.3.1. bərpa olunan mənbələrdən istifadə edən təsərrüfatların sayının 15-ə çatdırılması;

6.2.3.3.2. aqrar sektorda istilik effekti yaradan emissiyaların monitorinqi və hesabatlıq sisteminin formalaşması;

6.2.3.3.3. ölkə üzrə azı 3 Milli Əhəmiyyətli Aqrar İrs Sistemi (NİAHS) məntəqəsinin müəyyən edilməsi;

6.2.3.3.4. prioritetləşmiş regionlar üzrə erkən xəbərdarlıq sistemlərinin fəaliyyətinin təmin edilməsi;

**6.2.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Aqrar sahədə dayanıqlı inkişaf mexanizmlərinin tətbiqi zamanı institusional və maliyyə çətinliklərinin yaranması riski mövcuddur.

Bu risklərin azaldılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın gücləndirilməsi, fəaliyyət ardıcıllığının müəyyən edilməsi, beynəlxalq təcrübənin tətbiqi və yaşıl texnologiyaların təşviqi tədbirlərinin genişləndirilməsi nəzərdə tutulur.

**6.2.4. Toxumçuluq və damazlıq potensialının inkişaf etdirilməsi:**

**6.2.4.1. əsaslandırma:**

Toxumçuluq və damazlıq kənd təsərrüfatında məhsuldarlığın, keyfiyyət göstəricilərinin və rəqabətqabiliyyətliliyin artırılması baxımından böyük əhəmiyyət daşıyır. Hazırda toxumçuluq sahəsində normativ-hüquqi bazanın və keyfiyyətə nəzarət mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılmasına, damazlıq işi üzrə isə uçot, seleksiya və idarəetmə sistemlərinin təkmilləşdirilməsinə ehtiyac vardır.

Eyni zamanda seleksiya-damazlıq proqramlarının məhdud tətbiqi, damazlıq heyvanların uçot sisteminin tam formalaşmaması və peşəkar mütəxəssis potensialının aşağı olması sahənin inkişafını məhdudlaşdıran əsas amillərdəndir;

**6.2.4.2. görüləcək tədbirlər:**

6.2.4.2.1. toxumçuluğun (o cümlədən tingçiliyin) inkişafı üzrə hüquqi, institusional və dəstək tədbirlərinin hazırlanması və icra edilməsi;

6.2.4.2.2. toxumçuluq (o cümlədən tingçilik) sahəsində keyfiyyətə nəzarət sisteminin gücləndirilməsi;

6.2.4.2.3. bitkiçilik sahəsində seleksiya nailiyyətlərinin uçotu və onlara nəzarət sisteminin gücləndirilməsi, seleksiya proqramlarının icrası;

6.2.4.2.4. heyvandarlıq və balıqçılıq sahəsində seleksiya və damazlıq proqramlarının icrası;

6.2.4.2.5. yerli heyvan cinsləri və bitki növlərinin genetik ehtiyatları üzrə təkmil genetik materiallar banklarının (kolleksiyaların) yaradılması;

6.2.4.2.6. milli atçılıq irsinin qorunması;

**6.2.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.4.3.1. idxal olunan toxumlara dövlət nəzarətinin həyata keçirilməsi;

6.2.4.3.2. toxum istehsalının artırılması, bu sahədə özünütəminatın yaxşılaşdırılması;

6.2.4.3.3. toxumçuluq sahəsində qurulmuş mütərəqqi sistem vasitəsilə keyfiyyətə və dövriyyəyə nəzarətin təmin edilməsi;

6.2.4.3.4. seleksiya nailiyyətlərinin dövlət reyestrinin aparılması, müəlliflikvə patent hüquqlarının qorunması ilə bağlı təkmil və funksional sistemin formalaşdırılması, seleksiya proqramlarının müasir metodlar tətbiq edilməklə həyata keçirilməsi;

6.2.4.3.5. heyvandarlıq və balıqçılıq sahəsində müasir metodlara əsaslanan seleksiya və damazlıq proqramlarının həyata keçirilməsi;

6.2.4.3.6. ölkədə mövcud olan, xüsusilə də itmək təhlükəsi olan aborigen heyvan cinsləri və bitki növləri üzrə genetik materialların banklarının (kolleksiyaların) və bununla bağlı məlumat bazalarının yaradılması;

6.2.4.3.7. cins atların genetik analizlərinin aparılması, işğaldan azad edilmiş ərazilərdə atçılıq zavodunun yaradılması;

**6.2.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Toxumçuluq və damazlıq sahələrinin inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi zamanı peşəkar mütəxəssis potensialının məhdudluğu və institusional çatışmazlıqlar risk olaraq qalır.

Bu risklərin azaldılması məqsədilə beynəlxalq təşkilatlarla, elmi-tədqiqat institutları və aidiyyəti tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi, mütəxəssis hazırlığı proqramlarının gücləndirilməsi və müasir idarəetmə təcrübələrinin tətbiqi nəzərdə tutulur.

**6.2.5. Baytarlıq və fitosanitar xidmətlər sisteminin gücləndirilməsi:**

**6.2.5.1. əsaslandırma:**

Baytarlıq və fitosanitar xidmətləri kənd təsərrüfatında məhsuldarlığın, ərzaq təhlükəsizliyinin və ixrac potensialının təmin olunmasında mühüm rol oynayır. Son illərdə bu sahələrdə laboratoriya infrastrukturu yenilənmiş, institusional potensialın gücləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, heyvan sağlamlığı və bitki mühafizəsi üzrə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, baytarlıq və fitosanitar xidmətlərə çıxış imkanlarının artırılması, zərərli orqanizmlərin erkən aşkarlanması və rəqəmsal monitorinq sistemlərinin tətbiqinin genişləndirilməsi, eləcə də heyvanların dəqiq uçotunun aparılması zəruridir;

**6.2.5.2. görüləcək tədbirlər:**

6.2.5.2.1. heyvandarlıq sahəsində normativ-hüquqi aktların yenilənməsi;

6.2.5.2.2. heyvan sağlamlığı üzrə göstərilən dövlət xidmətlərinin, eləcə də baytarlıq preparatları ilə təminat, habelə xəstə heyvanların emal və utilizasiya infrastrukturunun inkişaf etdirilməsi;

6.2.5.2.3. bitkiçilik sahəsində zərərli orqanizmlərin aşkarlanması sisteminin tətbiqi;

6.2.5.2.4. inteqrir bitki mühafizə tədbirlərindən istifadənin genişləndirilməsi;

6.2.5.2.5. bitki mühafizə və fumiqasiya (zərərsizləşdirmə) işlərinin infrastruktur təminatının yaxşılaşdırılması;

6.2.5.2.6. ölkə üzrə bütün iribuynuzlu və xırdabuynuzlu heyvanların dövlət hesabına birdəfəlik identifikasiyasının təşkili və elektron uçotunun aparılması;

**6.2.5.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.5.3.1. ölkədə heyvandarlıq və heyvan sağlamlığı üzrə beynəlxalq standartlara uyğun normativ-hüquqi bazanın və texniki tənzimləmə sisteminin tətbiqi;

6.2.5.3.2. heyvan xəstəliklərinin monitorinqi və vaksin izlənməsi üzrə rəqəmsal sistemin formalaşdırılması və baytarlıq xidmətlərinə əlçatanlığın artırılması;

6.2.5.3.3. beynəlxalq təcrübə nəzərə alınmaqla, qurulmuş xəbərdarlıq və monitorinq sisteminin məlumatları əsasında zərərvericilər və xəstəliklər barədə vaxtında proqnoz verilməsi;

6.2.5.3.4. ölkə üzrə inteqrir mübarizə üsullarını tətbiq edən fermerlərin sayının artması;

6.2.5.3.5. bitki mühafizə və fumiqasiya (zərərsizləşdirmə) işinin icrasının və monitorinqinin təmin edilməsi üçün proqram təminatının və müvafiq infrastrukturun qurulması;

6.2.5.3.6. iribuynuzlu və xırdabuynuzlu heyvanların identifikasiyasının yekunlaşdırılması;

6.2.5.3.7. müvafiq sahədə beynəlxalq standartlara uyğun laboratoriya şəbəkəsinin formalaşdırılması;

**6.2.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Baytarlıq və fitosanitar xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılması, rəqəmsal nəzarət sistemlərinin tətbiqi və xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi zamanı ixtisaslı kadr çatışmazlığı və institusional koordinasiya problemləri yarana bilər.

Bu risklərin azaldılması məqsədilə prioritet sahələr üzrə kadr hazırlığı proqramlarının genişləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi və aidiyyəti qurumlar arasında məlumat mübadiləsi və koordinasiya mexanizmlərinin təkmilləşdirilməsi nəzərdə tutulur.

**6.2.6. Aqrar maliyyə, sığorta və risk idarəetməsi mexanizmlərinin inkişaf etdirilməsi:**

**6.2.6.1. əsaslandırma:**

Son illərdə aqrar sahəyə investisiyaların həcmi artmış, xüsusilə qeyri-dövlət maliyyə mənbələrinin aqrar sektorda rolu genişlənmişdir. Bununla yanaşı, fermerlərin güzəştli kreditlərə, dövriyyə vəsaitlərinə və sığorta mexanizmlərinə çıxış imkanları məhdud olaraq qalır. Mövcud kredit məhsulları bir sıra hallarda kənd təsərrüfatı istehsalının xüsusiyyətlərinə tam uyğunlaşmır və aqrar istehsalçıların maliyyə dayanıqlılığına təsir göstərir.

Aqrar sığorta sahəsində dövlət-özəl tərəfdaşlığı modelinə əsaslanan yeni idarəetmə sistemi formalaşdırılmış, sığorta predmetlərinin və risklərin əhatə dairəsi genişləndirilmişdir. Kənd təsərrüfatında iqlim və bazar risklərinin artması aqrar sığorta mexanizmlərinin genişləndirilməsini və risklərin idarə olunması sisteminin təkmilləşdirilməsini zəruri edir;

**6.2.6.2. görüləcək tədbirlər:**

6.2.6.2.1. maliyyə institutlarının aqrar kreditləşmə ilə bağlı müraciətlərinin qiymətləndirilməsi imkanlarının gücləndirilməsi;

6.2.6.2.2. fermerlərin güzəştli kreditlərə çıxışının yaxşılaşdırılması, kredit, zəmanət və faiz subsidiyası mexanizmlərinin genişləndirilməsi;

6.2.6.2.3. Aqrar Kredit Kooperativlərinin (AKK) və onların ittifaqının yaradılması, fəaliyyətinin dəstəklənməsi;

6.2.6.2.4. aqrar istehsal və emal sektorunda tətbiq edilən güzəştli kreditləşmə mexanizmlərinin genişləndirilməsi;

6.2.6.2.5. aqrar sığorta və subsidiya mexanizmlərinin koordinasiyasının təmin edilməsi;

6.2.6.2.6. aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi;

6.2.6.2.7. "Aqrar sığorta" informasiya sisteminin funksional imkanlarının genişləndirilməsi;

6.2.6.2.8. aqrar sığorta sahəsi üzrə risk və zərərlərin qiymətləndirilməsi metodologiyasının və müstəqil ekspertlər institutunun inkişaf etdirilməsi;

6.2.6.2.9. aqrar sığorta haqlarının dövlət hesabına ödənilən hissəsinin subyektlərə, predmet və risklərə münasibətdə diferensiallaşdırılması;

**6.2.6.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.6.3.1. maliyyə institutlarının məlumat ehtiyaclarının ödənilməsi sisteminin formalaşdırılması;

6.2.6.3.2. maliyyə institutlarında aqrar sektor üzrə ixtisaslaşmış mütəxəssislərin sayının artırılması;

6.2.6.3.3. fermerlərin maliyyə resurslarına əlçatanlığının artırılması;

6.2.6.3.4. kollektiv kreditləşmə modeli əsasında fəaliyyət göstərən dayanıqlı aqrar kredit kooperativləri sisteminin formalaşdırılması;

6.2.6.3.5. aqrar istehsal və emal sektorunda prioritet istiqamətlər üzrə maliyyələşdirilmiş investisiya layihələrinin sayının artırılması;

6.2.6.3.6. subsidiya və aqrar sığorta mexanizmlərinin koordinasiya səviyyəsinin artırılması və sığorta ödənişlərinin operativliyinin təmin edilməsi;

6.2.6.3.7. aqrar sığorta mexanizmi çərçivəsində təminat verilən sığorta predmetlərinin və risklərin sayının artması;

6.2.6.3.8. aqrar sığorta xidmətlərinin tam elektron formada icra edilməsi, əlçatanlığın artırılması;

6.2.6.3.9. aqrar sığorta sahəsi üzrə risk xəritələrinin hazırlanması, zərərlərin qiymətləndirilməsi metodologiyalarının tətbiqi;

6.2.6.3.10. aqrar sığorta sahəsində azı 100 müstəqil ekspertin fəaliyyət göstərməsi;

6.2.6.3.11. aqrar sahədə diferensiallaşdırılmış sığorta sisteminin tam tətbiq edilməsi;

*Ardı 11-ci səh.*

**Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı

*Əvvəli 10-cu səh.*

**6.2.6.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Aqrar kreditləşmənin genişləndirilməsi və kredit-zəmanət mexanizmlərinin tətbiqi dövlətin maliyyə öhdəliklərinin artmasına səbəb ola bilər. Eyni zamanda aqrar sığorta sistemindən istifadə səviyyəsinin aşağı olması və istehsalçıların sığorta mexanizmlərinə marağının az olması riskləri mövcuddur.

Bu risklərin azaldılması məqsədilə kredit və zəmanət mexanizmlərinin mərhələli tətbiqi, aşağı riskli təsərrüfat subyektlərinin prioritetləşdirilməsi, fermerlərin aqrar maliyyə və sığorta savadlılığının artırılması, habelə dövlət dəstəyi mexanizmləri üzrə məlumatlandırma tədbirlərinin genişləndirilməsi nəzərdə tutulur.

**6.2.7. İnformasiya-məsləhət xidmətləri və innovasiya yayımı sisteminin inkişaf etdirilməsi:**

**6.2.7.1. əsaslandırma:**

Son illərdə aqrar sahədə informasiya-məsləhət xidmətlərinin inkişafı istiqamətində müəyyən tədbirlər həyata keçirilmiş, elmitədqiqat institutları, Aqrar Təlim Mərkəzi, ali təhsil müəssisələri və özəl sektor tərəfindən fermerlərə müxtəlif təlim və məsləhət xidmətləri göstərilmişdir. Eyni zamanda beynəlxalq təcrübənin öyrənilməsi və müasir informasiya-məsləhət sisteminin formalaşdırılması istiqamətində layihələr icra olunmuşdur.

Bununla yanaşı, aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın yetərli səviyyədə olmaması, fermerlərin ehtiyaclarının düzgün müəyyənləşdirilməsində çətinliklər və məlumatların effektiv çatdırılması sahəsində problemlər mövcuddur. Həmçinin, müasir informasiya texnologiyalarının tətbiqi yolu ilə xidmətlərin əlçatanlığının və əhatə dairəsinin genişləndirilməsinə ehtiyac vardır;

**6.2.7.2. görüləcək tədbirlər:**

6.2.7.2.1. aqrar informasiya-məsləhət sisteminin formalaşdırılması;

6.2.7.2.2. aqroekoloji məlumatlar əsasında bölgələrdə müxtəlif məhsullar üzrə ixtisaslaşmanın aparılması və fermerlərin məlumatlandırılması;

6.2.7.2.3. orqanik kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı fermerlərin məlumatlandırılması;

**6.2.7.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.7.3.1. ölkə üzrə funksional informasiya-məsləhət xidmətləri şəbəkəsinin yaradılması;

6.2.7.3.2. ölkədə  aqrar məhsullar üzrə ixtisaslaşmanın tamamlanması və fermerlərin məlumatlılıq səviyyəsinin artırılması;

6.2.7.3.3. orqanik kənd təsərrüfatı ilə bağlı nümunəvi təsərrüfat modellərinin formalaşdırılması;

6.2.7.3.4. fermerlərin orqanik təsərrüfatçılıqla bağlı məlumatlılıq səviyyəsinin artırılması;

**6.2.7.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Kiçik təsərrüfat subyektlərinin texniki bilik və rəqəmsal bacarıqlarının məhdud olması informasiya-məsləhət və innovasiya xidmətlərindən istifadənin genişlənməsiniazalda bilər. Eyni zamanda müasir informasiya texnologiyalarına əsaslanan xidmət sistemlərinə inteqrasiyanın aşağı səviyyədə qalması riski mövcuddur.

Bu risklərin azaldılması məqsədilə fermerlər arasında maarifləndirmə və təlim tədbirlərinin genişləndirilməsi, rəqəmsal platformalardan istifadəsinin təşviqi və məlumatlandırma fəaliyyətində EKTİS-in imkanlarından geniş istifadə nəzərdə tutulur.

**6.2.8. Aqrar-emal sənayesinin inkişaf etdirilməsi:**

**6.2.8.1. əsaslandırma:**

Son illərdə kənd təsərrüfatı məhsullarının emalı sənayesində istehsal həcmi artsa da, aqrar-emal sahəsində yaradılan əlavə dəyərin aqrar sahədə yaradılan əlavə dəyərə nisbəti hələ də aşağı səviyyədə qalır. Bu isə ölkədə aqrar-emal sənayesinin inkişafı və əlavə dəyər yaradan fəaliyyətin genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu göstərir.

Eyni zamanda aqrar sahədə intensiv texnologiyaların tətbiqi nəticəsində məhsuldarlığın artması emal və logistika infrastrukturunun daha sürətli inkişafını zəruri edir. Emal potensialının yetərli səviyyədə inkişaf etməməsi kənd təsərrüfatı məhsulları istehsalının genişləndirilməsi və əlavə dəyər yaradılması imkanları üçün məhdudlaşdırıcı amil kimi çıxış edə bilər;

**6.2.8.2. görüləcək tədbirlər:**

6.2.8.2.1. pambıq emalı sənayesinin inkişaf etdirilməsi;

6.2.8.2.2. bitki yağlarının istehsalı klasterininformalaşdırılmasının təşviqi;

6.2.8.2.3. şərab istehsalının təşviqi;

6.2.8.2.4. meyvə-tərəvəz məhsullarının emalı sahələrinin inkişafının təşviqi;

6.2.8.2.5. süd emalı sahələrinin inkişafının təşviqi;

6.2.8.2.6. ət məhsulları emalı sahələrinin inkişafının təşviqi;

6.2.8.2.7. gön-dəri və yun xammalının emala yönəldilməsinin dəstəklənməsi;

**6.2.8.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.8.3.1. pambıq mahlıcının iplik istehsalına yönəldilən hissəsinin, eləcə də ipliyin parça istehsalına yönəldilən hissəsinin artması;

6.2.8.3.2. azı 2 bitki yağı emalı zavodunun yaradılması;

6.2.8.3.3. kiçik butik tipli şərab istehsalçılarının sayının 20-yə çatdırılması;

6.2.8.3.4. emal edilən meyvə-tərəvəz məhsullarının həcminin davamlı artması;

6.2.8.3.5. emal edilən yerli südün həcminin artması;

6.2.8.3.6. ət və ət məhsulları istehsalının həcminin davamlı  artması;

6.2.8.3.7. emal və ixrac edilən gön-dəri və yunun həcminin artması;

**6.2.8.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Aqrar-emal sənayesinə investisiya marağının məhdud olması, emal məhsulları üzrə ixrac bazarlarına çıxış imkanlarının zəifliyi və qlobal bazarlarda qiymət dəyişkənliyi bu sahənin inkişafına mənfi təsir göstərə bilər. Eyni zamanda logistika və saxlanma infrastrukturunun kifayət qədər inkişaf etməməsi istehsal və emal zəncirində səmərəliliyin azalmasına səbəb ola bilər.

Bu risklərin azaldılması məqsədilə investisiya təşviqi mexanizmlərinin genişləndirilməsi, ixrac bazarlarının şaxələndirilməsi, habelə aqrar-emal sahəsində dövlət-özəl tərəfdaşlığı mexanizminin tətbiqi nəzərdə tutulur.

**6.2.9. Aqrar istehsal vasitələri sənayesinin inkişaf etdirilməsi:**

**6.2.9.1. əsaslandırma:**

Aqrar sektorun dayanıqlı inkişafının təmin olunması və məhsuldarlığın artırılması baxımından gübrə və yem istehsalı strateji əhəmiyyət daşıyır. Hazırda ölkədə azot tərkibli karbamid gübrəsi istehsal edilsə də, kənd təsərrüfatının artan tələbatının tam şəkildə yerli istehsal hesabına qarşılanması üçün istehsal imkanlarının genişləndirilməsinə ehtiyac vardır.

Eyni zamanda heyvandarlıq sektorunda yem təminatında idxaldan asılılığın azaldılması məqsədilə yerli yem istehsalının təşviqi mühüm prioritet hesab edilir. Bu istiqamətdə yerli xammal bazasının genişləndirilməsi, yem istehsalı müəssisələrinin maddi-texniki təminatının gücləndirilməsi və istehsal həcminin artırılması heyvandarlıq təsərrüfatlarının dayanıqlı yem təminatına çıxışını yaxşılaşdıracaqdır;

**6.2.9.2. görüləcək tədbirlər:**

6.2.9.2.1. gübrə istehsalının təşviq olunması;

6.2.9.2.2. yem istehsalının təşviq olunması;

**6.2.9.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.9.3.1. gübrə istehsalının artırılması və daxili tələbatın təminat səviyyəsinin yerli istehsal hesabına yüksəldilməsi;

6.2.9.3.2. yerli yem istehsalının və yem təminatında yerli istehsalın payının artırılması;

**6.2.9.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Gübrə və yem istehsalı sahəsində əsas risklərə yüksək investisiya xərcləri, xammal təminatında fasilələr, həmçinin istehsal texnologiyalarına çıxış imkanlarının məhdudluğu aid edilə bilər. Bununla yanaşı, idxal məhsulları ilə rəqabət və bazar dəyişkənliyi yerli istehsalın inkişaf tempinə təsir göstərə bilər.

Qeyd olunan risklərin neytrallaşdırılması məqsədilə investisiya təşviqlərinin tətbiqi, güzəştli maliyyələşmə və subsidiyalaşdırma mexanizmlərinin genişləndirilməsi, eləcə də yerli xammal bazasının gücləndirilməsi və logistika infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur.

**6.2.10. Aqrar sahədə logistika infrastrukturunun və təchizat sisteminin inkişaf etdirilməsi:**

**6.2.10.1. əsaslandırma:**

Son illərdə dövlət dəstəyi hesabına regionlarda soyuducu anbarlar, taxıl elevatorları və digər logistika obyektləri yaradılmış, yol-nəqliyyat infrastrukturu inkişaf etdirilmiş və bu da kənd təsərrüfatı istehsalçılarının bazara çıxış imkanlarını yaxşılaşdırmışdır.

Bəzi kənd təsərrüfatı məhsulları üzrə mövsümi qiymət dəyişkənliyi, istehsalçı və pərakəndə satış qiymətləri arasında yüksək fərqlər, eləcə də məhsulların saxlanılmasında və satışında logistika məhdudiyyətləri qalmaqdadır. Mövcud anbar infrastrukturu bir sıra məhsullar üzrə kifayət etsə də, xüsusilə taxıl və tərəvəz məhsullarının saxlanılmasına və logistikasının genişləndirilməsinə ehtiyac vardır. Eyni zamanda süd tədarükü və məhsul toplama sistemlərinin zəif inkişafı bəzi dövrlərdə istehsalçıların öz məhsullarını əlverişli bazar şərtləri ilə realizə etməsinə mane olur. Ərzaq məhsullarının dövlət sifarişi əsasında satınalma sisteminin funksionallığının gücləndirilməsi aqrar sahədə dayanıqlı və səmərəli təchizat sisteminin formalaşdırılmasına mühüm töhfə verə bilər;

**6.2.10.2. görüləcək tədbirlər:**

6.2.10.2.1. südtoplama məntəqələrinin logistika infrastrukturunun yaxşılaşdırılması və süd təchizatı zəncirinin dəstəklənməsi;

6.2.10.2.2. kənd təsərrüfatı təyinatlı soyuducu anbar şəbəkəsinin genişləndirilməsi;

6.2.10.2.3. taxıl saxlanması üzrə logistika sistemlərinin inkişaf etdirilməsi;

6.2.10.2.4. ərzaq məhsullarının dövlət sifarişi ilə satınalma sisteminin institusional və funksional baxımdan gücləndirilməsi;

**6.2.10.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.10.3.1. regionlar üzrə süd təchizatı zəncirinin optimallaşdırılması və sənaye emalına yönəldilən süd həcminin artırılması;

6.2.10.3.2. regionlar üzrə soyuducu anbarlarının həcminin 100 min ton artırılması;

6.2.10.3.3. taxıl saxlanma həcminin azı 150 min kubmetr artırılması;

6.2.10.3.4. ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaiti hesabına satın alınması prosesində istehsalçı fermer və emalçılardan alış payının artırılması;

**6.2.10.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Logistika və bazar infrastrukturu layihələrinin yüksək investisiya tutumlu olması özəl sektorun bu sahəyə marağını məhdudlaşdıra bilər. Eyni zamanda bəzi regionlarda infrastruktur obyektlərinin yaradılması əlavə maliyyə və texniki çətinliklərlə müşayiət oluna bilər.

Bu risklərin azaldılması məqsədilə dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqi, güzəştli maliyyələşdirmə və subsidiya alətlərinin genişləndirilməsi, habelə regionlar üzrə ehtiyacların mərhələli və prioritet əsasda qiymətləndirilməsi nəzərdə tutulur.

**6.2.11. İxracyönümlü aqrobiznes və aqropark modelinin inkişaf etdirilməsi:**

**6.2.11.1. əsaslandırma:**

Aqrar sektorda əlavə dəyərin artırılması, ixrac potensialının genişləndirilməsi və rəqabətqabiliyyətli aqrobiznes mühitinin formalaşdırılması baxımından ixracyönümlü istehsal və aqropark modelinin inkişafı strateji əhəmiyyət daşıyır. Hazırda kənd təsərrüfatı məhsullarının ixracında artım müşahidə olunsa da, ixracın əsasən məhdud sayda bazarlar üzrə cəmləşməsi diversifikasiya tədbirlərinin gücləndirilməsini zəruri edir. Eyni zamanda yüksək əlavə dəyər yaradan məhsulların istehsalı və ixracı istiqamətində mövcud potensialdan tam istifadə olunmadığı müşahidə edilir və bu sahədə əhəmiyyətli inkişaf imkanları qalmaqdadır.

Aqroparkların müasir idarəetmə və istehsal modelləri əsasında inkişaf etdirilməsi, istixana və intensiv bağçılıq sahələrinin genişləndirilməsi, sertifikatlaşdırma və brendləşmə imkanlarının artırılması aqrar məhsulların beynəlxalq bazarlarda mövqeyinin gücləndirilməsinə xidmət edə bilər;

**6.2.11.2. görüləcək tədbirlər:**

6.2.11.2.1. ixracyönümlüaqrobizneslər üçün ixracın təşviqi üzrə ünvanlı dəstək mexanizminin yaradılması və icrası;

6.2.11.2.2. aqrar istehsal və emal müəssisələrinin kommunal infrastruktura çıxış imkanının artırılması;

6.2.11.2.3. istixana sahələrinin inkişafı üçün stimullaşdırma mexanizminin tətbiqi;

6.2.11.2.4. intensiv bağların genişləndirilməsinin dəstəklənməsi;

6.2.11.2.5. kənd təsərrüfatı məhsulları istehsalçılarının qlobal və regional bazarlarda qəbul edilən sertifikatları əldə etməsi məqsədilə subsidiya mexanizmlərinin formalaşdırılması və tətbiqi;

6.2.11.2.6. aqroparkların yeni inkişaf modelinə keçidinin dəstəklənməsi;

6.2.11.2.7. yerli aqrar məhsullarınınbrendləşdirilməsi;

**6.2.11.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.11.3.1. qeyri-ənənəvi xarici bazarlara ixrac həcminin artırılması;

6.2.11.3.2. aqrar istehsal və emal müəssisələrinin enerji, su və qaz təminatı infrastrukturunun genişləndirilməsi və kommunal xidmətlərə çıxış imkanlarının artırılması;

6.2.11.3.3. 250 hektar sahədə yeni istixana qurulması (o cümlədən Şərqi Zəngəzurda 122 hektar), fəaliyyətini dayandırmış 250 hektar istixananın modernləşdirilməsi;

6.2.11.3.4. ölkə üzrə intensiv bağların sahəsinin 70 min hektara çatdırılması;

6.2.11.3.5. hər il azı 2 istehsalçının qlobal bazarlarda tanınan sertifikat almasının dəstəklənməsi;

6.2.11.3.6. aqroparklar üzrə istehsal həcminin artırılması, azı 5 aqroparkın ixracyönümlü fəaliyyətinin təmin edilməsi;

6.2.11.3.7. regional brend statusu əldə etmiş məhsulların sayının artırılması;

**6.2.11.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

İxracyönümlü aqrobiznes və aqropark modelinin inkişafı zamanı əsas risklərə xarici bazarlarda rəqabətin güclənməsi, beynəlxalq standart və sertifikat tələblərinə uyğunlaşmada çətinliklər, logistika və kommunal infrastruktur məhdudiyyətləri, eləcə də investisiya və maliyyə resurslarına çıxış imkanlarının məhdudluğu aid edilə bilər. Bununla yanaşı, iqlim dəyişiklikləri istehsalın dayanıqlılığına təsir göstərə bilər.

Bu risklərin neytrallaşdırılması məqsədilə dövlət dəstəyi və subsidiya mexanizminin tətbiqinin genişləndirilməsi, sertifikatlarla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, ixrac bazarlarının şaxələndirilməsi, eləcə də innovativ və resursqoruyucu texnologiyaların tətbiqinin təşviqi nəzərdə tutulur;

**6.2.12. Aqrar sahədə institusional və rəqəmsal idarəetmənin, data əsaslı qərarvermə sistemlərinin gücləndirilməsi:**

**6.2.12.1. əsaslandırma:**

Son illərdə aqrar sahədə dövlət xidmətlərinin rəqəmsallaşdırılması, məlumat bazalarının inteqrasiyası və elektron xidmətlərin genişləndirilməsi istiqamətində mühüm institusional islahatlar həyata keçirilmişdir. Subsidiyaların verilməsi prosesinin tam elektronlaşdırılması, EKTİS-in tətbiqi aqrar sahədə idarəetmənin səmərəliliyinin və şəffaflığının artırılmasına imkan yaratmışdır. Ötən dövr ərzində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən qurumlarda həyata keçirilmiş institusional islahatlar idarəetmə və fəaliyyət səmərəliliyinin artırılmasına mühüm töhfə vermişdir.

Əldə olunmuş uğurlarla yanaşı, aqrar sahədə data əsaslı idarəetmə mexanizmlərinin genişləndirilməsi, EKTİS-in funksional imkanlarının artırılması, müxtəlif dövlət informasiya ehtiyatları və sistemləri arasında inteqrasiyanın gücləndirilməsi, aqrar sahədə normativhüquqi bazanın təkmilləşdirilməsi və institusional potensialın yeni çağırışlara uyğun inkişaf etdirilməsi zəruridir;

**6.2.12.2. görüləcək tədbirlər:**

6.2.12.2.1. kənd təsərrüfatında data əsaslı effektiv idarəedilmənin təşkili üçün süni intellekt həllərinin genişləndirilməsi;

6.2.12.2.2. EKTİS-in mövcud altsistemləri imkanlarının genişləndirilməsi;

6.2.12.2.3. kənd təsərrüfatı texnikasına texniki nəzarətin institusional təşkilinin təkmilləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsi;

6.2.12.2.4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən qurumlarda idarəetmənin səmərəliliyinin artırılması;

**6.2.12.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.12.3.1. süni intellektdən istifadəetməklə hazırlanan modulların sayının 30-a çatdırılması;

6.2.12.3.2. EKTİS-in kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektləri zəruri xidmətlər və məlumatlarla təmin edən vahid platformaya çevrilməsi;

6.2.12.3.3. EKTİS-in digər sistemlərə inteqrasiyasının gücləndirilməsi;

6.2.12.3.4. kənd təsərrüfatı texnikasına texniki nəzarətin yeni mexanizmlər əsasında icrasının təmin edilməsi;

6.2.12.3.5. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumlarda optimallaşdırmanın aparılması, korporativ idarəetmənin tətbiqi ilə bağlı islahatların həyata keçirilməsi və səmərəliliyin artırılması;

**6.2.12.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Rəqəmsal idarəetmə sistemlərinin genişləndirilməsi və institusional islahatların həyata keçirilməsi zamanı texniki və institusional uyğunlaşma çətinlikləri, məlumat bazalarının inteqrasiyası prosesində gecikmələr, eləcə də ixtisaslı insan resurslarının məhdudluğu müəyyən risklər yarada bilər.

Bu risklərin azaldılması məqsədilə mərhələli tətbiq mexanizmlərinin formalaşdırılması, aidiyyəti dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, rəqəmsal bacarıqlar üzrə kadr hazırlığı proqramlarının genişləndirilməsi və mövcud informasiya ehtiyatlarının və sistemlərinin texniki imkanlarının təkmilləşdirilməsi nəzərdə tutulur.

**6.2.13. Aqrar subsidiya və dəstək mexanizmlərinin təkmilləşdirilməsi:**

**6.2.13.1. əsaslandırma:**

Aqrar sahədə dayanıqlı inkişafın təmin olunması, məhsuldarlığın və əlavə dəyərin artırılması baxımından subsidiya və dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi xüsusi əhəmiyyət daşıyır.

Son illərdə aqrar sahədə subsidiya, güzəştli kredit və digər dövlət dəstəyi alətləri tətbiq edilmiş, kənd təsərrüfatı istehsalçılarının istehsal resurslarına çıxışı yaxşılaşdırılmışdır. Bununla belə, mövcud dəstək mexanizmlərinin daha çox məhsuldarlıq, intensiv istehsal, ixracyönümlülük və əlavə dəyər yaradan fəaliyyətin təşviqinə yönəldilməsi, eləcə də dəyər zəncirinin bütün mərhələlərini əhatə edən daha çevik və nəticəyönümlü dəstək sisteminin formalaşdırılması zəruridir;

**6.2.13.2. görüləcək tədbirlər:**

6.2.13.2.1. iribuynuzlu heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması və yeni dəstək mexanizmlərinin tətbiqi;

6.2.13.2.2. qoyunçuluqda cins tərkibinin yaxşılaşdırılmasının, yarım intensiv təsərrüfatların formalaşdırılmasının dəstəklənməsi;

6.2.13.2.3. quşçuluq sahəsinin inkişafının stimullaşdırılması;

6.2.13.2.4. kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışına tətbiq olunan güzəşt mexanizmlərinin effektivliyinin artırılması;

6.2.13.2.5. aqrar istehsal və emal sahələrində vergi siyasətinin dəyər zənciri üzrə optimallaşdırılması;

6.2.13.2.6. buğda istehsalının artırılması ilə bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsi;

6.2.13.2.7. pambıq istehsalının artırılması ilə bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsi;

6.2.13.2.8. kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan qadın və gənc fermerlər üçün xüsusi dəstək mexanizmləri və layihələrinin həyata keçirilməsi;

6.2.13.2.9. kənd təsərrüfatında kooperasiyalaşma və assosiasiyaların inkişafının dəstəklənməsi;

**6.2.13.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.13.3.1. yüksək məhsuldar cins heyvanların sayının artırılaraq ümumi sürüdə payının minimum 10 faizə çatdırılması;

6.2.13.3.2. mal əti istehsalı həcminin 20 faiz, süd istehsalı həcminin 10 faiz artırılması;

6.2.13.3.3. qoyun əti istehsalı həcminin azı 9 faiz artırılması;

6.2.13.3.4. quş əti istehsalının 30 faiz, yumurta istehsalında isə 27 faiz artırılması;

6.2.13.3.5. prioritetlərə və ehtiyaclara uyğun olaraq aqrar sahənin texnika və avadanlıqlarla təminatının yaxşılaşdırılması;

6.2.13.3.6. buğda məhsuldarlığının ixtisaslaşmış rayonlarda 50 sentner/ha-ya çatdırılması, buğda istehsalı həcminin ölkə üzrə 20 faiz artırılması;

6.2.13.3.7. ixtisaslaşmış rayonlar üzrə pambığın məhsuldarlığının 50 sentner/ha-ya çatdırılması, pambığın istehsal həcminin 17 faiz artırılması;

6.2.13.3.8. kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan qadınların və gənc fermerlərin sayının artırılması;

6.2.13.3.9. ümumilikdə 5 funksional nümunəvi kooperativin, 3 funksional nümunəvi assosiasiyanın (ittifaqın) fəaliyyətə başlaması;

**6.2.13.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Subsidiya və dövlət dəstəyi mexanizmlərinin tətbiqi zamanı aqrar subyektlərin yeni yanaşma və texnologiyalara uyğunlaşma imkanlarının məhdud olması, investisiya mühitində dəyişkənlik və bəzi sahələr üzrə özəl sektor marağının zəifliyi gözlənilən nəticələrin əldə olunmasına təsir göstərə bilər. Eyni zamanda dəstək mexanizmlərinin tətbiqində resurs bölgüsü və hədəflənmə ilə bağlı çətinliklər, eləcə də aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiya problemləri müəyyən risklər yarada bilər.

Bu risklərin azaldılması məqsədilə dəstək mexanizmlərinin pilot layihə əsasında tətbiqi, regionlar üzrə ehtiyacların düzgün qiymətləndirilməsi, rəqəmsal monitorinq və qiymətləndirmə sistemlərinin tətbiqi, şəffaflıq və hesabatlılıq prinsiplərinin gücləndirilməsi, habelə fermerlər və digər maraqlı tərəflərlə davamlı maarifləndirmə və kommunikasiya tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

**6.2.14. Aqrar elm, təhsil sahələrinin və insan kapitalının inkişaf etdirilməsi:**

**6.2.14.1. əsaslandırma:**

Son illərdə aqrar sahə üzrə təhsil və elmitədqiqat potensialının gücləndirilməsi istiqamətində müəyyən irəliləyişlər əldə edilmişdir. Aqrar ixtisaslar üzrə ali təhsil alanların sayı artmış, aqraryönümlü elmitədqiqat müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Aqrar sahənin innovativ və texnologiya əsaslı inkişafı üçün əmək bazarının tələblərinə uyğun peşəkar kadr hazırlığının gücləndirilməsi, aqrar təhsil sisteminin müasir tələblərə uyğunlaşdırılması və elmitədqiqat fəaliyyətinin effektivliyinin artırılması zəruridir. Peşə təhsili pilləsində aqrar ixtisaslar üzrə kadr hazırlığının məhdud olması, gənclərin aqrar elmə marağının zəifliyi və beynəlxalq standartlara uyğun tədqiqat potensialının yetərli səviyyədə formalaşmaması bu sahədə əsas çağırışlar olaraq qalır;

**6.2.14.2. görüləcək tədbirlər:**

6.2.14.2.1. aqrar sahədə ikili diplom proqramlarının genişləndirilməsi və xarici universitetlə birgə universitetin yaradılması;

6.2.14.2.2. aqrar sahə üzrə peşə standartlarının hazırlanması və təhsilin məzmununun yenilənməsi;

6.2.14.2.3. aqrar sahədə fəaliyyət göstərən mütəxəssislərin reyestrinin yaradılması və təlim proqramlarına cəlb edilməsi;

6.2.14.2.4. aqrar sahədə qeyri-formal məşğulluğun azaldılması;

6.2.14.2.5. elmi-tədqiqat institutlarını idarəetmə sistemlərinin modernləşdirilməsi, institusional islahatların aparılması;

6.2.14.2.6. beynəlxalq elmitədqiqat mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi;

6.2.14.2.7. aparılan elmi tədqiqatların müasir tələblərə uyğun olaraq keyfiyyətinin yüksəldilməsi və gənclər arasında elmi tədqiqatların aparılmasına marağın artırılması;

6.2.14.2.8. elmitədqiqat institutlarının infrastruktur təminatının yaxşılaşdırılması;

**6.2.14.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.14.3.1. aqrar ixtisaslar üzrə ikili diplom proqramlarından məzun olanların ümumi sayının 500-ə çatdırılması;

6.2.14.3.2. bir xarici universitet ilə əməkdaşlıq çərçivəsində birgə universitetin yaradılması;

6.2.14.3.3. azı 30 yeni peşə və kvalifikasiya standartının hazırlanması, azı 10 proqramın kurikulumunun yenilənməsi;

6.2.14.3.4. azı 200 tələbənin xaricdə istehsalat təcrübəsinin təşkili, azı 100 təhsilverənin təlimlərə cəlb edilməsi;

6.2.14.3.5. aqrar sahədə fəaliyyət göstərən bütün istiqamətlər üzrə mütəxəssislərin reyestrinin yaradılması;

6.2.14.3.6. beynəlxalq tərəfdaş mərkəzlərlə birlikdə azı bir mükəmməllik və innovasiya mərkəzinin yaradılması;

6.2.14.3.7. aparılan elmi tədqiqatların sayının artırılması, indeksləşdirilmiş jurnallarda çap olunan məqalələrin sayının 2027-ci ildən başlayaraq hər il 10 faiz artırılması;

6.2.14.3.8. aqrar sahədə elmitədqiqatlarla məşğul olan gənc alimlərin sayının artırılması;

6.2.14.3.9. elmi tədqiqat institutlarının müasir tələblərə uyğun infrastrukturla təminat səviyyəsinin yaxşılaşdırılması;

**6.2.8.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Aqrar sahədə əməkhaqqı səviyyəsinin və elmi fəaliyyətin cəlbediciliyinin aşağı olması, regionlarda aqrar təhsilə çıxış imkanlarının qeyri-bərabərliyi, ixtisaslı pedaqoji və elmi kadr çatışmazlığı, habelə beynəlxalq standartlara uyğun tədqiqat potensialının məhdudluğu bu sahədə əsas risklərdəndir.

Bu risklərin azaldılması məqsədilə aqrar təhsil və elmitədqiqat sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, nüfuzlu elmi nəşrlərdə tədqiqat fəaliyyətinin təşviqi, gənc alimlər üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi, regionlarda aqrar təhsil imkanlarının genişləndirilməsi və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı proqramlarının inkişaf etdirilməsi nəzərdə tutulur.

**6.2.15. Balıq ehtiyatlarının qorunması, idarəetmə və nəzarət potensialının gücləndirilməsi:**

**6.2.15.1. əsaslandırma:**

Balıqçılıq və akvakultura sektoru ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, əhalinin keyfiyyətli zülal mənbələrinə çıxış imkanlarının genişləndirilməsi, regionlarda məşğulluğun artırılması və ixrac potensialının inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Son illərdə həmin sektorda inkişaf imkanları genişlənsə də, balıq ehtiyatlarının qorunması, ekoloji tarazlığın saxlanılması, nəzarət və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də normativhüquqi bazanın beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində əlavə tədbirlərə ehtiyac vardır.

Balıq ovunun dayanıqlı prinsiplər əsasında təşkili, rəqəmsal nəzarət və izləmə sistemlərinin tətbiqi, həmçinin balıqartırma fəaliyyətinin gücləndirilməsi su bioresurslarının bərpasına, məhsuldarlığın artımına və dayanıqlı inkişaf modelinin formalaşmasına xidmət edəcəkdir;

**6.2.15.2. görüləcək tədbirlər:**

6.2.15.2.1. balıqçılıq və akvakultura sahəsində normativhüquqi bazanın müasir tələblərə uyğunlaşdırılması;

6.2.15.2.2. idarəetmə sistemlərinin təkmilləşdirilməsi və rəqəmsallaşdırılması;

6.2.15.2.3. balıq ovunun dayanıqlı əsaslarla təşkili, izlənməsi və bu sahədənəzarətin gücləndirilməsi;

6.2.15.2.4. balıqartırma fəaliyyətinin gücləndirilməsi;

**6.2.15.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.15.3.1. beynəlxalq standarlara uyğun  normativ hüquqibazanın formalaşdırılması;

6.2.15.3.2. balıqçılıq və akvakultura sahəsində sanitariyanəzarəti sisteminin beynəlxalq tələblərə uyğun təşkili, nəzarət və idarəetməni həyata keçirmək üçün informasiya sisteminin yaradılması;

6.2.15.3.3. balıq ehtiyatlarının qorunması və ekoloji balansın saxlanılması üçün balıq ovunun ekosistemə uyğun prinsiplər əsasında həyata keçirilməsi və balıq ovuna nəzarətin təşkili;

6.2.15.3.4. ümumilikdə 2 balıqartırma təsərrüfatının fəaliyyətinin təmin edilməsi;

**6.2.15.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Balıqçılıq və akvakultura sahəsində əsas risklərə qanunsuz və normadan artıq balıq ovu, su hövzələrinin çirklənməsi, iqlim dəyişikliklərinin su bioresurslarına təsiri, xəstəliklərin yayılması, eləcə də nəzarət və monitorinq mexanizmlərinin yetərsizliyi aid edilə bilər. Bununla yanaşı, müasir texnologiyalara, keyfiyyətli yem və damazlıq materiallarına çıxış imkanlarının məhdudluğu, həmçinin ixtisaslı kadr çatışmazlığı sektorun sahənin inkişaf tempinə mənfi təsir göstərə bilər.

Qeyd olunan risklərin neytrallaşdırılması məqsədilə normativ-hüquqi bazanın beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, rəqəmsal monitorinq və izləmə sistemlərinin tətbiqi, nəzarət tədbirlərinin gücləndirilməsi, elmi əsaslı idarəetmə yanaşmalarının tətbiqi və mütəxəssis hazırlığı üzrə proqramların genişləndirilməsi nəzərdə tutulur.

**6.2.16. Balıqçılıq məhsulları üzrə istehsal və ixrac imkanlarının genişləndirilməsi:**

**6.2.16.1. əsaslandırma:**

Son illərdə balıqçılıq və akvakultura sahələrinin inkişafı istiqamətində institusional və normativ tədbirlər həyata keçirilmiş, balıqçılıq məhsullarının istehsalı artmış və bununla da özünütəminetmə səviyyəsi yüksəlmişdir. Bununla yanaşı, ölkədə balıq məhsullarının adambaşına istehlakı dünya orta göstəricisindən aşağı olaraq qalır və daxili bazarda istehsal, emal və logistika potensialının genişləndirilməsinə ehtiyac vardır;

**6.2.16.2. görüləcək tədbirlər:**

6.2.16.2.1. balıqçılıq sahəsində inkişaf zonalarının müəyyən edilməsi;

6.2.16.2.2. balıqçılıq sahəsində damazlıq işinin gücləndirilməsi;

6.2.16.2.3. balıqçılıq və akvakultura sahələrində dəstək mexanizmlərinin formalaşdırılması;

**6.2.16.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.16.3.1. akvakultura sahəsində 1 aqroparkın yaradılması, inkişaf zonalarının müəyyən edilməsi;

6.2.16.3.2. damazlıq balıqçılıq təsərrüfatlarının formalaşdırılması;

6.2.16.3.3. akvakultura subyektlərinin məhsul buraxılışının 7700 tona çatdırılması;

**6.2.16.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Balıqçılıq və akvakultura sahələrində tədbirlərin həyata keçirilməsi zamanı institusional və normativ çətinliklər, maliyyə və texniki resursların məhdudluğu, ixtisaslı kadr çatışmazlığı, eləcə də iqlim dəyişiklikləri və su ehtiyatlarının vəziyyəti ilə bağlı risklər yarana bilər.

Bu risklərin azaldılması məqsədilə dövlət özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqi, beynəlxalq təcrübənin və innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi, elmitədqiqat və monitorinq sistemlərinin gücləndirilməsi, həmçinin kadr hazırlığı və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

**1. Maliyyələşmə mexanizmləri**

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan maliyyə resurslarının müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi həyata keçiriləcəkdir.

Suvarma suyu ilə təminatın yaxşılaşdırılması istiqamətində görüləcək tədbirlərin effektiv icrasının təmin edilməsi üçün təsərrüfatlara qədər gələn suvarma şəbəkəsinin qurulması üçün tələb olunan maliyyələşmənin Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya", habelə 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiyanın fəaliyyəti çərçivəsində təmin edilməsi nəzərdə tutulur.

*Ardı 12-ci səh.*

# İqtisadiyyat və sosial həyat

## Bakı yenidən qlobal enerji və logistika mərkəzinə çevrilir

### 44 ölkədən yüzlərlə şirkət Bakı Enerji Həftəsində iştirak edəcək

**İyunun 1-3-də Bakı yenidən qlobal enerji dialoqunun əsas mərkəzlərindən birinə çevriləcək. Xəzər regionunun ən nüfuzlu enerji tədbirlərindən hesab olunan 31-ci Bakı Enerji Həftəsi dünyanın aparıcı enerji şirkətlərini, dövlət qurumlarını, investorları və sənaye mütəxəssislərini bir araya gətirəcək. Ənənəvi olaraq enerji sektorunun aktual məsələlərinin və perspektivlərinin müzakirə olunduğu platformada ən son yeniliklər də nümayiş etdiriləcək.**

Bakı Enerji Həftəsi üç əsas tədbiri birləşdirir -31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci Baku Enerji Forumu. Sərgilər "Bakı-Ekspo" Mərkəzində, forum isə Bakı Konqres Mərkəzində keçiriləcək. Məhz bu kontekstdə dünən Bakı Enerji Həftəsi və "TransLogistica Caspian" - 23-cü Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika Sərgisinə həsr olunmuş mətbuat konfransında çıxış edən rəsmilər və təşkilatçı qurumların nümayəndələri builki enerji həftəsinin əsas prioritetləri, beynəlxalq iştirakçılar və müzakirə olunacaq mövzular barədə məlumat verdilər. Qeyd olundu ki, Bakı Enerji Həftəsi enerji sahəsində regional əməkdaşlığın genişləndirilməsi və yeni tərəfdaşlıqların qurulması baxımından mühüm platforma hesab olunur. Uzun illərdir ki, Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) baş tərəfdaş qismində çıxış edir.

Tədbirdə çıxış edən "Caspian Event Organisers" şirkətinin icraçı direktoru Bəhruz Hidayətzadə söylədi ki, builki "Baku Energy Week"də artıq dünyanın 44 ölkəsindən 274 şirkət iştirakını təsdiqləyib: "Tədbirin iştirakçı coğrafiyası kifayət qədər genişdir və Azərbaycanla yanaşı, Almaniya, Amerika Birləşmiş Ştatları, Avstriya, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çexiya, Çin, Çin Xalq Respublikasının Honkonq Xüsusi İnzibati Bölgəsi, Fransa, Hindistan, Filippin, Gürcüstan, İordaniya, İspaniya, İsveçrə, İtaliya, Lüksemburq, Qətər, Qazaxıstan, Kanada, Litva, Macarıstan, Misir, Moldova, Monako, Niderland, Norveç, Özbəkistan, Rumıniya, Rusiya, Sinqapur, Səudiyyə Ərəbistanı, Tacikistan, Türkiyə, Ukrayna, Yaponiya və digərlərini əhatə edir. Almaniya və Rusiya Bakı Enerji Həftəsində milli pavilyon ilə təmsil olunur".

"Bakı Enerji Forumunun ilk günündə D-8 üzv dövlətlərinin enerji nazirlərinin 1-ci görüşü baş tutacaq", - deyə Energetika Nazirliyinin İctimaiyyətlə əlaqələr və rəqəmsal idarəetmə şöbəsinin müdiri Amil Həsənov bildirdi ki, Bakı Enerji Forumu bir sıra mühüm yeniliklərlə yadda qalacaq. Forumun ilk günündə D-8 üzv dövlətlərinin energetika nazirlərinin ilk görüşü keçiriləcək. Əvvəlki illərdən fərqli olaraq forumun rəsmi açılış mərasimi iyunun 1-də "Bakı-Ekspo" Mərkəzində baş tutacaq, daha sonra iştirakçılar əsas müzakirələr üçün Bakı Konqres Mərkəzinə yollanacaqlar.

Amil Həsənov qeyd etdi ki, forumun gündəliyi kifayət qədər zəngindir. Tədbir çərçivəsində yüksəksəviyyəli görüşlər, layihə təqdimatları, xüsusi sessiyalar və paralel forumlar təşkil olunacaq. Forum enerji sektorunun qarşısında duran aktual çağırışlar, yeni imkanlar və qlobal transformasiya prosesləri ətrafında geniş müzakirə platforması rolunu oynayacaq.

Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika - "TransLogistica Caspian" sərgisinin layihə rəhbəri Ləman Ağayevanın da fikirləri konfrans iştirakçıları üçün maraqlı oldu. O bildirdi ki, region üçün strateji əhəmiyyət daşıyan "TransLogistica Caspian" - 23-cü Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika Sərgisi keçiriləcək. Üç gün davam edəcək sərgidə Azərbaycanla yanaşı, Belarus, Qazaxıstan, Çin, Gürcüstan, Türkiyə, Rusiya, Litva və Lüksemburqdan olan şirkətlər iştirak edəcək: "Yükdaşıma və logistika xidmətləri sektoru "Abşeron Logistika Mərkəzi", Azərbaycan Gömrük Təmsilçiliyi və Logistika Şirkətləri Assosiasiyası, "Aznur Logistics", "GLT Transport", "Heritus Logistics", "Sara Logistics", "Yüktaksisi.az" MMC, Çindən CHANGSHA TRANSASIA TRANSPORT INTERNATIONAL LOGISTICS CO. LTD və digər şirkətlər tərəfindən təmsil olunacaq. Sərgidə həmçinin dünya miqyasında nəqliyyat və logistika sahəsinin lider şirkətlərindən biri olan "Mediterranean Shipping Company" (MSC) də iştirak edəcək. Bununla yanaşı, Belarusun Nəqliyyat və Kommunikasiya Nazirliyi və Belarus Dəmir Yolları da tədbirdə iştirak edəcək".




Qeyd edək ki, "TransLogistica Caspian" sərgisinin təşkilatçıları "Caspian Event Organisers" şirkəti və onun beynəlxalq tərəfdaşları olan "ICA Events" və "Cem FZ LLC" şirkətləridir.

***Z.NADİRQIZI,* *"Azərbaycan"***

## Möhtəşəm, lakin "səssiz" və təhlükəsiz kəmər

### BTC-yə ilk neftin vurulmasından 21 il ötür

**2005-ci il mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəmərinə Səngəçal terminalından ilk neft vuruldu. Bu həm də kəmərin Azərbaycan hissəsinin istifadəyə verilməsi demək idi.**



Təkcə ölkəmizin deyil, bütün regionun həyatında mühüm əhəmiyyəti olan bu hadisə ilə bağlı Bakıda və Səngəçalda keçirilən tədbirlərdə Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Türkiyənin, Gürcüstanın və Qazaxıstanın dövlət başçıları da iştirak etmişdilər. Bu, BTC-nin salnaməsində ən əhəmiyyətli günlərdən biridir.

Kəmərin tarixi isə qısa olsa da, zəngindir. Belə ki, keçən əsrin 90-cı illərinin ikinci yarısında "Əsrin müqaviləsi" çərçivəsində neft hasilatı artdıqca mövcud olan Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərindən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə BTC-nin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in Zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Saziş Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi.

Əvvəl "Əsrin müqaviləsi"ni xülya adlandıranlar, müxtəlif bəhanələrlə və güclü səylərlə onun baş tutmasına mane olmaq istəyənlər bu dəfə BTC-ni hədəfə aldılar. Lakin Ümummilli Lider Heydər Əliyev özünün şah əsərlərindən biri olan bu kəməri bütün mərhələlərdən keçirdi. İnamla dedi ki, "BTC olacaq, olacaq, olacaqdır!"

Doğrudur, 2002-ci il sentyabrın 18-də BTC-nin təməlini qoyan Ulu Öndər onun istifadəyə verilməsini görə bilmədi. Bu işi Prezident İlham Əliyev uğurla başa çatdırdı. 2004-cü il fevralın 3-də Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar son sənədlər imzalandı və 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində kəmər tam sistem kimi istifadəyə verildi.

Çox zaman haqlı olaraq vurğulanır ki, digər qlobal ixrac infrastrukturlarına da yolu BTC açdı. Növbəti marşrutlar çəkilərkən məhz bu kəmərin təcrübəsindən istifadə edildi. Eləcə də bütün dünya Azərbaycanın gücünü, onun yaratdığı əməkdaşlıq və tərəfdaşlıq platformasının nəyə qadir olduğunu gördü.

Yol sözü həmçinin birbaşa mənasında işlədilir. Belə ki, az sonra çəkilən və "Şahdəniz" qazını daşıyan Cənubi Qafqaz Boru Kəməri (CQBK) Azərbaycanda və Gürcüstanda BTC ilə eyni xəndək boyu uzanır. Həmin CQBK ki, Bakı-Tbilisi-Ərzurum kəmərinin, daha sonra genişləndirilərək "Cənub qaz dəhlizi"nin ön hissəsini təşkil etdi.

BTC üçüncü minilliyin nəhəng mühəndis qurğusudur. Xatırladaq ki, bu boru xətti Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində yerin altı ilə 1768 kilometr məsafə qət edir. Kəmərin bir sıra əzəmətli yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası var. Səngəçaldakı baş nasos stansiyasından sonra ikinci stansiya yenə də Azərbaycanın ərazisində - Yevlaxda yerləşir. İki stansiya Gürcüstanda, dördü isə Türkiyədədir.

Xəttin gündəlik ötürücülük gücü 1,2 milyon barel təşkil edir. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq BTC 46, 42 və 34 düymlük borulardan çəkilib. Belə ki, kəmər öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrə çatan Ceyhan çayının keçidi də daxil olmaqla 1500-dən çox su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən kəmər yenidən dəniz səviyyəsinə enir. Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmər ölkəmizdə 443, Gürcüstanın 7 bölgəsində 249 və Türkiyənin 9 rayonunda 1076 kilometrlik yolboyu uzanır.

2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev BTC barədə demişdir: "2002-ci ildə biz artıq "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

Bakı-Tbilisi-Ceyhan boru kəməri şirkətinin (BTC Ko.) səhmdarları BP (30,10 faiz), SOCAR (32,97 faiz ), MOL (8,90 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz ), "TotalEnergies" (5 faiz), ITOCHU (3,40 faiz), "ONGC Videsh" (3,10 faiz), "ExxonMobil" (2,50 faiz) və INPEX (2,50 faiz) şirkətləridir.

BTC-nin idarəedicisi BP şirkətinin məlumatına görə, 2006-cı ilin yayında istismara veriləndən 2026-cı ilin birinci rübünün sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 626 milyon ton (4,7 milyard bareldən çox) xam neft nəql edilib və Ceyhanda 6210 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Bu ilin ilk üç ayı ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 6 milyon ton (təxminən 49 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 65 tankerə yüklənib və yola salınıb.

Hazırda BTC boru kəməri əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) də nəql olunur.

BTC həm də təhlükəsiz kəmərdir. Qeyd edildiyi kimi, bu xəttin boruları bütün marşrutboyu torpaq altında basdırılıb. Bu da müasir dövrdə karbohidrogenlərin ən etibarlı nəql vasitəsi sayılır. Onu da əlavə etmək yerinə düşər ki, BTC-nin bir hissəsi 2023-cü ildə Türkiyənin zəlzələyə məruz qalan ərazilərindən keçir. Bununla belə, kəmərin istər boruları, istərsə də yerüstü qurğuları heç bir zədə almadı. Bu da xəttin çəkilişinin mükəmməl olduğundan xəbər verir.

***Flora SADIQLI,* *"Azərbaycan"***

## "Yaşıl dünya"nın xilaskarları

### Onlar gələcək nəslə təmiz və sağlam dünya ötürmək üçün çalışırlar

**Bir neçə gün əvvəl Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) əməkdaşları öz peşə bayramlarını qeyd etdilər. Təbiətin qorunması, ekoloji tarazlığın təmin olunması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi istiqamətində mühüm və məsuliyyətli missiyanı həyata keçirən ekoloqlar gələcək nəsillərin "yaşıl Azərbaycan"da yaşamasına xidmət edirlər.**



Ekoloqlar ətraf mühitin vəziyyətinə nəzarət edir və təbii sərvətlərin istifadəsini nəzarətdə saxlayırlar. Qanunsuz meşə qırılması, ağacların kəsilməsinə qarşı mübarizə aparır, ağacəkmə aksiyaları vasitəsilə meşələrin məhv olmasına yol vermir və bu istiqamətdə müvafiq proqramlar həyata keçirirlər. Endemik və nəsli kəsilməkdə olan növlərin qorunması üçün xüsusi tədbirlər görür, qoruq ərazilər yaradır, flora və fauna müxtəlifliyini izləyir, ekosistemlərin sağlamlığını təmin etmək üçün genişmiqyaslı işlər görürlər. Təbiət qoruqlarının yaradılması, təbii parkların qorunması və nadir növlərin mühafizəsi üçün xüsusi layihələr üzərində çalışırlar. Göllərin, çayların, müalicəvi bataqlıqların qorunması üçün layihələri reallaşdırırlar.

Təbii sərvətlər, sözsüz ki, iqtisadiyyatın inkişafı və ekosistemlərin tarazlığının qorunması üçün vacibdir. Bərpaolunan və bərpaolunmayan resurslar arasındakı düzgün balansı qorumaq təbiətin gələcəkdə də var olmasını təmin edəcək yeganə yoldur. Bu səbəbdən ETSN ətraf mühitin mühafizəsi, meşə fondunun qorunması, su və hava ehtiyatlarının keyfiyyətinin yüksəldilməsi, torpaq erroziyasının qarşısının alınması və biomüxtəlifliyin saxlanılması kimi sahələrdə sistemli fəaliyyət göstərir. Qurum Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2001-ci ilə kimi müxtəlif adlarla fəaliyyət göstərən ETSN ötən 25 ildə bir çox beynəlxalq konvensiyaya qoşularaq, Azərbaycanın qlobal ekoloji təşəbbüslərdə fəal iştirakını təmin edib. Bu dövr ərzində ölkədə ekoloji siyasətin daha sistemli və məqsədyönlü şəkildə formalaşdırılması istiqamətində mühüm addımlar atılıb, təbiətin mühafizəsi və bərpası sahəsində yeni yanaşmalar tətbiq olunub. Meşə fondunun qorunması və bərpası, biomüxtəlifliyin saxlanılması, eləcə də xüsusi mühafizə olunan təbiət ərazilərinin genişləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirilib. Ətraf mühitin çirklənməsinin qarşısının alınması, sənaye müəssisələrində ekoloji nəzarətin gücləndirilməsi və ekoloji maarifləndirmə işlərinin genişləndirilməsi də ETSN-nin prioritetlərindəndir. Son illər isə "yaşıl enerji" keçidi, iqlim dəyişmələri ilə mübarizə və dayanıqlı inkişaf istiqamətləri daha da aktuallaşıb və bu sahədə beynəlxalq əməkdaşlıq genişlənib.

Bu istiqamətdə aparılan işlərin davamı olaraq, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda ekoloji vəziyyətin qiymətləndirilməsi, təbiətin bərpası sahəsində genişmiqyaslı tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Qeyd edək ki, burada meşə fondu torpaqlarının ümumi sahəsi 260 min hektar təşkil edir. İşğala qədər bu ərazilərin 228-230 min hektara yaxını meşə ilə örtülü olub. Təəssüf ki, işğal dövründə meşə sahələri ciddi zərər görüb, böyük hissəsi məqsədli şəkildə məhv edilib və istismar olunub. Nəticədə 54 min hektardan artıq meşə örtüyü tamamilə sıradan çıxarılıb, seyrəldilmiş ərazilər isə minlərlə hektarı əhatə edir.

Bu itkilər nəzərə alınaraq, ETSN tərəfindən Qarabağ və Şərqi Zəngəzurda meşəbərpa işlərinin həyata keçirilməsi əsas vəzifə kimi müəyyən edilib. Eyni zamanda biomüxtəlifliyin qorunması məqsədilə yeni və xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, qoruq və yasaqlıqların bərpası, eləcə də bəzi heyvan növlərinin reintroduksiyası (yenidən təbii mühitə buraxılması) və su bioresurslarının artırılması istiqamətində kompleks tədbirlər görülür.

Bu sahədə görülən işlərin daha geniş mənzərəsini təsəvvür etmək üçün Dövlət Statistika Komitəsinin məlumatlarına nəzər salmaq kifayətdir. Belə ki, meşə sahələrinin seyrəkləşməsinin və azalmasının, torpaqların erroziyaya uğramasının və ekosistemin deqradasiyasının qarşısının alınması, eləcə də ümumi ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə 2025-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti tərəfindən 7381,3 hektar sahədə meşəbərpa tədbirləri həyata keçirilib.

Görülən meşəbərpa tədbirləri ilə yanaşı, ölkədə flora və faunanın qorunması və təkrar istehsalının təmin edilməsi məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin də fəaliyyəti diqqətəlayiqdir. Flora və faunanın mühafizəsi, eləcə də təkrar istehsalı məqsədilə Azərbaycanda ümumi sahəsi 120,7 min hektar olan 10 dövlət təbiət qoruğu, 421,4 min hektar sahəni əhatə edən 10 milli park və 350,8 min hektar əraziyə məxsus 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Aydın olur ki, ölkə ərazisinin 10,3 faizi xüsusi mühafizə olunan təbiət ərazilərindən ibarətdir.

Bu rəsmi statistikaya söykənərək, deyə bilərik ki, ekoloqlar tərəfindən həyata keçirilən ətraf mühitin qorunması və karbon emissiyalarının azaldılması tədbirləri iqlim dəyişmələrinin təsirlərini azaltmağa, bu istiqamətdə müsbət nəticələr əldə etməyə kömək edir. ETSN işçiləri "yaşıl infrastruktur"un inkişafına xüsusi önəm verirlər. Özəlliklə də son illər enerji effektivliyini artırmaq, karbon emissiyasını azaltmaq üçün şəhərsalma və infrastruktur layihələrində "yaşıl dam"lar, ağacı bol olan parklardan istifadənin artırılması kimi təşəbbüslər həyata keçirilir.

Ekologiyanı və təbii sərvətləri qoruyan insanların əməyi gələcək dünya üçün böyük əhəmiyyət kəsb edir. Bu gün təbiətdən gələn səs məhz bu insanların fədakarlıq nəğməsidir. Onlar "yaşıl dünya"nın xilaskarıdırlar. Gözlərindəki "yaşıl ümid", ürəklərindəki "yaşıl arzu" gələcək nəslə sağlam planet ötürməyə stimul verir.

***Züleyxa ƏLİYEVA,* *"Azərbaycan"***





# Mədəniyyət





● Vəli Axundov - 110

## Həkim, alim və dövlət xadimi

**Azərbaycanın milli dövlətçiliyi, xalqımızın azad və xoşbəxt gələcəyi uğrunda mübarizələrdə izi qalan şəxsiyyətlərdən biri də bu il 110 illiyi qeyd olunan görkəmli alim, tanınmış ictimai-siyasi xadim, 1941-1945-ci illər müharibəsinin iştirakçısı Vəli Axundovdur.**



Vəli Yusif oğlu Axundov 1916-cı ilin mayında Bakının Saray kəndində sadə kəndli ailəsində dünyaya göz açıb. Orta məktəbi başa vurduqdan sonra sənət məktəbində, daha sonra Bakı Sənaye Texnikumunun Kimya şöbəsində təhsil alıb. Lakin daha böyük arzular və amallarla yaşayan Vəli bununla kifayətlənməmiş, illərlə ürəyində gəzdirdiyi müqəddəs peşəyə sahib olmaq üçün 1936-cı ildə Azərbaycan Tibb İnstitutuna (indi ADTU) daxil olmuşdur. O, yaxşı oxumaqla yanaşı, institutun ictimai-mədəni tədbirlərində xüsusi fəallıq göstərmiş, İctimai elmlər kafedrasının laborantı, "Tibbi kadrlar uğrunda" qəzetinin redaktoru və institut komsomol komitəsinin katibi olmuşdur.

Gənc məzun 1941-ci ildə institutu bitirdikdən sonra iyul ayında hərbi xidmətə çağırılmış və həmin il başlayan müharibənin əvvəlindən son günlərinədək cəbhədə həkim kimi qulluq etmişdir. Böyük həkimlik bacarığına malik olan Vəli Axundov cəbhədə 28-ci ordunun 20-ci atıcı diviziyasının sıralarında sıravi həkimlikdən əlahiddə tibbi-sanitar batalyonun komandiri vəzifəsinə qədər yüksəlmiş, Polşa, Almaniya və Çexoslovakiyada gedən döyüşlərin iştirakçısı olmuşdur. V.Axundov müharibənin ən gərgin məqamlarında belə Hippokrat andına sadiq qalaraq onlarca yaralı döyüşçünün sağalıb yenidən səngərə və həyata qayıtmasında böyük fədakarlıqlar göstərmişdir.

Hərbi xidmətə çağırıldığı ilk gündən vəzifə borcunu şərəflə yerinə yetirən Vəli Axundov müharibədən sonra - 1945-ci ilin oktyabrından 1946-cı ilin fevral ayına qədər Bakıda 48-ci əlahiddə zenit-pulemyot batalyonunda baş həkim vəzifəsində çalışmışdır. 1946-cı ilin mart ayından isə təhsil aldığı Azərbaycan Tibb İnstitutunun Tibb tarixi kafedrasında assistent vəzifəsində işləməyə başlamışdır. Bir müddət sonra Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun elmi işçisi, daha sonra direktoru olmuşdur. Az sonra Azərbaycan Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri seçilən V.Axundovun Gəncə və Bakı kimi sənaye şəhərlərində apardığı tədqiqatlar nəticəsində etdiyi yeniliklər böyük əkssəda doğuraraq keçmiş SSRİ-nin bir çox bölgəsində tətbiq olunmuşdur. Onun adı artıq yalnız Azərbaycanda deyil, ittifaq miqyasında sanitar-epidemioloji elminin simvoluna çevrilmişdir.

Ən böyük qayğısı isə su idi - təmiz, şəffaf içməli su. O deyirdi: "Su sağlamlığın aynasıdır". Əhali arasında yayılan xəstəliklərin arxasında çox zaman içməli suyun keyfiyyətsizliyi dayanırdı və o, bu sahədə ciddi tədqiqatlar aparmışdır. Sututarların sanitar vəziyyəti, sənaye tullantıları, qoruma tədbirləri - bütün bunlar V.Axundovun rəhbərliyi altında araşdırılmış, elmi həllərini tapmışdır.

Vəli Axundov tibb elmləri namizədi, sonra isə doktorluq elmi dərəcələrini almış, 1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir. O, ömrünün son illərinə qədər elmi fəaliyyətini davam etdirmiş, Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru vəzifəsində çalışmışdır. V.Axundovun xarakterik cəhətlərindən biri də öyrənməyə olan marağı idi. O, 70 yaşında ingilis dilini sıfırdan öyrənmişdir. Bu da onun daim inkişaf edən, öyrənən və yeniliklərə açıq bir şəxsiyyət olduğunu sübut edir. Elm yolunda yalnız biliklə yox, təşkilati işlərlə də öndə gedən V.Axundov təkcə kabinet alimi deyildi. O, 1954-1958-ci illərdə Azərbaycan SSR səhiyyə naziri, 1958-1959-cu illərdə Nazirlər Sovetinin sədri olmuşdur. 1959-1969-cu illərdə isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikaya rəhbərlik etmişdir.

Xalq yazıçısı Elçin xatirələrində yazmışdır: "1960-cı ildə Bakıda belə bir həyəcanlı söhbət gəzirdi: Ermənistan rəhbərliyi Moskvada məsələ qaldırıb ki, Naxçıvan coğrafi baxımdan Azərbaycandan kənardadır, guya buna görə böyük iqtisadi problemlər yaranır və bu muxtar respublikanı Ermənistana vermək lazımdır. Həmin vaxtlarda Akademiyanın indiki İstiqlal küçəsindəki əsas binasında Səməd Vurğunun vəfatının beşinci ildönümü münasibətilə xatirə gecəsi keçirilirdi və Məmməd Arif sədr, İlyas Əfəndiyev isə məruzəçi idi. Mən də ədəbiyyat həvəskarı olan bir yeniyetmə kimi - onuncu sinif şagirdi idim - o tarixi xatirə gecəsinə getmişdim. Həmin xatirə gecəsində, professor Abbas Zamanov xitabət kürsüsünə qalxıb, sonradan böyük səs-küyə, siyasi qalmaqala və əməlli-başlı milli təlatümə səbəb olmuş məşhur çıxışını etdi və o emosional çıxışın məğzi bundan ibarət idi ki, "biz heç vaxt Naxçıvanın bir qarışını da Ermənistana verməyəcəyik!" (Elə buna görə də tarixi gecə idi!)".

Vəli Axundov öyrənir ki, Tovmasyan həqiqətən də belə bir məsələ qaldırıb. Mikoyanın təsiri ilə Xruşşovun da belə bir fikri var. Düşünür ki, bu məsələyə siyasi büroda baxa bilərlər... Möhkəm hazırlaşır ki, öldü var, döndü yoxdu. Məsələ ilə əlaqədar Moskvada olan Vəli Axundovun qətiyyətli mövqeyi və Abbas Zamanovun siyasi qalmaqala səbəb olan çıxışından sonra Kremldə məsələni gündəlikdən çıxarırlar.

Həmin illər Sovet İttifaqında Xruşşov "mülayimləşməsi" dövrünə təsadüf etdiyindən ölkədə milli özünüdərkə və mədəni inkişafa baxış bucağı qismən dəyişmişdi. Keçmiş SSRİ ərazisində və onun tərkibindəki respublikalarda demokratik düşüncəyə yaşıl işıq yandırıldığından Azərbaycan dilinin təbliği məqsədilə müəyyən addımlar atıldı. Novruz bayramının dövlət səviyyəsində qeyd olunmasına can atılması da bu prosesin tərkib hissəsini təşkil edirdi. Hətta Moskva hakimiyyəti ilə bu bayramın dövlət səviyyəsində qeyd olunması müzakirə olundu. 1987-ci ildə razılıq alınandan sonra Mərkəzi Komitədə keçirilən işçi görüşündə Vəli Axundov ideoloji katib Şıxəli Qurbanova bu bayrama unudulmaz şənlik çalarlarının verilməsi göstərişindən sonra xalqımızın minilliklərə söykənən Novruz bayramının Azərbaycan ərazisində çox təntənəli və geniş şəkildə keçirilməsinə başlanıldı.

Akademik Vəli Axundov 300-dən çox elmi əsərin, 6 monoqrafiyanın, 11 kitabçanın, onlarca sanballı elmi məqalənin müəllifidir. V.Axundovun elmi rəhbərliyi və məsləhətçiliyi ilə 4 elmlər doktoru və 5 fəlsəfə doktoru yetişmişdir.

Akademik Vəli Axundovun çoxillik hərbi, elmi, elmi-təşkilati və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Lenin", iki dəfə (1945-ci və 1985-ci illərdə) II dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz", "Qafqazın müdafəsinə görə" və bir sıra başqa orden və medallarla, fəxri fərmanlarla təltif olunmuşdur.

Milli ruhlu böyük alim və dövlət xadimi 1986-cı il avqustun 22-də Bakıda vəfat etmişdir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

● Sənət dünyası

## Musiqinin canlı ruhu

**Bəzən insan peşəsinə tükənməz sevgi ilə bağlanan, işini ilahi məhəbbətlə görən sənətkarla rastlaşanda yalnız peşəkarlığını yox, ruhunu da görür. Onu ilk dəfə dirijor podiumunda görəndə bizdə də məhz belə bir hiss yarandı.**



Qarşımızda orkestri idarə edən adi musiqiçi yox, musiqinin ruhundan doğulmuş, notların, melodiyaların və duyğuların içindən gələn bir sənət möcüzəsi dayanmışdı. Zərif duruşu, ahəngdar hərəkətləri, qollarının havada çəkdiyi görünməz cizgilər bizə suyun üzərində sakit və məğrur şəkildə süzən qu quşunu xatırladırdı. Bir anlıq elə təsəvvür yaranırdı ki, onun ayaqları yerə toxunmur, sanki səhnənin sərhədlərini aşaraq musiqinin qanadlarında sonsuzluğa doğru süzür, hərəkətləri ilə görünməyən bir aləmin qapılarını açır. Əllərinin titrəyişi ilə havada görünməyən notlar yazır, baxışı ilə orkestrin dərinliyində gizlənən duyğuları oyadır, onun hər jesti musiqiyə yeni bir nəfəs verirdi. O an bir həqiqəti bütün varlığınla hiss edirsən - bəzi insanlar musiqini, sadəcə, ifa etmirlər, onlar zamanla, ruhla və sənətlə bütövləşərək musiqinin özünə çevrilirlər.

Musiqi bəşəriyyətin ən qədim, saf və ilahi dillərindən biridir. O, sözlərin ifadə edə bilmədiyi duyğuları danışır, insanın ruhunda gizlənən ən dərin hisslərə toxunur. Bəzən bir fortepianonun titrəyən səsi, skripkanın kövrək ahəngi, bəzən də orkestrin bütöv nəfəsi insanın iç dünyasında yeni aləm yaradır. Amma bu möhtəşəm harmoniyanın arxasında görünməyən qüvvə dayanır - bütün səsləri bir ruh, nəfəs, ürək ətrafında birləşdirən dirijor.



Dirijor, sadəcə, orkestrin rəhbəri deyil, eyni zamanda onun musiqi ruhunu anlayan, bəstəkarın yazdığı notlara həyat verən, onlarca fərqli musiqiçinin nəfəsini bir ahəngdə birləşdirən üzvüdür. Bir fərqlə ki, onun əlləri alətin yox, musiqinin ritmini müəyyən edir, baxışları ifaçılara yol göstərir, daxili enerjisi isə bütöv bir orkestri vahid komandaya çevirir. Dirijorun çubuğu ilə onlarca alət, yüzlərlə not, minlərlə duyğu birləşib əsər olur.

Qadın dirijor isə bu sənətin daxilində tamam başqa bir zəriflik, dərinlik yaradır. Onun incəliklə gücü, həssaslıqla iradəni, xarici görünüşlə daxili enerjini birləşdirən obrazı musiqiyə yeni bir rəng qatır. O, bəzən bir ana nəvazişi ilə orkestri sakitləşdirir, bəzən də böyük bir sərkərdə kimi bütün səsləri öz iradəsinə tabe etdirir. Onun əl və qollarının hərəkətində melodiya, baxışlarında hökm, ruhunda isə ifa etdiyi musiqiyə məhəbbət yaşayır. Belə sənətkarlar həyatlarını, sadəcə, musiqiyə həsr etmirlər, onlar musiqi ilə yaşayır, nəfəs alır, musiqini ruhlarına doğma sirdaş kimi qəbul edirlər. Səhnə onlar üçün işıqsaçan məkan olmaqla yanaşı, həm də ürəyin danışdığı müqəddəs aləmdir və həmin aləmdə dirijor çubuğunun hər titrəyişi insan ruhuna toxunan, zamanın yaddaşında iz qoyan bir sənət möcüzəsinə çevrilir.

Bu gün haqqında bəhs etdiyimiz İlahə Hüseynova musiqini peşə kimi yox, tale kimi yaşayan, notların arasında öz ruhunu tapan, səhnəyə çıxdığı hər an orkestrə təkcə ritm deyil, həyat verən nadir sənətkarlardandır. Onun dirijor podiumundakı duruşu musiqinin qadın zərifliyi ilə qovuşduğu möhtəşəm mənzərədir.

İlahə xanım ilk dəfə orkestrin qarşısına çıxdığı anı bu gün də həyəcanla xatırlayır: "Əllərim əsirdi, qulaqlarım uğuldayırdı, sanki Yer kürəsi tərsinə fırlanırdı. Əllərimi qaldırdığım an hər şey dəyişdi - özümü başqa bir aləmdə hiss etdim. O gün anladım ki, düşdüyüm bu aləm məni əbədi olaraq özünə bağladı. Bu gün də dirijor podiumuna çıxanda həmin hissi yaşayıram".

Böyük sənət həmişə görünənlə görünməyənin, eşidilənlə hiss edilənin qovuşduğu yerdə başlayır. Musiqi aləmində isə bu görünməz harmoniyanın memarı dirijordur. Dirijor, sadəcə, orkestrin önündə dayanaraq onu idarə etmir, həm də onlarca musiqiçinin nəfəsini, hissini, düşüncəsini və enerjisini vahid bir axara çevirir. Fransızca "idarə etmək, yönəltmək, başçılıq etmək" mənasını daşıyan "dirijor" anlayışı öz mahiyyətində həmçinin notların arxasında gizlənən mənəvi dünyanı səslərə çevirməyi ifadə edir. Onun əlindəki kiçik çubuq bəzən yüzlərlə sözün deyə bilmədiyini ifadə edir, qollarının hərəkəti ritmi müəyyənləşdirir, baxışları orkestrə güvən verir, jestləri musiqinin emosional rənglərini açır. Bir anlıq əl işarəsi ilə alovlu kulminasiya yaradan, növbəti anda incə bir jestlə bütün zalı sükuta qərq edən dirijor, əslində, səslərin deyil, duyğuların idarəedicisidir. O, yalnız musiqiçilərin qarşısında dayanmır, eyni zamanda bəstəkarın ruhu ilə ifaçının ürəyi arasında körpü qurur. Elə buna görə də hər dirijor eyni əsəri fərqli səsləndirir. Çünki hər bir dirijorun öz daxili aləmi və musiqi təxəyyülü var.

Bu gün İlahə Hüseynova haqqında danışarkən onun yalnız peşəkar dirijor yolu keçdiyini demək az olar. Çünki onun musiqi ilə münasibəti peşədən çox həyatın ən saf və təbii çağlarında başlayıb. Musiqi onun üçün uşaqlıqdan nəfəs aldığı, böyüdüyü, ruhuna hopan bir yaşam tərzidir. İlahə xanım özü bu barədə xüsusi bir səmimiyyətlə danışır: "Musiqi həyatımın hər mərhələsində fərqli rəngdə olub. Uşaqlığımda o, mənim üçün bir nağıl idi". Musiqiçi ailəsində böyüyən gələcək dirijorun ilk musiqi yaddaşı ailə mühitindən başlayır. Xalası - Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış simalarından olan Nailə Mirməmmədlinin fortepianoda ifa etdiyi nəğmələr, ailədə tez-tez dinlənilən klassik əsərlər, milli musiqi nümunələri, o cümlədən muğam ifaları onun gələcək musiqi zövqünün formalaşmasında mühüm rol oynayıb. "Uşaqlıqda musiqi mənim üçün layla idisə, yeniyetməlikdə məsuliyyətə çevrildi" deyən İlahə xanım söyləyir ki, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində təhsil aldığı illərdə musiqi artıq onun üçün tələb, nizam-intizam və zəhmət anlamı daşıyırdı. Saatlarla davam edən məşqlər, müəllim tələbləri, çətin məşğələlər gələcək dirijorun xarakterini formalaşdırırdı. Sonralar bu zəhmətin əsl qiymətini daha dərindən anladı. Əsl dönüş nöqtəsi isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasındakı tələbəlik illərində baş verdi. Məhz burada musiqi onun üçün böyük sevgi və həyat missiyasına çevrildi. O illəri xatırlayarkən deyir: "Akademiyada musiqiyə aşiq oldum. Dərsə getmək, öyrənmək, məşq etmək mənim üçün artıq bir ehtiyac idi".

Əməkdar artistin taleyini dəyişən anlardan biri də xalq çalğı alətləri orkestrini ilk dəfə canlı dinləməsi olub. İlahə xanım həmin gün həyatında yeni bir mərhələnin başladığını hiss etdiyini deyir: "Qarşıma məqsəd qoydum ki, bir gün mən də orkestrin qarşısında dirijor kimi dayanmalıyam". Onun bu arzusunun reallaşmasında görkəmli sənətkarlar - Süleyman Ələsgərov və Ağaverdi Paşayev xüsusi rol oynayıb. Xüsusən Ağaverdi müəllimin sənət məktəbi, tələbkarlığı və inamı gənc xanımın dirijor kimi formalaşmasında həlledici olub.

Sonda qeyd edək ki, Azərbaycan musiqiçiləri arasında öz dəst-xəti, zərifliyi və peşəkarlığı ilə seçilən İlahə Hüseynova Bakıda anadan olub. İlk musiqi təhsilini qeyd etdiyimiz kimi, Bülbül adına Orta İxtisas Musiqi Məktəbində alıb, sonra xor-dirijorluq ixtisası üzrə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsilini davam etdirib. Tələbəlik illərində Xalq artisti, professor Ağaverdi Paşayevin sənət məktəbində xalq çalğı alətləri orkestri dirijorluğunun sirlərini mənimsəyib.

2000-ci ildən etibarən Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrində fəaliyyətə başlayan İlahə Hüseynova uzun illərdir bu kollektivlə ölkəmizdə və beynəlxalq səhnələrdə uğurla çıxış edir. Onun rəhbərliyi ilə orkestr müxtəlif dövlət tədbirlərində, beynəlxalq musiqi tədbirlərində, o cümlədən Fəcr musiqi, İpək yolu Beynəlxalq Musiqi və Qəbələ Beynəlxalq Musiqi festivallarında uğurlu konsert proqramları ilə çıxış edib. Son illər İlahə xanımın rəhbərliyi ilə "Film musiqiləri" layihəsi də böyük maraqla qarşılanır. Burada Azərbaycan və dünya kinosunun sevilən melodiyaları milli çalğı alətlərinin ifasında yeni nəfəsdə tamaşaçıya təqdim olunur.

Sənətə sədaqəti, pedaqoji fəaliyyəti və milli musiqimizin təbliğindəki xidmətlərinə görə İlahə Hüseynova 2021-ci ildə Əməkdar artist fəxri adına layiq görülüb. Lakin onu fərqləndirən yalnız titullar deyil. Onun dirijor podiumundakı hər çıxışı musiqinin canlı ruhudur. İlahə xanım kimi sənətkarlar isə bu ruhu musiqiyə çevirməyi bacarırlar.

***Elşən QƏNİYEV, "Azərbaycan"***



## Tanınmış tarzən Sahib Paşazadə Özbəkistanda mükafatlandırılıb

**Beynəlxalq Muğam Mərkəzinin direktoru, Əməkdar artist, tanınmış tarzən, Özbəkistanın mədəniyyət səfiri Sahib Paşazadə Özbəkistan Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Ziyoli Avlod" Mədəniyyət və Təhsil Mərkəzi tərəfindən təltif edilib.**

Muğam Mərkəzindən AZƏRTAC-a bildirilib ki, Əməkdar artist bu təltifə Özbəkistanla mədəni və təhsil sahəsində göstərdiyi xidmətlərə görə layiq görülüb.

Mərkəzin direktoru Ənvər Xojinazarov tarzənə "Ziyali Avlod - Millat İftixorı" medalını təqdim edib. Mükafatlandırma mərasimində hər iki mərkəzin rəhbərləri gələcəkdə daha sıx əməkdaşlıq etmək və birgə memorandum imzalamaq barədə razılığa gəliblər.

Sahib Paşazadə öz növbəsində sənətinə və xidmətlərinə göstərilən diqqətə görə mərkəzin rəhbərliyinə təşəkkür edərək Ənvər Xojinazarovu Azərbaycana səfərə və Beynəlxalq Muğam Mərkəzini ziyarətə dəvət edib.

## Əlincə qalasında "Turan marşı"

**Naxçıvanın tarixi abidələrindən olan Əlincə qalasında Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovaların ifa etdikləri "Turan marşı" klipinin təqdimatı olub.**



Qalanın zəngin tarixi, əzəməti və qəhrəmanlıq salnaməsi onun şanlı keçmişini əks etdirən klipdə öz əksini tapıb.

Klipin özəlliklərindən biri də çəkilişlər zamanı tarixi dövrün ruhunun qorunmasına xüsusi diqqət yetirilməsidir. Bu məqsədlə milli geyimlər üzrə mütəxəssis Gülzadə Abdulovanın tikdiyi geyimlərdən istifadə olunub, obrazların vizual həlli tarixi ənənələrə uyğun şəkildə hazırlanıb.

Tanınmış telejurnalist, layihənin ideya müəllifi Səidə İbrahimli deyib: "Mədəni irsin qorunması və təbliği istiqamətində görülən işlərə töhfə vermək məqsədilə Naxçıvanda, Əlincə qalasında çəkilişlər aparmaq qərarına gəldik. İlk dəfədir ki, bu qalanın zəngin tarixini, əzəmətini və qəhrəmanlığını, şanlı keçmişini əks etdirən klip çəkdik. Çalışdıq ki, həm musiqi, həm məkan, həm vizual görüntü, həm də ifa bir-birini tamamlasın. Çəkilişlərin əsas mərhələlərindən biri qalanın ən yüksək nöqtəsində - 44 günlük Vətən müharibəsi şəhidlərinə həsr olunmuş kompleksdə həyata keçirilib. Burada ucaldılan bayraq fonunda lentə alınan kadrlar layihəyə xüsusi vətənpərvərlik ruhu qatıb".

Qeyd edək ki, "Turan marşı"nın sözləri və musiqisi şair-publisist Nəsibə İsrafilqızına məxsusdur. Qalanın əzəmətini və möhtəşəmliyini əks etdirən, mövzuya uyğun kadrlar rejissor və videoqraf Faiq Əliyev tərəfindən hazırlanıb.

## Azərbaycan İstanbulda keçirilən Etnoidman Beynəlxalq Mədəniyyət Festivalında təmsil olunub

**Türk dünyasının ortaq dəyərləri, milli mədəniyyətimiz, eləcə də idman növlərimizin tanıdılması məqsədilə İstanbulda keçirilən VIII Etnoidman Beynəlxalq Mədəniyyət Festivalı başa çatıb.**



AZƏRTAC xəbər verir ki, bu il "Dünya burada" şüarı ilə keçirilən festival çərçivəsində ənənəvi idman növləri, atlı oyunlar, oxçuluq, güləş, səhnə nümayişləri, eləcə də əl sənətləri və etnik musiqi proqramları təşkil edilib.

Festivalda Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi "Zəngəzur" Xalq Rəqsləri Ansamblı ilə iştirak edib. Tədbirdə həmçinin "Natiq" ritm və türkdilli xalqların nümayəndələrindən ibarət "Rüzgar" qruplarının ifaları dinlənilib.

Festivalda Yaponiya, Qazaxıstan, Litva, Rusiya, Qırğızıstan kimi ölkələri əhatə edən geniş coğrafiyadan ənənəvi idman növləri, oyunlar və mədəni nümayişlər yer alıb.

Tədbirin idman oyunları bölməsində iştirakçılar Azərbaycanın milli idman növü zorxana ilə də yaxından tanış olmaq imkanı əldə ediblər.

Bununla yanaşı, ziyarətçilərə oxatma və atçılıq kimi ənənəvi idman növlərini sınamaq, emalatxana sahələrində isə istehsal prosesinin bir hissəsi olaraq mədəni irslə birbaşa təmas qurmaq imkanları yaradılıb. Ənənəvi idman və oyunlar, səhnə sənətləri, əl işləri və qastronomiya sahəsində təqdim olunan məzmunlar milli dəyərləri təcrübə ilə birləşdirilib. Eyni zamanda iştirakçılar festival ərazisində təşkil olunan emalatxanalarda ənənəvi sənətlər üzrə təcrübə qazanmaq imkanları əldə ediblər.

# Qurban ətinin emalı və saxlanılması zamanı nələrə diqqət edilməlidir

**Qurban bayramı islam dünyasında mərhəmət, paylaşma və yardımlaşma simvolu kimi qeyd edilir. Bu bayram insanları mənəvi baxımdan bir araya gətirir, cəmiyyətdə birlik və sosial həmrəyliyin möhkəmlənməsinə xidmət edir. Qurban ibadəti yalnız dini ayin deyil, eyni zamanda ehtiyacı olan insanlara dəstək göstərmək, paylaşmaq və xeyirxahlıq etmək kimi ali dəyərlərin təcəssümüdür.**




Qafqaz Müsəlmanları İdarəsinin məlumatına görə, bu il Qurban bayramı mayın 27-nə təsadüf edir. Qurban kəsimi həmin tarixdən başlayaraq üç gün davam edə bilər. Bayram günü ölkənin bütün məscidlərində bayram namazları qılınacaq.

Qurbanlıq heyvan sağlam və kəsim üçün yararlı olmalıdır. Xəstə, həddindən artıq arıq və ya ciddi qüsurlu heyvanların qurban kəsilməsi düzgün hesab edilmir. Heyvanların müəyyən yaş həddinə çatması da vacib şərtlərdəndir. Belə ki, qoyun və keçinin ən azı bir yaşı, inək və öküzün iki yaşı, dəvənin isə beş yaşı tamam olmalıdır.

Qurban bayramında diqqət edilməli əsas məqamlardan biri gigiyena və qida təhlükəsizliyidir. Xüsusilə havaların isti keçdiyi dövrdə qurbanlıq ətinin düzgün emal olunmaması və saxlanılmaması sağlamlıq problemlərinə səbəb ola bilər. Qida məsələləri üzrə mütəxəssis Ağa Salamovun sözlərinə görə, qurban kəsimi həyata keçirilən məkanlarda sanitar-gigiyenik qaydalara ciddi riayət edilməlidir. Kəsilən heyvanlar mütləq baytar nəzarətindən keçməli, istifadə olunan alətlər və qablar isə hər istifadədən sonra yuyulub dezinfeksiya olunmalıdır.

Mütəxəssis qeyd edib ki, xəstəlik daşıyıcısı olan heyvanlardan insanlara bakterial, virus, parazit və göbələk mənşəli müxtəlif infeksiyalar keçə bilər. Xüsusilə yay aylarında yüksək temperatur bakteriyaların sürətlə çoxalması üçün əlverişli şərait yaradır. Elmi məlumatlara görə, uyğun mühitdə bir bakteriya cəmi üç saat ərzində yüz milyonlarla, 12 saat ərzində isə milyardlarla sayda çoxala bilir. Bu isə gigiyena qaydalarına əməl edilmədikdə qida zəhərlənmələrinin sürətlə yayılmasına səbəb olur.

"Qurbanlıq ətin kəsimdən sonra uzun müddət açıq havada və ya isti şəraitdə saxlanılması yolverilməzdir. İnsanlar çox vaxt əti doğrayaraq polietilen torbalara yerləşdirir və saatlarla həmin vəziyyətdə saxlayırlar. Bu zaman torbanın içində hava dövranı zəifləyir, istilik artır və mikroorqanizmlərin çoxalması üçün uyğun mühit yaranır. Ət polietilen torbaya qoyulsa belə mütləq sərin şəraitdə saxlanılmalıdır. Qurbanlıq ət mümkün qədər tez, ən gec iki saat ərzində paylanılmalı və ya soyuducuya yerləşdirilməlidir. Ətin uzun müddət maşında saxlanılması da təhlükəlidir. Xüsusilə günəş altında qalan avtomobillərdə temperaturun yüksəlməsi ətin keyfiyyətinə mənfi təsir göstərir və bakterial çirklənmə riskini artırır. Bu səbəbdən qurban əti kəsildikdən dərhal sonra ünvana çatdırılmalıdır", - deyə ekspert deyib.

Qida təhlükəsizliyi baxımından ətin düzgün saxlanılması da mühüm şərtlərdən hesab olunur. Ağa Salamovun sözlərinə görə, xırdabuynuzlu heyvanların əti təxminən 12 saat, iribuynuzlu heyvanların əti isə 24 saatdan sonra istehlaka daha yararlı olur. Təzə kəsilmiş ətin emalı və bişirilməsi prosesi də uzun çəkməməlidir. Ət otaq temperaturunda nə qədər çox qalarsa, mikrobioloji çirklənmə riski bir o qədər yüksəlir. Bu səbəbdən ət ya qısa müddətdə bişirilməli, ya da uyğun temperaturda soyuducuda saxlanılmalıdır.

Qurban bayramı insanların bir-birinə yaxınlaşdığı, yardımlaşma və paylaşmanın ön plana çıxdığı xüsusi günlərdən biridir. Dini dəyərlərlə yanaşı, sağlamlıq amilinin də ön plana çıxarıldığı bu bayramda vətəndaşların gigiyena və qida təhlükəsizliyi qaydalarına əməl etməsi xüsusilə vacibdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




# Şükürbəyli kəndində daha 119 ailəyə evlərinin açarları təqdim olunub

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.**

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Şükürbəyli kəndinə 119 ailə - 535 nəfər köçürülüb. İşğaldan azad olunan Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib, dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar. Qarşılanmadan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.







Həmin ailələrə evlərinin açarları təqdim edilib. Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək evlərində məskunlaşıblar.

Qeyd edək ki, Şükürbəyliyə rayonun Şıxalıağalı, Dəjəl kəndləri və Mahmudlu qəsəbəsinin sakinləri də daxil olmaqla, ümumilikdə, 2522 nəfərin 615 ailənin köçürülməsi nəzərdə tutulur. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Məhəmməd Bağır Qalibaf yenidən İran parlamentinin sədri seçilib

## Tehrandan seçilən millət vəkili səs çoxluğu ilə vəzifəsini qoruyub saxlayıb

**Tehrandan olan millət vəkili Məhəmməd Bağır Qalibaf yenidən İran parlamentinin sədri seçilib. Yarırəsmi Fars xəbər agentliyinin məlumatına görə, mühafizəkarlara yaxınlığı ilə tanınan Qalibaf 12-ci çağırış Məclisin üçüncü ili üçün parlament sədri vəzifəsinə səsvermədə mühafizəkar millət vəkili Məhəmməd Təqi Nəğdəli və Osman Salari ilə yarışıb.**

Parlament səsverməsindən sonra Qalibaf 276 səsdən 235-ni toplayaraq yenidən Məclis Sədri seçilib. Nəğdəli 29, Salari 7 səs alıb, 5 bülleten etibarsız hesab edilib.

İranda parlament seçkiləri hər dörd ildənbir, parlament sədrinin seçkiləri isə hər il keçirilir.

Məhəmməd Bağır Qalibaf 1961-ci ildə Məşhəddə anadan olub. O, Tehran Universitetinin Siyasi coğrafiya fakültəsini bitirib. İran-İraq müharibəsi zamanı İslam İnqilabı Keşikçiləri Korpusuna qoşulub. Hərbi Hava Qüvvələrinin komandanı vəzifəsində çalışarkən siyasi coğrafiya üzrə doktorluq dərəcəsi alıb. 1994-cü ildə Qalibaf böyük dövlət layihələrini və müqavilələrini həyata keçirmək üçün yaradılan "Xatəm əl-Ənbiya" tikinti qərargahına rəhbərlik edib. 9 iyul 1999-cu ildə Tehran Universitetinin tələbələrinin hökumət əleyhinə etirazlarından sonra o, ovaxtkı islahatçı Prezident Məhəmməd Xatəmiyə qarşı ordudan təhdid məktubu imzalayıb.



Qalibaf illər ərzində İranın polis rəisi vəzifəsində çalışıb və 2005-ci ildən 2017-ci ilə qədər Tehranın meri olub. 2017-ci ildə İranın Ali Lideri Əli Xamenei onu Siyasi Məqsədyönlüyün Müəyyənləşdirmə Şurasına təyin edib. Elə həmin il Qalibaf prezidentliyə namizədliyini irəli sürüb, lakin başqa bir mühafizəkar namizəd İbrahim Rəisinin lehinə geri çəkilib.

Qalibaf hazırda həm parlamentin spikeri, həm də ABŞ ilə danışıqlar aparan nümayəndə heyətinin rəhbəridir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -156 (yüz əlli altı) manat
6 aylıq - 78 (yetmiş səkkiz) manat
3 aylıq - 39 (otuz doqquz) manat
1 aylıq - 13 (on üç) manat




Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.

# Ermənistan qarışır

## Revanşistlər Nikol Paşinyana qarşı mübarizəni kəskinləşdirir, hətta onu ölümlə təhdid edirlər

**Ermənistanda iyunun 7-nə təyin edilmiş parlament seçkilərinə sayılı günlər qalıb. Seçki günü yaxınlaşdıqca ölkə daxilindəki siyasi gərginlik intriqa elementlərindən çıxaraq açıq-aşkar fiziki təhdidlər müstəvisinə keçir. Parlamentdəki hakim "Vətəndaş Müqaviləsi" fraksiyasının sədri Hayk Koncoryan Baş nazir Nikol Paşinyanın separatçılar tərəfindən hədələndiyini bildirib. Onun sözlərinə görə, maskalı və silahlı şəxslər internetdə video paylaşaraq Baş naziri ölümlə təhdid edirlər. Hökumət başçısını hədələyənlərin üzlərində maska olduğunu bildirən Koncoryan naməlum şəxsləri "terrorçu" adlandırıb.**



"Respublika" partiyasının təmsilçisi Anahit Adamyan təhdidlərin arxasında Robert Koçaryanın olduğunu iddia edib. Adamyanın fikrincə, Koçaryan seçkilərdə uduzacağını bildiyi üçün Baş naziri fiziki olaraq aradan götürmək qərarına gəlib. Siyasətçi 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentində törədilən terror aktını xatırladıb: "Həmin hadisələri yenidən təkrarlamağa çalışırlar. Bütün bunlar iyunun 8-də bitməyəcək, indidən seçkilərin saxtalaşdırılacağını iddia etmələri təsadüfi deyil".

Ermənistanın Baş naziri Nikol Paşinyan təhdidlərə cavab olaraq adekvat cavab veriləcəyini deyib və seçicilərlə görüşdə separatçıların onu təhdid etməsinə sərt reaksiya verib: "Bunlar kimdir axı gəlib mənə barmaq silkələyirlər? Qarabağın qondarma elitası, hamınız buradan rədd olun, övladlarımızın yerinə siz ölməli idiniz. Talançı heyvanlar. Siz Qarabağ ermənilərini də girov götürmüşdünüz". Baş nazir qondarma "parlament və hökuməti" quran separatçıların kökünü qazıyacağını, rəqiblərini siyasi meydandan birdəfəlik uzaqlaşdıracağını söyləyib.

Baş nazir Nikol Paşinyanın ölümlə hədələnməsi və hakim komandanın bu təhdidləri birbaşa Robert Koçaryanla əlaqələndirməsi daxili xaosun dərinləşməsindən xəbər verir. Yaranmış mənzərə Ermənistanın keçmişi ilə gələcəyi arasında kəskin qarşıdurmanın təzahürüdür. Paşinyan və komandası isə qarşı tərəfin təhdidlərini seçkiqabağı kampaniyada siyasi alət kimi istifadə edir. Adamyanın parlamentdə törədilmiş terror aktını xatırlatması da təsadüfi deyil. Hakim komanda cəmiyyətə keçmiş "Qarabağ klanı"nın və revanşist müxalifətin hakimiyyətə gəlmək üçün yenidən qan tökməyə hazır olduğu, ölkəni uçuruma sürükləyəcəyi mesajını verir. Paşinyan rəqiblərini fərarilikdə, talançılıqda ittiham etməklə cəmiyyətin həssas nöqtəsinə toxunur.

Ermənistan cəmiyyətindəki parçalanmanı daha da dərinləşdirən mövcud durum seçkilərdən sonrakı dövrün sakit keçməyəcəyini, daxili siyasi böhranın yeni mərhələyə qədəm qoyacağını proqnozlaşdırmağa əsas verir. Ümumən Ermənistanda baş verənlər seçkilərdə hansı qüvvənin qalib gələcəyindən asılı olmayaraq, ölkənin böhran içində qalacağını göstərir.

Son günlərdə Ermənistanda keçirilən rəy sorğularının nəticələri də göstərir ki, seçicilərin əksəriyyəti Nikol Paşinyanın hakimiyyətdə qalmasında maraqlıdır. "Gallup"un Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan bildirib ki, mayın 19-21-də keçirilən sorğuda respondentlərin 28,8 faizi hakim "Vətəndaş Müqaviləsi" Partiyasına, yəni Nikol Paşinyana, 14,9 faizi Samvel Karapetyana, 12,1 faizi isə Robert Koçaryana səs verib.

Beynəlxalq Respublikaçılar İnstitutu da Ermənistanın ən etibarlı siyasi və ictimai xadimləri ilə bağlı sorğu məlumatlarını açıqlayıb. İştirakçılar özləri üçün ən etibarlı siyasi xadimin adını çəkiblər. Nikol Paşinyanı respondentlərin 29 faizi dəstəkləyib, Robert Koçaryana isə cəmi 4 faiz etimad göstərilib. Sorğunun nəticələri seçicilərin müxalifətə olan inamsızlığının bariz göstəricisidir. Koçaryan və digər müxalif siyasilərin cəmiyyətə vəd etdikləri yeni fəlakət ssenariləri erməni toplumunu tamamilə bu uğursuz qüvvələrdən uzaqlaşdırır.

Revanşist dairələrin, koçaryanların dərk etmədikləri odur ki, regionda tamamilə yeni reallıq hökm sürür. Azərbaycanın diktə etdiyi və beynəlxalq birliyin qəbullandığı yeni geosiyasi nizam daxili intriqalar meydanına çevrilmiş bir ölkədə səsləndirilən absurd iddialarla dəyişdirilə bilməz. Erməni toplumunun revanşistləri dəstəkləməsi ilk növbədə Ermənistanın öz gələcəyinə və onsuz da sarsılmış dövlətçilik sütunlarına daha ağır zərbə vuracaq. Siyasi çəkişmədən kimin "sağ" çıxmasından asılı olmayaraq, Ermənistanın qarşısında yeganə real seçim var: regional reallıqları qəbul edib sülh prosesini yekunlaşdırmaq, ya da daxili nifrət və xaosun içində boğulmaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Yağıntılar bu gün axşam tədricən kəsiləcək

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Gündüz bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi axşam cənub-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 16-18, gündüz 22-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-65 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-18, gündüz 23-28, dağlarda gecə 4-9, gündüz 12-17, bəzi yerlərdə 20-23 dərəcə isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Nəsimi Rayon İcra Hakimiyyətinin rəhbərliyi və kollektivi rayon icra hakimiyyətinin Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini - Ərazi-təşkilat məsələləri sektorunun müdiri Vaqif Zeynalova anası

**NARGİLƏ ZEYNALOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3816
Sifariş 681

Qiyməti 60 qəpik